RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 224 (8247) CÜMƏ AXŞAMI, 10 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin 106-cı qəsəbə töhfəsi

Prezident 2003-cü ildən etibarən qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluqlarının təmin edilməsi ilə bağlı 70-dən çox fərman, sərəncam imzalayıb



**Məcburi köçkünlər üçün salınmış qəsəbələrin açılışlarında iştirak edən İlham Əliyevin və Mehriban Əliyevanın yeni mənzillərlə təmin olunan vətəndaşlarla görüşləri, çay süfrəsi ətrafında səmimi söhbətləri xoş ənənəyə çevrilib.**

Bu görüşlər, söhbətlər mahiyyət etibarilə respublikamızdakı xalq-iqtidar birliyinin təsdiqi olmaqla yanaşı, həm də məcburi köçkünlərin yaddaşında unudulmaz günlər və xoş xatirə kimi qalır. İki gün əvvəl Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirakı və məcburi köçkün Fəridə Cabbarovanın ailə üzvləri ilə söhbətləri də xoş təəssüratlar yaratdı.

### Mənzillə təminat sistemli və davamlıdır

Ümumiyyətlə, sosial rifahın davamlı şəkildə yüksəlməsi, insanların layiqli həyat tərzinin təmin olunması baxımından Azərbaycan regionun ən nümunəvi dövlətləri sırasında yer almaqdadır. Son illərin iqtisadi islahatlarına paralel olaraq sosial islahatlar da davamlı xarakter alıb və bunun nəticəsində əhalinin maddi gəlirləri mütəmadi artır, yaşayış şəraiti yüksələn xətt üzrə inkişaf edir. Bu, həm də Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən və sürətli tərəqqiyə xidmət edən siyasətin əsas məqsədlərindən birini təşkil edir.

Məqsədyönlü sosial siyasət Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti üzündən doğma yurd-yuvalarını tərk edərək qaçqın və məcburi köçkün həyatı yaşayan insanların yaşayış durumuna da təsirsiz ötüşmür. MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə ilk yerlərdə duran dövlətlərdən biri olmasına baxmayaraq, Azərbaycan bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkələrdən hesab olunur. Qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini təşkil edir və göstərilən istiqamətdə uğurlu nəticələrin əldə olunduğu beynəlxalq miqyasda da açıq etiraf olunur.

Ardı 5-ci səh.

# Azərbaycan Gürcüstan üçün çox önəmli və ən yaxın tərəfdaşlardan biridir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Baş Nazir Giorgi Qaxariyanı salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Baş Nazir. Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

İlk növbədə, sizi Baş Nazir vəzifəsinə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Siz dəfələrlə Azərbaycanda səfərdə olmusunuz. Mən sizinlə keçirdiyim görüşləri böyük məmnunluq hissi ilə xatırlayıram.

Ardı 2-ci səh.





◆ Aida İmanquliyeva - 80

## Mehriban ƏLİYEVA: "Anamın yoxluğunu hər zaman hiss edirəm"



- Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam Azərbaycanda ilk qadın professor, şərqşünaslıq üzrə elmlər doktoru idi. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi...

O, hədsiz dərəcədə mehriban və kifayət qədər qapalı qadın idi. Görünür, o məndə yüksək məsuliyyət hissini formalaşdırmağı bacarıb...

Təəssüf ki, Aida xanım həyatdan çox tez, 53 yaşına çatmadan köçdü. Altı ay ərzində gözümün qabağında, qollarım üstündə bu insanı itirdim. Yəqin ki, əsas göz yaşlarımı o vaxt axıtmışam... Onun yoxluğunu hər zaman hiss edirəm... Zərif və şəfqət dolu qəlbi olan bu xanım-alim ətrafındakı insanların problemləri ilə maraqlanır, hamıya qayğı və nəvazişlə yanaşırdı. Çoxşaxəli yaradıcılıq və ictimai fəaliyyətinə baxmayaraq, Aida xanım Şərq qadınına xas olan incə ruhunu qoruyub saxlayan çox gözəl həyat yoldaşı, mehriban ana, qayğıkeş nənə, əsl aristokrat qadın idi. Bu gün onun həyatını övladları və nəvələri davam etdirir, xatirəsi isə elmi əsərlərində yaşayır.

# Əbədiyaşar Aida

**Deyirlər, insan hələ dünyaya gəlməmişdən öncə Yaradan onun alın yazısını müəyyənləşdirir. Ömür yolunu necə keçəcəyi, hansı nailiyyətləri əldə edəcəyi, həyatda nə qazanıb nə itirəcəyi, necə bir tale yaşayacağı əvvəldən yazılmış olur.**

Alın yazısı həqiqətən varmı, yoxmu - bunu demək çətindir. Amma bilinən bir gerçək var - tale hər kəsə bir ömür payı qismət edir. O ömrü necə yaşayacağını isə insan özü seçir. Ya sadəcə yaşamaq naminə yaşayır, ya da yaşatmaq naminə...

O, ikinci yolu seçdi. Ömrünü sevdiyi elm sahəsinə həsr etməklə yanaşı, yeni cığırlar açdı, özünün yolunu, məktəbini yaratdı. Və adını elm tariximizə əbədi həkk etdirdi. Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru, ilk qadın professor kimi...

"Unudulmazlar"da görkəmli şərqşünas alim, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın həyat və yaradıcılığına nəzər salacağıq.

Ardı 7-ci səh.



# Ərəbşünaslığın parlaq ulduzu

**Hələ qədim zamanlardan elm aləmində əksərən kişilər hakim olmuş, qadınlar isə yalnız nadir hallarda bu sahəyə nüfuz edə bilmişlər. Qadın elə bir parlaq zəkaya və istedada sahib olmalı idi ki, kişilərlə bərabər elmin uca zirvəsinə yüksələ bilsin.**

Elm olimpində parlayan bu cür istedadlı qadınlardan biri olmaq görkəmli ərəbşünas alim, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru Aida xanım İmanquliyevanın qismətinə düşdü. Tam mənası ilə kamil bir Azərbaycan qadını olan Aida xanım mənəvi və zahiri gözəlliyi ilə yanaşı, həm də kamil insan, bütün qəlbi ilə xalqına bağlı olan xanım idi.

Yəqin ki, Aida xanım şəxsiyyətinin bütün qayəsini, cövhərini onun qızı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadan daha dəqiq ifadə etmək çətin olar: "Dərin məsuliyyət hissi, istənilən işdə ən yüksək nəticə göstərmək cəhdi, özünə qarşı tələbkarlıq, intizamlılıq - anamın mənə aşıladığı keyfiyyətlərdir. Nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, qənirsiz gözəl Aida İmanquliyeva. Hər cür ədalətsizliyə qarşı barışmaz, öz işinin, elmin və pedaqogikanın vurğunu olan anam qısa həyatı ərzində ağlasığmaz ucalıqlara qalxmışdı. O, ərəb ədəbiyyatının öyrənilməsində yeni elmi məktəb yaratmış, Azərbaycan Milli Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru olmuşdu. Dünya şöhrətli alim olan anamın əsərləri bu gün də elm aləmində yüksək qiymətləndirilir. Ancaq buna baxmayaraq, o həmişə əsl Qadın olaraq qalırdı. Onun böyük ürəyi, səmimi, incə ruhu vardı".

Aida xanım 10 oktyabr 1939-cu ildə görkəmli jurnalist Nəsir İmanquliyevin və Gövhər xanımın ailəsində dünyaya göz açmışdır.

Ardı 6-cı səh.

# Azərbaycan Gürcüstan üçün çox önəmli və ən yaxın tərəfdaşlardan biridir

*Əvvəli 1-ci səh.*





Bu dəfə siz qardaş ölkənin Baş Naziri kimi Azərbaycana səfər edirsiniz və sizin Baş Nazir kimi ilk xarici səfərinizdir. Bu, bizi olduqca məmnun edir. Birinci səfəriniz Azərbaycana edilir və bu, bir daha onu göstərir ki, Azərbaycan Gürcüstan üçün çox önəmli və ən yaxın tərəfdaşlardan biridir. Bizim üçün də Gürcüstan ən yaxın tərəfdaşdır və ən yaxın ölkələrdən biridir. Bizi birləşdirən ortaq tarix, ortaq coğrafi məkan əlaqələrimizin inkişafı üçün gözəl təməldir. Müstəqillik dövründə əlaqələrimiz uğurla inkişaf edib və bu gün bir çox sahələri əhatə edir. Biz beynəlxalq təşkilatlarda bir-birimizin ərazi bütövlüyünü dəstəkləyirik və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik.

Şadam ki, iqtisadi sahədə gözəl nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında ilk yerlərdədir. Birgə həyata keçirdiyimiz neft-qaz və nəqliyyat layihələri ikitərəfli formatdan çıxıb və qlobal məna daşıyır. Əlbəttə ki, insanlar arasındakı əlaqələr xüsusi məna daşıyır. Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bu əlaqələrin inkişafında çox önəmli amildir. Bir daha sizi salamlayıram və "Xoş gəlmisiniz!" deyirəm.

Gürcüstanın Baş Naziri **Giorgi QAXARİYA** dedi:

-Təşəkkür edirəm, cənab Prezident, səmimi və xoş qəbulunuz üçün. Mənim üçün böyük şərəfdir ki, ilk xarici səfərimi məhz Azərbaycana edirəm. Bu, təsadüfi deyil ki, biz ilk səfəri Azərbaycan Respublikasına etdik. Biz bu qərarı ona görə qəbul etdik ki, düşmənə və dosta sübut edək, Azərbaycan və Gürcüstan arasında heç bir həll olunmayan məsələ yoxdur və ola bilməz. Mən Sizinlə görüşləri xatırlayıram, biz bütün məsələlər ətrafında açıq söhbət edirdik. Bu, mənim üçün böyük təcrübə idi. Siz dediyiniz kimi, Azərbaycan və Gürcüstan ən yaxın dost və qardaş ölkələrdir. Həqiqətən bizim əməkdaşlığımız və tərəfdaşlığımız regional çərçivədən çıxdı və beynəlxalq müstəviyə yüksəldi, xüsusən iqtisadiyyat, nəqliyyat, ticarət məsələlərində. Gürcüstan və Azərbaycan bir-birini beynəlxalq formatda hər zaman dəstəkləyir. Bizim üçün çox vacib olan məsələdə - Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyiniz üçün Sizə təşəkkürümü bildirirəm.

Əlbəttə ki, insanlarımız arasında mehriban, dost münasibətlər də çox mühümdür və vacibdir. Bizim xalqlar arasındakı əlaqələr uzunəsrlidir və mədəni əlaqələrdir. Bizim xalqlarımız arasında münasibətlərin böyük tarixi var.

Əminəm ki, bugünkü səfərim, bugünkü görüşlərimiz son dərəcə səmərəli olacaq, dosta və düşmənə bir daha göstərəcək ki, Gürcüstan və Azərbaycan arasındakı əlaqələr hər zaman dost əlaqələridir. Onlar arasında həll olunmayan məsələlər yoxdur və onlar hər zaman bütün məsələlərdən çıxış yolu tapa bilərlər.

Səmimi qəbul üçün Sizə bir daha təşəkkür edirəm.

❖❖❖

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri Giorgi Qaxariya işçi nahar etdilər.

# İlham ƏLİYEV: "Mənim Vladimir Vladimiroviçlə əslində qarşılıqlı hörmətə, qarşılıqlı anlaşmaya və əməkdaşlığı dərinləşdirmək cəhdlərinə əsaslanan dost münasibətlərimiz mövcuddur"



**Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Sizi yenidən görməyimə şadam.

Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası işləri üzrə və həmvətənlərlə əlaqələr komitəsinin sədri **Leonid KALAŞNİKOV** dedi:

- Buraya gələndə elə bil, öz evimizə gəlirik.

**Prezident İlham Əliyev: -** Düzdür, belə də olmalıdır. Buyurun, əyləşin. Mən sizi görməyimə çox şadam. Siz bizə çox əlamətdar vaxtda gəlmisiniz. Mənim də Rusiyaya səfərim yenicə başa çatıb. Tezliklə də MDB sammiti başlayacaq.

**Leonid Kalaşnikov: -** İlham Heydər oğlu, Sizin səfəriniz Rusiyada çox böyük effekt doğurdu. Sizə açığını deyim ki, çox səmimi görüş oldu. Bütün bunlar göstərildi.

**Prezident İlham Əliyev:** - Heç kəs üçün sirr deyil ki, mənim Vladimir Vladimiroviçlə əslində qarşılıqlı hörmətə, qarşılıqlı anlaşmaya və əməkdaşlığı dərinləşdirmək cəhdlərinə əsaslanan, mötəbər, mən deyərdim ki, dost münasibətlərimiz mövcuddur. Əlbəttə, "Valday" forumuna dəvət olunmaq mənim üçün böyük şərəfdir. Forum özü də əhəmiyyətlidir, kimin dəvət etməsi də mühümdür. Vladimir Vladimiroviç məni hələ apreldə, bizim Pekində görüşümüz vaxtı dəvət etmişdi. Onda biz çox konstruktiv danışıqlar apardıq və indi Soçidə biz bir növ bu danışıqlarımıza yekun vururduq. Nə barədə razılaşırıqsa hamısı yerinə yetirilir. Əlbəttə, Prezidentlə görüş çox məzmunlu, səmimi keçdi. Mən buna çox şadam.

Rusiya Dövlət Dumasının komitə sədri Leonid Kalaşnikov Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışının diqqətlə izlənildiyini və bu çıxışın böyük təəssüratlar doğurduğunu diqqətə çatdırdı. O, bu səfər çərçivəsində Azərbaycanda fəaliyyət göstərən Rus Kitab Evinin 10 illiyinin qeyd olunacağını bildirdi və bu Kitab Evinin fəaliyyətinə göstərilən dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə etdi.

Qonaq həmçinin Azərbaycanda dövlət səviyyəsində rus dilinə olan qayğının nümunəvi xarakter daşıdığını qeyd etdi. Azərbaycanda 350-dən artıq orta məktəbdə tədrisin rus dilində aparıldığını və ali təhsil müəssisələrində rus bölmələrinin fəaliyyət göstərdiyini məmnunluqla vurğuladı.

Leonid Kalaşnikov, həmçinin Azərbaycanın və Rusiyanın parlamentləri arasında çox sıx əlaqələrin olduğunu qeyd etdi və Rusiyanın Avropa Şurasının Parlament Assambleyasında üzvlüyünün bərpasında Azərbaycan nümayəndə heyətinin göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi.

Görüşdə Rusiya və Azərbaycan arasında elm, təhsil və digər humanitar sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# İsveçrə ilə Azərbaycan arasında iqtisadi sahədə və sərmayə qoyuluşu sahəsində də yaxşı nəticələr var

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, səfəriniz İsveçrə-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün önəmli addım olacaqdır.

Bildiyiniz kimi, bizim əlaqələrimiz uğurla inkişaf edir, bir çox sahələri əhatə edir. İlk növbədə, siyasi əlaqələr haqqında demək istərdim. Son 10 il ərzində hər il İsveçrə və Azərbaycan prezidentləri görüşür və ikitərəfli əməkdaşlıq haqqında fikir mübadiləsi aparırlar. Davos Dünya İqtisadi Forumunun burada, əlbəttə ki, xüsusi rolu vardır. Çünki forum çərçivəsində bu görüşlər baş verir və bu il də istisna olmamışdır. Bu ilin yanvar ayında İsveçrə Prezidenti ilə görüşümü xatırlayıram. İkitərəfli əlaqələrimizin müxtəlif aspektləri geniş müzakirə edilmişdir və əlaqələrimizə yeni təkan verilmişdir. Eyni zamanda deməliyəm ki, dövlət səfərləri də təşkil edilmişdir. Mən İsveçrədə dövlət səfərində olmuşam və İsveçrə prezidentləri Azərbaycanda dövlət səfərlərində olmuşlar.

Şadam ki, əlaqələrimiz təkcə siyasi dialoqla məhdudlaşmır, iqtisadi sahədə və sərmayə qoyuluşu sahəsində də yaxşı nəticələr vardır. İsveçrə şirkəti "Holcim" Azərbaycana yüz milyonlarla ölçülən sərmayə qoymuşdur. Həmçinin Azərbaycan şirkətləri də ölkənizə sərmayə qoyurlar və bu proses qarşılıqlı xarakter daşıyır.

Beynəlxalq maliyyə qurumları çərçivəsində də əməkdaşlığımızın xüsusi mənası vardır.

Əlbəttə, münasibətlərimizin ümumi kontekstində parlamentlərarası əlaqələr də önəmli yer tutur və əminəm ki, bu əlaqələrin inkişafı ilə əlaqədar sizin səfəriniz çərçivəsində növbəti addımlar atılacaqdır.

Bir daha sizi salamlayıram və "Xoş gəlmisiniz!" deyirəm.

❖ ❖ ❖

İsveçrə Kantonlar Şurasının sədri **Jan-Rene FURNİYE** dedi:

- Çox sağ olun, cənab Prezident. Əvvəla, biz Sizin ölkənizə minnətdarıq ki, bizi və nümayəndə heyətimizi səmimiyyətlə qəbul edir. Əlbəttə ki, bu gün səhər-səhər Sizin tərəfinizdən qəbul olunmaqdan böyük şərəf hissi duyuruq. Həmçinin hesab edirik ki, bu, aramızda olan əməkdaşlığı dərinləşdirmək üçün yaxşı bir fürsətdir.

Əlbəttə ki, mənim səfərimin məqsədinin digər bir hissəsi bizim Azərbaycan parlamenti ilə olan əlaqələrimizin daha da təkmilləşdirilməsi və gücləndirilməsindən ibarətdir.

Əslində hesab edirik ki, bu həmçinin iki xalq arasında da böyük bir yaxınlaşmanın əlamətidir. Çünki bilirik ki, hazırda Azərbaycan öz Dövlət Neft Şirkəti vasitəsilə biz isveçrəlilərin gündəlik həyatında daha yaxından iştirak etməyə başlayıb.

❖ ❖ ❖

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan artıq soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşdüyünü, dövlətimizin qaçqın və köçkünlərin sosial problemlərinin həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyini qeyd etdi.

İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniye Azərbaycana səfərindən məmnunluğunu və ölkəmizdə inkişaf etmiş infrastrukturun şahidi olduğunu bildirdi.

Görüşdə Azərbaycanla İsveçrə arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən beynəlxalq təşkilatlar, beynəlxalq maliyyə təsisatları çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə təcrübə mübadiləsi aparılmasının vacibliyi qeyd olundu.

# Azərbaycanın və Gürcüstanın Baş nazirlərinin görüşü olub





Oktyabrın 9-da Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ilə Gürcüstanın Baş Naziri Giorgi Qaxariya arasında təkbətək görüş olub.

AZƏRTAC xəbər verir ki, sonra Azərbaycanın Baş Naziri Əli Əsədovun adından Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanın şərəfinə şam yeməyi verilib.

# Gürcüstanın Baş Naziri Giorgi Qaxariya Azərbaycana rəsmi səfərə gəlib

Gürcüstanın Baş Naziri Giorgi Qaxariya oktyabrın 9-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş Nazir Giorgi Qaxariyanı Azərbaycanın Baş Nazirinin müavini Əli Həsənov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşılayıblar.

# Gürcüstanın Baş Naziri Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

Gürcüstanın Baş Naziri Giorgi Qaxariya oktyabrın 9-da Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən qonaq Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda canından keçən vətən oğullarının xatirəsini yad edib, "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyub.

# İsveçrə Kantonlar Şurasının sədri Şəhidlər xiyabanını ziyarət edib

Azərbaycanda səfərdə olan İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 9-da Şəhidlər xiyabanına gələrək ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Azərbaycan onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi, İsveçrə ilə əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verir



Oktyabrın 9-da Milli Məclisin Sədri Oqtay Əsədov İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

O.Əsədov Azərbaycanla İsveçrənin dost və tərəfdaş ölkələr olduğunu deyib. Bildirib ki, Azərbaycan onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi, İsveçrə ilə əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verir. Əlaqələrimizin bugünkü səviyyəyə çatmasında yüksəksəviyyəli qarşılıqlı səfərlərin rolu böyük olub. Hər iki ölkə prezidentlərinin müxtəlif dövrlərdə qarşılıqlı səfərləri, Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən görüşlər münasibətlərimizin daha da dərinləşməsinə xidmət edir. İndiyədək ölkələrimiz arasında 23 sənəd imzalanıb.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycanda əlverişli investisiya mühiti var. 1995-ci ildən bugünədək İsveçrə tərəfindən Azərbaycana 860 milyon dollar həcmində investisiya yatırılıb. Hazırda İsveçrənin Azərbaycanda 60 şirkəti fəaliyyət göstərir. Ötən il Azərbaycanla İsveçrə arasında ticarət dövriyyəsi 650 milyon dollar təşkil edib. Cari ilin yanvar-avqust ayları ərzində bu göstərici 1 milyard 300 milyondan artıq olub.

Qeyd edilib ki, bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin işə düşməsi ilə ölkəmiz həm də Şərqlə Qərbi birləşdirən mühüm nəqliyyat qovşağına çevrilib.

Görüşdə Milli Məclisin Sədri vurğulayıb ki, hər iki ölkə parlamentində dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Deputatlarımızın qarşılıqlı səfərləri parlamentlər arasında əlaqələrin inkişafına öz müsbət təsirini göstərir.

Diqqətə çatdırılıb ki, bugün dinamik inkişaf edən Azərbaycanın ən ağrılı problemi Dağlıq Qarabağ münaqişəsidir. Biz inanırıq ki, bu münaqişə tezliklə beynəlxalq hüququn normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında öz ədalətli həllini tapacaq.

İsveçrə Kantonlar Şurasının sədri Jan-Rene Furniye ölkəmizə ilk səfəri çərçivəsində aparılan danışıqlardan məmnun qaldığını söyləyib. Bildirilib ki, İsveçrə Azərbaycanla həyatın müxtəlif sahələrində əlaqələrin dərinləşməsində maraqlıdır. Parlamentlər səviyyəsində münasibətlərin genişlənməsi ümumi məqsədlərə xidmət edir. Bu sahədə əldə edilən uğurlar xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, iqtisadi, mədəni əməkdaşlığın genişlənməsinə öz müsbət təsirini göstərir.

Qonaq İsveçrənin Azərbaycanın təşəbbüskarı olduğu enerji layihələrini dəstəklədiyini qeyd edərək, ölkənin müstəqillik illərində qazandığı uğurları yüksək qiymətləndirib.

Görüşdə Milli Məclis Sədrinin müavini Bahar Muradova, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin İsveçrədəki səfiri Xanım İbrahimova, İsveçrənin Azərbaycandakı səfiri xanım Muriel Peneveyre və digər rəsmi şəxslər iştirak ediblər.

*AZƏRTAC,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*

# Yaqub EYYUBOV: "Ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri, mənəvi və mədəni yaxınlıq bizi bir-birimizə sıx bağlayır"



Bişkekdə Azərbaycan-Qırğızıstan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının üçüncü iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycan tərəfdən komissiyanın həmsədri, Baş Nazirin birinci müavini Yaqub Eyyubovun, Qırğızıstan tərəfdən komissiyanın həmsədri, Baş Nazirin birinci müavini Kubatbek Boronovun rəhbərliyi ilə nümayəndə heyətləri iştirak edib.

İclasda ticari-iqtisadi, tranzit-nəqliyyat daşımaları, kommunikasiya sahəsində qarşılıqlı fəaliyyət, mədəni-humanitar istiqamətdə əlaqələrin indiki vəziyyəti və perspektivləri müzakirə olunub.

Yaqub Eyyubov iki ölkə arasında iqtisadi sahədə əlaqələrin daha da gücləndirilməsi üçün səy göstərməyin vacibliyini bildirib. O deyib: "Ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri, mənəvi və mədəni yaxınlıq bizi bir-birimizə sıx bağlayır. Bugünkü görüş dövlətlərimiz arasında ikitərəfli əlaqələrin gələcək inkişafına təkan verəcək".

Kubatbek Boronov iki ölkə arasında siyasi sahədə əlaqələrin inkişaf etdiyini bildirib. O deyib ki, apardığımız yüksəksəviyyəli danışıqlar ikitərəfli əlaqələrin getdikcə daha da möhkəmlənəcəyini sübut edir. Özəl bölmənin və biznes dairələrinin nümayəndələri arasında əlaqələr gücləndirilməlidir. Sərmayə qoyuluşu, ticari-iqtisadi missiyalar, biznes forumlar, sərgilər vasitəsilə daha geniş əlaqələr yaradılması vacibdir. Baş Nazirin birinci müavini təklif edib ki, 2020-ci ildə biznes forum keçirilsin. O, Azərbaycan tərəfini gələn il İssık-Kulda keçiriləcək beynəlxalq turizm sərgi-yarmarkasına dəvət edib.

Həmsədrlər ikitərəfli əməkdaşlığın bütün sahələrində əlaqələrin mühümlüyünü vurğulayıblar.

Sonda Azərbaycan-Qırğızıstan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının üçüncü iclasının Protokolu imzalanıb.

İclasda Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucov da iştirak edib.

# Oqtay ƏSƏDOV: "Əminik ki, Azərbaycan-Gürcüstan əlaqələri ildən-ilə daha da inkişaf edəcək və möhkəmlənəcək"

Oktyabrın 9-da Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Gürcüstanın Baş Naziri Giorgi Qaxariya ilə görüşüb.



Foto Fərman BAĞIROVUNDUR

AZƏRTAC xəbər verir ki, sədr qonağın Baş Nazir kimi Azərbaycana ilk rəsmi səfərini yüksək dəyərləndirib. O ümidvar olduğunu bildirib ki, səfər çərçivəsində keçirilən görüşlər dostluq münasibətlərimizin daha da möhkəmlənməsinə xidmət edəcək.

Bildirilib ki, hər iki xalq həmişə bir-birinin yanında olub, bir-birini dəstəkləyib. Təsadüfi deyil ki, dövlətlərimiz strateji tərəfdaş və müttəfiqdirlər. Dövlət başçılarının müxtəlif vaxtlarda qarşılıqlı səfərləri zamanı aparılan danışıqlar çoxtərəfli əməkdaşlığımızın daha da dərinləşməsinə öz təsirini göstərib. Azərbaycan ilə Gürcüstan arasında 100-dən çox dövlətlərarası və hökumətlərarası sənəd imzalanıb. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 580 milyon dollar həcmində olub. Cari ilin 9 ayında bu göstərici 440 milyon təşkil edib. Azərbaycan Gürcüstan iqtisadiyyatına yatırımlar edən ən iri investorlardan biridir.

Oqtay Əsədov qeyd edib ki, parlamentlərimiz arasında yüksəksəviyyəli səfərlər qanunverici orqanlarımızı bir-birinə daha da yaxınlaşdırır. Sevindirici haldır ki, hər iki parlamentdə dostluq qrupları fəaliyyət göstərir. Deputatlarımız beynəlxalq parlament qurumları çərçivəsində bir sıra məsələlərdə ortaq mövqedən çıxış edirlər. Regional müstəvidə Azərbaycan, Gürcüstan, Türkiyə arasında üçtərəfli formatda əməkdaşlıq bölgədə sülhün və hərtərəfli inkişafın əsas dəstəkləyici amillərindən biridir. "Əminik ki, Azərbaycan-Gürcüstan əlaqələri ildən-ilə daha da inkişaf edəcək və möhkəmlənəcək", - deyə sədr vurğulayıb.

Giorgi Qaxariya ölkəsinin Baş Naziri qismində ilk səfərini məhz Azərbaycana etdiyini vurğulayıb. O qeyd edib ki, heç bir qüvvə Gürcüstan-Azərbaycan dostluğuna, qardaşlığına kölgə sala bilməz. Hər iki xalq tarixən bir-birinə yaxın olub, dostluq və əmin-amanlıq şəraitində yaşayıblar. Tarixin müəyyən dönəmində oxşar problemlərlə üzləşməyimiz regionda təhlükəsizliyin təmin edilməsinin necə vacib olduğunu bir daha önə çıxarıb. Bölgədəki münaqişələr inkişafa böyük maneə yaradır. Biz bu problemlərin beynəlxalq hüququn normaları çərçivəsində ədalətli həllinə tərəfdarıq.

Vurğulanıb ki, hər iki ölkənin birgə həyata keçirdiyi layihələr bölgə sərhədlərini aşaraq qlobal əhəmiyyət kəsb edib. Gürcüstanın Baş Naziri parlamentlər səviyyəsində münasibətlərin dərinləşməsinin vacibliyinə toxunaraq beynəlxalq təşkilatlarda nümayəndə heyətlərimizin iştirakını və bir-birilərini dəstəkləmələrini təqdir edib.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev, deputat Hikmət Məmmədov, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov, Gürcüstanın ölkəmizdəki səfiri Zurab Pataradze və digər rəsmi şəxslər iştirak ediblər.

# Azərbaycanın və Gürcüstanın Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın hüquqi bazası məqsədyönlü şəkildə möhkəmləndirilir

Oktyabrın 9-da Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Gürcüstanın Daxili İşlər naziri, general-leytenant Vaxtanq Qomelaurinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə çıxış edən nazir V.Eyvazov gürcüstanlı həmkarını bu vəzifəyə təyinatı münasibətilə təbrik edib. Xalqlarımız arasındakı dostluğun qədim tarixi köklərə malik olduğunu xatırladan nazir hər iki dövlətin rəhbərliyinin əlaqələrimizin daha da genişləndirilməsinə böyük önəm verdiklərini qeyd edib, bu münasibətlərin ölkə prezidentlərinin siyasi iradəsinə, müəyyənləşdirilmiş strategiyaya uyğun uğurla inkişaf etdiyini vurğulayıb. V.Eyvazov Daxili İşlər nazirlikləri arasında da əməkdaşlığın, xüsusilə transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində birgə fəaliyyətin dost və qardaş xalqlarımızın mənafelərinə, bölgədə təhlükəsizliyin təmini işinə xidmət etdiyini diqqətə çatdırıb.

Sonra mövcud kriminogen durum, cəmiyyətin bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunmasında əldə olunan nəticələr, xidmətin beynəlxalq standartlar səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə qonaqlara məlumat verilib.

Qeyd olunub ki, ötən illərdə nazirliklərin rəhbər vəzifəli şəxsləri, sərhədyanı bölgələrin polis orqanlarının rəisləri səviyyəsində qarşılıqlı səfərlər, cinayətkarlıqla mübarizədə birgə səylərin əlaqələndirilməsinin daha da yaxşılaşdırılması, əməkdaşlığın genişləndirilməsinin prioritet istiqamətlərinin müzakirəsi praktikası yaranıb. Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın hüquqi bazasının məqsədyönlü və ardıcıllıqla möhkəmləndirildiyini qeyd edən nazir imzalanmış sənədlərin, xüsusilə 2002-ci ilin aprelində Azərbaycan, Gürcüstan və Türkiyə arasında terrorçuluq, mütəşəkkil cinayətkarlıq və ağır cinayətlərin digər növlərinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair imzalanmış müqavilənin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar səviyyəsində əlaqələrin inkişafına təkan verdiyini bildirib.

Nazir V.Eyvazov transmilli mütəşəkkil cinayətkarlığın əsas növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsi, beynəlxalq terrorçuluq, insan alveri və qanunsuz miqrasiya ilə mübarizənin diqqət mərkəzində dayandığını, onlara qarşı yalnız birgə səylərlə səmərəli mübarizə aparılmasının mümkünlüyünü vurğulayıb.

Gürcüstanın Daxili İşlər naziri Vaxtanq Qomelauri ətraflı məlumata və göstərilən qonaqpərvərliyə görə təşəkkür edib, mehriban qonşu və yaxın dost olan Azərbaycanla bütün sahələrdə, o cümlədən daxili işlər orqanları arasında əlaqələrin bundan sonra da inkişaf etdirilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

# Qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq inkişaf etdirilir

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Tehranda İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə naziri Fərhad Dejpəsənd ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və İran xalqları arasında tarixi, mədəni və dini bağlılıqların iki ölkə arasındakı əlaqələrin əsasını təşkil etdiyi bildirilib. Həmin əlaqələrin genişlənməsində Prezident İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin keçirdiyi görüşlərin, qarşılıqlı rəsmi səfərlərinin mühüm rolu vurğulanıb.

İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlığın inkişaf etdiyinin təzahürü kimi, 2018-ci ildə Azərbaycanla İran arasında ticarət dövriyyəsinin 74 faiz artdığı, həmçinin investisiya əməkdaşlığının genişləndiyi bildirilib. Azərbaycanla İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiyanın qeyd olunan sahələrdə əlaqələrin genişlənməsində uğurlu fəaliyyəti qeyd edilib. Komissiyanın fəaliyyət istiqamətləri üzrə əməkdaşlıq təcrübəsindən bəhs olunub və qarşılıqlı maraq doğuran sahələrdə əlaqələrin inkişafı məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Jan-Rene FURNİYE: "İsveçrə ilə Azərbaycan arasında əlaqələrin inkişafı beynəlxalq səviyyədə də özünü göstərir"

Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov görüşdə iki ölkə tərəfindən həyata keçirilən uğurlu iqtisadi layihələri, Azərbaycan bazarında İsveçrə şirkətlərinin fəaliyyətini qeyd edib. Bu xüsusda, 70-dən çox İsveçrə şirkətinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi bildirilib, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın daha da artırılması üçün geniş potensialın mövcud olduğu diqqətə çatdırılıb.

Jan-Rene Furniye isə ölkələrimiz arasında əlaqələrin inkişafının beynəlxalq səviyyədə də özünü göstərdiyini deyib. O, İsveçrə tərəfindən İpək Yolu layihəsinin dəstəkləndiyini bildirib, bu xüsusda İpək Yolu ilə bağlı Azərbaycanın önəmli rolunu vurğulayıb.

Həmçinin tərəflər regionda təhlükəsizliyə olan hədə və təhdidlər, eləcə də imkanlar barədə fikir mübadiləsi aparıblar.

Nazir Elmar Məmmədyarov Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən danışaraq bu xüsusda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri, beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında həll edilməsinin vacibliyinə diqqət çəkib, Ermənistanın işğalçı siyasəti nəticəsində doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin öz torpaqlarına geri qayıtmasının vacibliyini bildirib.

Görüş zamanı nazir Azərbaycan tərəfindən İsveçrə bazarına qoyulan sərmayələr, həmçinin İsveçrə tərəfindən ölkəmizə yatırılan investisiyalar, o cümlədən Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı barədə danışıb.

Jan-Rene Furniye SOCAR-ın İsveçrədəki fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İsveçrə Kantonlar Şurasının nümayəndə heyəti İçərişəhərlə tanış olub

Azərbaycan Respublikasında səfərdə olan İsveçrə Konfederasiyası Kantonlar Şurasının nümayəndə heyəti oktyabrın 9-da İçərişəhərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Qız qalasından başlanan tanışlıq zamanı qonaqlara Bakının rəmzlərindən biri sayılan abidənin tarixi barədə məlumat verilib.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud görkəmdə gələcək nəsillərə çatdırılması üçün Prezident İlham Əliyevin tapşırıqları əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb.

Qız qalasının yaxınlığındakı Sıratağlı dini-memarlıq kompleksinin ərazisindəki daş ekspozisiyanın yenidən təşkili işləri qonaqların böyük marağına səbəb olub. Gəzinti zamanı nümayəndə heyətinin üzvlərinə UNESKO-nun Dünya Mədəni İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan abadlaşdırma və bərpa işləri barədə məlumat verilib. Qeyd edilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri var və bunlar dövlət tərəfindən qorunur.

Daha sonra qonaqlar orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar sarayı kompleksi ilə tanış olublar.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. Abidə Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bugünədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

İçərişəhərlə tanışlıq nümayəndə heyətində zəngin təəssürat yaradıb.

# Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanın Azərbaycana rəsmi səfəri başa çatıb

Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanın Azərbaycan Respublikasına rəsmi səfəri oktyabrın 9-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş Nazir Giorgi Qaxariyanı Azərbaycanın Baş Nazirinin müavini Əli Həsənov, Xarici İşlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər yola salıblar.

**Tarix heç bir millətə hamar yol qismət etməmişdir. Xalqlar öz dövlətlərini qurmaq, sərhədlərini möhkəmləndirmək, milli ideyalarını gerçəkləşdirməkdən ötrü ağır sınaqlardan keçmiş, qurbanlar vermiş, minbir məşəqqətlər yaşamışlar. Bütün bunlar hər xalqın taleyində fərqli formalarda yaşanıb, bir-birinə bənzəməyən tarixi mənzərələr yaranıb. Amma bütün xalqları bu məqamda birləşdirən, bir-birinə oxşar edən bir cəhət var. Onlar tarixin ağır sınaqlarından öz böyük şəxsiyyətlərinin müdrik siyasəti hesabına çıxıblar.**

# Anda sadiqlik




Bu gün dünyada elə bir ölkə, dövlət, xalq tapılmaz ki, onun nicatında boynuna xilaskarlıq missiyası götürmüş və həmin missiyanı şərəflə yerinə yetirmiş bir tarixi şəxsiyyət olmasın. Bu şəxsiyyətlərin öz xalqlarına, dövlətlərinə qazandırdıqları dəyərlərdən biri də hansısa əlamətdar bir hadisəni ilin adi bir təqvimindən möhtəşəm tarixi hadisəyə çevirmələridir.

10 oktyabr günü də bu baxımdan istisna deyil.

Qısa bir tarixi arayış verərək yada salaq ki, 1993-cü ilin 3 oktyabrında xalqımız özünün gələcək taleyini, müqəddəratını həll edən seçim etdi. Həmin gün ölkəmizdə keçirilən prezident seçkisində Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazandı. Ulu Öndər 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Hələ nəinki Azərbaycanda, dünyanın bir sıra dövlətlərində belə prezident seçkiləri olmamışdı.

Heydər Əliyevin seçkilərdə bu cür böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın Ulu Öndərə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamdan qaynaqlanırdı. Azərbaycan xalqı bilirdi ki, bu ağır və böhranlı dövrdə ölkəni xilas edə biləcək yeganə lider məhz Heydər Əliyevdir.

Hələ 1969-1982-ci illərdə - Heydər Əliyevin birinci dəfə hakimiyyətdə olduğu müddətdə Azərbaycan naminə gördüyü misilsiz işlər xalqımız tərəfindən unudulmamışdı. Eyni zamanda 1990-cı ildə 20 Yanvar faciəsindən dərhal sonra Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verməsi, böyük təəssübkeşliklə xalqımızla birgə olması, mətbuat konfransı keçirərək bu cinayəti törədənləri bütün dünyada ifşa etməsi insanlarımızın yaddaşına əbədi həkk olmuşdu.

## Manifest

10 oktyabr tarixinə gəlincə isə bugünün əlamətdarlığı 1993-cü ildə, Azərbaycanın böhran dolu anlarında xalqın israrı ilə hakimiyyət rəhbərliyinə qayıdaraq dövləti məhv olmaqdan xilas edən Heydər Əliyevin məhz həmin tarixdə əlini Konstitusiyaya və Qurana basaraq Prezident kimi and içməsi ilə bağlıdır.

Bu andın mətni Ulu Öndərin müasiri olmuş hər kəs üçün 26 il əvvəl onun proqram xarakterli çıxışlarından biri idi. Yaşadığımız dövrdə isə həmin mətn həm də böyük bir tarixdir, Azərbaycanın müstəqillik tarixinin manifestidir. Oxuduqca heyran olursan. Bir liderin ən qarışıq zamanda, xaos mühitində, saysız-hesabsız çıxılmazlıqlar içərisində strateji düşüncələrinə, gələcəyi bugünkü qədər aydın görməsinə, xalqı işıqlı sabaha çıxarmaq üçün güclü özünəinam hisslərinə və qarşıya qoyduğu bütün hədəflərə ardıcıl şəkildə çatmasına heyrətini gizlədə bilmirsən.

## Nə etməli?!

Heydər Əliyev hakimiyyətə qayıdışından sonra qarşısında hansı problemlərin dayandığını və birinci nələrdən başlayacağını dəqiq bilirdi. Həmin dövr üçün siyasi istiqamətlər bəlli idi: Ermənistanın hərbi təcavüzünün qarşısını almaq; müharibəni dayandırmaq; vətəndaş müharibəsi təhlükəsini aradan qaldırıb, ölkə daxilində siyasi sabitliyi bərpa etmək; separatçılığa, milli qarşıdurmaya son qoymaq və Azərbaycanın parçalanmasına yol verməmək; ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək; Milli Ordu quruculuğunu həyata keçirmək; gənc müstəqil dövlətin beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirmək, məqsədyönlü xarici siyasət xətti formalaşdırmaq; ölkənin dövlət idarəçiliyi prinsiplərinin vacib şərtlərindən olan aşağıdan yuxarı tabeçiliyi bərpa etmək; ən başlıcası isə dövlət çevrilişləri meyillərinə son qoymaq, dövlətin toxunulmazlığını təmin etmək...

Ümummilli Lider öz andında bəyan edirdi: “Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeçiliyinə düşməyəcək, öz müstəqilliyini qoruyacaqdır”.

O, bütün vədləri kimi, xalq qarşısında verdiyi bu andına da sadiq oldu. Azərbaycanın gerçək müstəqilliyi, heç kimdən asılı olmadan öz yolu ilə milli hədəflərinə doğru irəliləməsi təmin edildi. Əlbəttə, bütün bunlar asanlıqla başa gələn məsələlər deyildi. Çox çətin vaxtlar idi. Böyük güclər Azərbaycanı məngənəyə alıb hər tərəfdən təzyiq göstərməyə çalışırdı. Heydər Əliyev isə tədricən, qətiyyətlə onları özünə və müstəqilliyini yenicə qazanmış dövlətə hörmət hissi ilə yanaşmağa məcbur edə bildi. Hər kəs anlamağa başladı ki, Heydər Əliyevin idarə etdiyi dövləti asılı vəziyyətə salmaq mümkün deyil. O, Azərbaycanın müstəqilliyindən heç zaman imtina etməyəcək.

Çünki Ulu Öndər istiqlalın bir xalq üçün nə qədər böyük dəyər olduğunu, bunun hansı çətinliklər hesabına başa gəldiyini yaxşı bilir və bunu andiçmə nitqində də əks etdirirdi. Ulu Öndər nitqində bildirirdi ki, Azərbaycan öz müstəqilliyini ağır və çətin bir şəraitdə əldə edib, Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin müharibə şəraitində yaşaması xalqımızı böyük bəlalarla üz-üzə qoyub: “Ona görə də Azərbaycanın müharibə şəraitindən çıxması və vətəndaşlar üçün rahat, sakit, əmin-amanlıq şəraiti yaradılması qarşımızda duran əsas vəzifədir. Azərbaycanın ağır müharibə şəraitinə düşməsi, Qarabağ problemi başlanğıcdan keçmiş Sovetlər İttifaqı rəhbərliyinin buraxdığı səhvlərin nəticəsidir. Respublikanın həmin dövrdə düşdüyü ağır iqtisadi, sosial, siyasi-ictimai və mənəvi böhran getdikcə dərinləşmiş və 1993-cü ildə demək olar son həddə çatmışdır. Bu ilin iyun ayında Azərbaycanda daxili sabitlik tam pozulmuş, respublikada ayrı-ayrı qüvvələrin qarşıdurması, bəzi cinayətkar qrupların, separatçı qüvvələrin respublikanı parçalamaq meyillərini həyata keçirmək istəməsi və başqa səbəblər daxili böhranı daha da dərinləşdirmişdir”.

## Vətəndaş birliyinin gücü

Heydər Əliyev Azərbaycanın o zamankı dövlət rəhbərliyinin buraxdığı kobud səhvlər nəticəsində iyun ayında respublikamızın vətəndaş müharibəsi həddinə gəlib çatmasını və bölgələrə parçalanma təhlükəsi ilə üz-üzə qalmasını da xüsusi vurğulayırdı: “Allaha şükürlər olsun ki, bunların qarşısı alındı, bəzi cinayətkar qruplar aradan götürüldü və respublikanın daxilində ictimai-siyasi sabitliyin təmin edilməsi üçün şərait yaradıldı. Son 4 ay bizim respublikamız üçün ağır və çətin bir dövr oldu. Bu müddətdə respublikamız, onun vətəndaşları böyük imtahanlardan çıxdılar və bir daha sübut etdilər ki, xalqın müdrikliyi, milli birlik və həmrəylik, vətəndaş birliyi bütün bu çətinliklərin qarşısını ala bilər və respublikanı bu ağır vəziyyətdən çıxarmaq üçün imkan yarana bilər”.

Andiçmə mərasimindəki nitqində Heydər Əliyev vəd edirdi ki, Azərbaycan xalqına sədaqətlə xidmət edəcək, müstəqil dövlətimizin dünya birliyində layiqli yer tutmasına çalışacaq, xalqın milli-mənəvi ənənələrinə daim sadiq olacaq, bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişafını təmin edəcək...

## Sərkərdə

Heydər Əliyev yaxşı bilirdi ki, güclü, nizam-intizamlı ordu yaratmadan Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Odur ki, andiçmə mərasimindəki çıxışında bu barədə danışaraq deyirdi: “Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir”.

Ulu Öndər öz nitqində qətiyyətlə bəyan edirdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq.

Bir müddət sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Heydər Əliyev mahir sərkərdə kimi vahid komandanlığa tabe olan nizami ordu yaratdı, Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu. İllər sonra Aprel döyüşlərində Azərbaycan Ordusunun göstərdiyi hünər, düşmənə vurduğu sarsıdıcı zərbə də sübut etdi ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu siyasəti düzgün həyata keçirilib, qüdrətli və rəşadətli Azərbaycan Ordusu yaranıb.

## Keçmiş, bu gün və gələcək qarşısında and

Andiçmə nitqində Azərbaycanın o ağır günlərdə yaşadığı sosial-iqtisadi çətinliklər və onlardan çıxış yolları da güzgü kimi əks olunurdu. Ümummilli Lider deyirdi ki, müstəqilliyimizin əldə edilməsi bizim üçün tarixi bir hadisədirsə, iqtisadiyyatımızın belə vəziyyətdə olması ağır və çətin bir haldır. “Təəssüf ki, son illərdə respublikanın böhran vəziyyətində olması iqtisadiyyatın bütün sahələrinə mənfi təsir göstərmişdir. İqtisadiyyat, demək olar ki, tamamilə dağılmış və bu da respublika vətəndaşlarının rifahının aşağı düşməsinə gətirib çıxarmışdır”.

Həqiqətən, o günlərdə yaşananlar xalq üçün böyük məşəqqət idi. Heydər Əliyevin hakimiyyət rəhbərliyinə qayıdışından əvvəl öz səriştəsizlikləri ilə Azərbaycanı fəlakət həddinə gətirib çıxarmış AXC-Müsavat iqtidarı ölkəyə taxıl əvəzinə yem üçün nəzərdə tutulan buğda alıb gətirərək vətəndaşlara od qiymətinə satır, insanlar bir tikə çörək üçün gün ərzində mağazaların önündə növbədə dayanır, işləyən adamlara əməkhaqqı yerinə hansısa əmtəə məhsulu verilir, ölkədə aclıq və səfalət baş alıb gedirdi.

Heydər Əliyev isə öz nitqində vəziyyətdən çıxış yolunu məhz ağıllı və prinsipial fəaliyyətdə görürdü: “Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, uzun illər boyu yaranmış əsas fondları respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Bu baxımdan biz gələcəkdə işimizdə bir tərəfdən yaranmış potensialdan səmərəli istifadə etmək, digər tərəfdən isə yeni iqtisadi islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik... Mən bir Prezident kimi, xalqın qarşısında öz fikirlərimi açıq bəyan edir və əmin etmək istəyirəm ki, bu fikirlərə, bu prinsiplərə daim sadiq olacağam”.

## Ağlın, təfəkkürün, zəkanın qələbəsi

Andın bütün müddəaları kimi, bu barədə ehtiva etdiyi məqamlar da çox səmimi, inandırıcı səslənirdi. Çünki Heydər Əliyev onu təkcə öz adından yox, həm də mənsub olduğu xalqın adından söyləyirdi. Bu and ümumilikdə Azərbaycanın keçmiş, bu gün və gələcək qarşısındakı andı idi. Xalqımızın Ümummilli Lideri son nəfəsinə qədər öz Prezident andına sadiq qaldı.

Ölkəyə rəhbərliyinin ilk günlərindən hərtərəfli islahatlara start verildi. Beynəlxalq aləmə inteqrasiya sürətləndirildi, müstəqil Azərbaycanın dünyadakı dostlarının çevrəsi genişləndirildi. Ən başlıcası isə, 1994-cü ilin sentyabrında dünyaya səs salan “Əsrin müqaviləsi” kimi nəhəng neft sazişi imzalandı. Bakıda dünyanın 8 ölkəsini təmsil edən yüksək nüfuza malik, neft hasilatı üzrə ixtisaslaşmış 13 iri neft şirkəti arasında “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə fəaliyyətini nəzərdə tutan bu irimiqyaslı beynəlxalq müqavilə müasir Azərbaycanın tarixində və taleyində mühüm rol oynadı. “Əsrin müqaviləsi” ilə Azərbaycan özünün təbii sərvətlərinə sahib çıxmaq haqqını bütün dünyaya bəyan etdi, milli mənafelərimizi, iqtisadi və strateji maraqlarımızı qorumaq əzmini göstərdi. Bu müqavilə dövlət müstəqilliyimizin mühüm təminatına çevrildi.

Dahi şəxsiyyətin hazırladığı yeni neft strategiyasının reallaşdırılmasında onun ən böyük silahdaşı o zaman Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan İlham Əliyev idi. Həmin dövrdə Vaşinqton, Nyu York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan İlham Əliyev xalqımızın milli maraqlarını tam təmin edən müqavilə şərtlərinin əldə edilməsi üçün gərgin əmək sərf edir, Ulu Öndərin qarşıya qoyduğu vəzifələri uğurla yerinə yetirərək böyük nəticələrə nail olurdu.

Bu sazişin imzalanması ağlın, dərin təfəkkürün və parlaq zəkanın qələbəsi idi. Dünyada böyük söz sahibi olan ABŞ, Fransa, İngiltərə kimi nəhəng ölkələrin neft bazarında ağır çəkiyə malik şirkətlərinin bu müqavilədə iştirakı bütün dünyaya Azərbaycanın verdiyi bir ismarıc oldu. Məhz bu hadisədən sonra Azərbaycanın həm beynəlxalq aləmdə siyasi nüfuzu, həm də sabit və etibarlı tərəfdaş kimi mövqeyi sürətlə möhkəmlənməyə başladı. Bunun ardınca Ulu Öndərin Fransaya, ABŞ-a və digər xarici ölkələrə səfərləri, bu dövlətlərin siyasi elitaları ilə gərgin danışıqları və təkidləri onların Azərbaycana münasibətində, siyasətində böyük müsbət dəyişikliklər yaratdı. Yaxşı yadımızdadır ki, Ümummilli Lider hansı ölkəyə səfər edirdisə, Azərbaycanın xəritəsini də özü ilə aparırdı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəblərindən danışırdı. Məkrli erməni siyasətçilərini ifşa edirdi. O, dünyanı öz əzəməti ilə silkələyirdi, gətirdiyi sarsılmaz dəlillərlə beynəlxalq ictimaiyyəti Azərbaycan həqiqətlərinə doğru-dürüst yanaşmaq məcburiyyəti qarşısında qoyurdu.

## Tarixə ədalətli qiymət

Heydər Əliyevin andiçmə mərasimindəki nitqi Azərbaycan xalqının qəlbində sabaha ümid çırağı yandırdı. Xalqı sabahın daha yaxşı olacağına əmin etdi. Azərbaycanın öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşadığını, məhz bu dövrdə üzərinə götürdüyü missiyanın məsuliyyətini dərindən dərk etdiyini deyən Ulu Öndər bütün fəaliyyətini bu etibarı doğrultmağa sərf etdi. Öz amalına, məramına hər zaman sadiq qaldı.

Heydər Əliyevin andiçmə nitqi həm də tarixə obyektiv bir qiymət idi və Azərbaycanın istiqlalının əldə olunmasında iştirak etmiş hər kəsin, bütün vətəndaşlarımızın əməyini ədalətli şəkildə qiymətləndirməklə yanaşı, insanlar qarşısında milli dövlətçilik məsələləri ilə bağlı məsuliyyət də müəyyənləşdirirdi. Heydər Əliyev deyirdi: “Azərbaycan Respublikasının müstəqilliyi tarixi bir hadisədir. Bu, Azərbaycan xalqının milli sərvəti, milli nailiyyətidir və bu müstəqilliyin əldə olunmasında hər hansı qrupun, hərəkatın, qüvvənin müstəsna xidmətləri olduğunu heç vəchlə qəbul etmək olmaz. Eyni zamanda, Azərbaycanın müstəqilliyi respublika qarşısında, onun vətəndaşları qarşısında çox böyük və mürəkkəb vəzifələr qoyub. Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq və bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam”.

Heydər Əliyev müstəqil Azərbaycanın gələcəyini demokratik, hüquqi dövlət quruculuğunda görürdü. Qeyd edirdi ki, müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir. Öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Ulu Öndər bu hədəflərin hamısına nail oldu. 1995-ci ildə onun rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsvermısində qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası demokratik islahatların, hüquqi dövlət quruculuğu proseslərinin konstitusion əsaslarını formalaşdırdı. Müstəqil respublikamızın ilk parlamenti formalaşdı. Azərbaycan Avroatlantik məkana inteqrasiya yolu tutdu və bu yolda mühüm nailiyyətlər qazandı.

## Zamanı qabaqlayan Lider

Heydər Əliyev qan-qadanı aradan götürdü, insanlarda gələcəyə ümid yaratdı, qorxu, vahimə içində naçar qalmış vətəndaşlar asudə nəfəs aldılar. Azərbaycan xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtuldu, sabitliyə, əmin-amanlığa qovuşdu. Cəmiyyətdə ümumi ruh yüksəkliyi, xoş, inamlı ovqat hakim oldu. Azərbaycan iqtisadiyyatı böhrandan qurtararaq inkişaf xəttinə çıxdı. Xarici investisiyalar ölkəmizin neft sektoru ilə yanaşı, digər infrastruktur sahələrə də yeni həyat verdi. Heydər Əliyev bazar iqtisadiyyatına keçid prosesini də uğurla yönəltdi. Cəmiyyətimizdə azad bazar iqtisadiyyatı prinsipləri tədricən bərqərar oldu. Sahibkar təbəqəsi formalaşdı. Azərbaycan keçmiş sovetlər məkanında torpaq islahatlarını uğurla həyata keçirən ilk ölkə oldu, dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlandı. Əhalinin sosial rifah halı təkamül yolu ilə yaxşılaşdı, təhsilə, səhiyyəyə, mədəniyyətə, elmə diqqət artırıldı. Cəmiyyətin nəzərində bu sferaların dəyəri yenidən yüksəldi.

Və cəmiyyət hiss etdi ki, böhran dövrü artıq arxada qalır. Ulu Öndər ölkəmizin inkişaf strategiyasını müəyyən etdi, inkişafın Azərbaycan modelini yaratdı.

Heydər Əliyevin 1998-ci ildə keçirilmiş prezident seçkilərində də böyük üstünlüklə qələbə qazanması qədirbilən xalqımızın bu böyük liderə sevgi və etimadının ifadəsi idi. Azərbaycan insanı zamanı qabaqlamağı bacaran dahi şəxsiyyət kimi Heydər Əliyevə hər zaman inanır, özlərinin və ölkənin taleyini heç bir tərəddüdsüz onun müdrik zəkasına, ədalətinə etibar edirdilər.

Azərbaycan xalqının yaddaşında quruculuq və xilaskar dövlət xadimi, Ümummilli Lider kimi əbədiyyət qazanmış Heydər Əliyevin fəaliyyəti sabaha ünvanlanan fəaliyyət idi. Onun arzularında boy verən Azərbaycan isə müasir Azərbaycandır.

Ulu Öndərin 26 il əvvəl içdiyi anda sadiqlik bugünün Azərbaycanında da davam edir. Heydər Əliyev irsinin davamçısı, müasir dünyamızın ən parlaq liderlərindən olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu anda sadiqliyi milli dövlətçilik tariximizin ən böyük nailiyyətlərini yaradır.

Ulu Öndərin öz andında ifadə etdiyi bütün arzuları, ümidləri cənab İlham Əliyev artıq reallığa çevirib.

Bu gün öz tarixi və milli ənənələrindən bəhrələnən, dünya demokratiyası təcrübəsinə, ümumbəşəri dəyərlərə əsaslanan Azərbaycan dövləti tam təşəkkül tapıb və uğurla inkişaf edir. Ən əsası isə bu, xalq və dövlət arasındakı sarsılmaz birliyə əsaslanır.

## Yeni nəfəs

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycan həyatına yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşır, qlobal böhranlardan çıxış yolları axtarışında fikir və rəylərinə, irəli sürdüyü təkliflərə diqqət yetirirlər. Çünki bu nadir rəyləri nəzərə alan hər kəs onun reallıqları, imkan və perspektivləri inamla əks etdirdiyini, verdiyi faydaları dəfələrlə görüb.

Prezident İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir. Prezidentimiz mötəbər beynəlxalq təşkilatların kürsülərində qətiyyətli, məntiqi çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə cəsarətlə qoruyur, müstəqil xarici siyasət yürüdür.

## “Qarabağ Azərbaycandır və nida işarəsi”

Azərbaycan Prezidentinin 3 oktyabr 2019-cu ildə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı tarixi çıxışı bunun daha bir nümunəsi oldu. Cənab İlham Əliyevin 15 dəqiqə müddətində əsas tezislərini qlobal və regional geosiyasətin ən aktual məsələləri fonunda Rusiya-Azərbaycan münasibətlərinin strateji xarakteri, Ermənistan rəhbərliyinin son vaxtlar ifadə etdiyi məsuliyyətsiz bəyanatlar, Azərbaycanın bu məsələdəki konkret mövqeyi və dövlət quruculuğunda əldə edilən nailiyyətlər üzərində qurduğu bu çıxışı mükəmməllik baxımından dərsliklərə düşəsi mövzudur. Azərbaycan Prezidenti bu çıxışı ilə dünyanın hər yerində gələcəkdə özünü siyasi lider, dövlət xadimi kimi yetişmək istəyən şəxslərə əsl ustad dərsi keçdi desək, əsla yanılmarıq.

Prezident İlham Əliyevin nitqində Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı söylədiyi populist fikirlərə tutarlı cavab xüsusilə böyük marağa səbəb oldu.

Qeyd edək ki, “Valday” Beynəlxalq Diskussiya Klubu dünyanın nüfuzlu “beyin mərkəzlərindən” sayılır. Klub 2004-cü ildən fəaliyyətdədir. Ötən illər ərzində aparıcı ekspertlərin görüş yerinə çevrilən klubun toplantılarında bəşəriyyəti düşündürən ən aktual siyasi, geosiyasi, iqtisadi, sosial, humanitar məsələlər müzakirə edilir, diskussiyalar aparılır. Builki tədbirə Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi də dəvət etmişdi.

Azərbaycan Respublikası Prezidentinin ifadə etdiyi fikirlər həm qlobal geosiyasət, həm də regional təhlükəsizliyin təmini baxımından prinsipial əhəmiyyətli məqamlarla zəngin idi. Auditoriyanın diqqətindən hiss olunurdu ki, cənab İlham Əliyev öz çıxışının elə ilk tezislərindən dinləyiciləri məharətlə ələ ala bilib. Onun Rusiya və Azərbaycan arasında tərəfdaşlıq münasibətləri, dünya miqyasında müşahidə edilən başlıca trendlər və onların Avrasiya məkanına təsiri fonunda Rusiyanın dövlət olaraq fəaliyyətinə dair qısa analizi, Rusiya lideri Vladimir Putinin əldə etdiyi nailiyyətlərə verdiyi obyektiv qiymət müasir reallıqları əks etdirirdi.

Cənab İlham Əliyevin nitqinin kulminasiya məqamı isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ifadə etdiyi fikirlər, Ermənistanın baş naziri Nikol Paşinyanın sərsəm fikirlərinə verdiyi lakonik və təkzibolunmaz cavab idi.

Yada salaq ki, Nikol Paşinyan bir qədər əvvəl Ermənistanın mövqeyi ilə bağlı belə bir “tezis” səsləndirmişdi ki, guya ki, bunu Azərbaycan tərəfinə də müraciət edib, ancaq cavab almayıb. Onun dedikləri qısaca olaraq belə idi: “Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Bundan sonra elə qərar qəbul edilməlidir ki, Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ xalqlarını qane etsin”.

Ermənistanın baş nazirinin gözlədiyi cavabı Azərbaycan Prezidenti yığcam şəkildə və dəqiq verdi. Və qürurvericidir ki, özünə tam inamla, simasında təbəssüm və qətiyyətlə ifadə etdi. İlham Əliyev “Qarabağ Ermənistandır” ifadəsinin yalan olduğunu göstərdi. Ərazinin qədim tarixinə müraciət edən Azərbaycan Prezidenti inamla bəyan etdi ki, Dağlıq Qarabağ tarixi, mədəni, demoqrafik, siyasi, geosiyasi və bütün digər mənalarda daim Azərbaycanın olub və ora indi də Azərbaycandır. Və həmin fikri möhtərəm Prezidentimiz tarixdən silinməyəcək bir əminliklə ifadə etdi: “Qarabağ Azərbaycandır və nida işarəsi”.

## “Mən həqiqəti deyirəm”

Bu o qədər ustalıqla verilmiş güclü, dəqiq, yığcam və eyni dərəcədə də obyektiv bir cavab idi ki, hətta erməni mətbuatı belə bu fikrin Nikol Paşinyanın “nöqtəsini əzib keçdiyini” yazdı. Bu, həm də “Valday” Klubunun toplantısında iştirak edənlərə, bu illər ərzində işğalçının Azərbaycan ərazisindən çıxarılması üçün heç bir iş görməyən ATƏT-in Minsk qrupuna diplomatik mesaj idi.

“Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cəmiyyətdə vahid yanaşma var. Bizim haqq işimizi mən bütün kürsülərdə arqumentlərlə, tarixi faktlarla, reallıqlarla, beynəlxalq hüquq əsasında müdafiə edirəm və bu arqumentlərə qarşı hər hansı bir irad tutmaq qeyri-mümkündür. Çünki mən həqiqəti deyirəm və bunu elə kürsülərdən deyirəm ki, bütün dünya eşitsin”.

Bunu da Prezident İlham Əliyev oktyabrın 8-də Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış “Qobu Park-2” yaşayış kompleksinin açılışı zamanı səsləndirdi və Paşinyanın cavabını niyə məhz “Valday” Beynəlxalq Diskussiya Klubunda verdiyinə özünəməxsus diplomatik məharətlə aydınlıq gətirdi:

“Ermənistanın baş naziri Xankəndidə yığılmış bir neçə adamın qarşısında o cəfəng sözləri demişdi. Mən başqa bir beynəlxalq tədbirdə ona cavab verə bilərdim. Amma o tədbirin auditoriyası tutaq ki, 1000 nəfər, 2000 nəfər olardı. Mən onu elə bir yerdə dedim ki, hər kəs eşitsin - canlı efirdə, Rusiyada, mötəbər “Valday” klubunun panelində dedim və bunu bütün dünya eşitdi. Yəni sizə deyim ki, əgər işlər məhz təmkinlə, ağılla qurulursa, zərbələr də dəqiq olur. Elə zərbə vuruldu ki, o zərbədən çətin ki, ayılsınlar. Çünki kontrarqument yoxdur, ancaq yalan-palan danışmaqla düzəlmir. Əvvəllər - münaqişə ilə bağlı məlumat olmayan dövrdə, əlbəttə, bütün yalanları yayırdılar. Hər bir ölkədə onların diaspor təşkilatları var idi, bizim isə heç nəyimiz yox idi. Ona görə münaqişə ilə bağlı təhrif edilmiş faktları onlar ortaya qoymuşlar və bir çox hallarda nail olmuşlar ki, onlara inansınlar. Bu gün biz informasiya dövründə, internet dövründə yaşayırıq. Həqiqət var və bunu mən çatdırmışam. Hər kəs bilir ki, aranlı-dağlı Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycan torpağıdır və Qarabağ Azərbaycandır və nida işarəsi, vəssalam”.

Bu məharətin kökü Ulu Öndər Heydər Əliyevdən əxz olunmuş siyasət ustalığının davamıdır. Azərbaycana bu sevgi, bu bağlılıq, bu qətiyyət Heydər Əliyevin xalq qarşısında içdiyi anda sadiqliyin nəticəsidir.

Və bütün bunlar Azərbaycanın milli dövlətçilik tarixinə, Azərbaycanın intibahına çevriləcək həqiqətin, dövlətə, Vətənə, xalqa ali xidmətin şərəf səhifələridir.

***Nurlana ƏLİYEVA,***
***YAP İdarə Heyətinin üzvü,***
***YAP Qadınlar Şurasının sədri,***
***professor***

# Prezidentin "Qarabağ Azərbaycandır!" çağırışı milli ideya statusunu qazanmaqdadır

## Əli ƏHMƏDOV: "Yüz minlərlə vətəndaşın bu çağırışa səs verərək onun ətrafında toplanması aydın şəkildə müşahidə olunur. Çox keçmədən bu sırada olanların sayının milyonlara çatacağına şübhə etmirəm"

Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov "Facebook" səhifəsində ""Qarabağ Azərbaycandır!" hərəkatı yaradaq" sərlövhəli status paylaşıb. Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunda səsləndirdiyi "Qarabağ Azərbaycandır!" mesajının xalqımızda və beynəlxalq miqyasda yaratdığı böyük rezonansın səbəb və nəticələrini müfəssəl, dəqiqliklə təhlil edən müəllif yeni təşəbbüslə çıxış edib:



- Prezident İlham Əliyevin Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunda səsləndirdiyi "Qarabağ Azərbaycandır!" mesajı gündəmin əsaslı surətdə dəyişdirilməsinə gətirib çıxarmışdır. Qarabağ münaqişəsi başlayandan bu günə qədər heç zaman səngiməyən vətənpərvərlik əhvali-ruhiyyəsi son illərin ən yüksək pilləsinə yüksəlib. Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın münaqişəni ədalətli şəkildə nizamlamaq, torpaqlarımızı qeyd-şərtsiz geri qaytarmaq əzminə və qabiliyyətinə inam qat-qat artıb. Əslində Prezidentin "Qarabağ Azərbaycandır!" çağırışı indiki dövrün milli ideyası statusunu qazanmaqdadır. Yüz minlərlə vətəndaşın bu çağırışa səs verərək onun ətrafında toplanması aydın şəkildə müşahidə olunur. Çox keçmədən bu sırada olanların sayının milyonlara çatacağına şübhə etmirəm.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, topraqlarımızın işğaldan azad edilməsi ölkənin vətəndaşlarını birləşdirən başlıca dəyərlərdən biridir. Milli birlik və vətəndaş həmrəyliyi əhəmiyyətli dərəcədə onun əsasında formalaşıb. Prezident İlham Əliyev "Valday" beynəlxalq toplantısında "Qarabağ Azərbaycandır!" çağırışını səsləndirməklə qeyd olunan dəyərin milli statusunu daha da yüksəltmiş oldu. İndi biz onu tam qətiyyətlə milli ideya kimi səciyyələndirə bilərik. Yəqin ki, bu ən doğru addım və dəyərləndirmə olar.

Xüsusi vurğulanmağa ehtiyacı olan məqam "Qarabağ Azərbaycandır!" mesajı, əgər belə demək mümkündürsə, beynəlxalq auditoriyaya, dünya ictimaiyyətinə və təşkilatlarına ünvanlanmışdır. Nə məlum münaqişə, nə onun hələlik aradan qaldırılmamış nəticələri, nə də nizamasalma prosesi Qarabağın mənsubiyyətini dəyişdirmir, dəyişdirə bilməz və dəyişdirməyəcək - Prezidentin bütün dünyaya çatdırdığı mesajın mahiyyəti məhz bundan ibarətdir. İlham Əliyevin bir çox dövlət başçılarının, çoxsaylı beynəlxalq siyasi ekspertlərinin və mətbuat nümayəndələrinin qarşısında cəsarət və qətiyyət nümunəsi sayıla biləcək çıxışının arxasında möhtəşəm gücün dayandığı heç kimdə şübhə yaratmır. Bu güc hər şeydən əvvəl xalqın iradəsi, Azərbaycanın Silahlı Qüvvələrinin döyüş qabiliyyəti, nəyin bahasına olursa olsun torpaqlarımızı işğaldan azad etmək əzmidir. Bu güc, eyni zamanda beynəlxalq hüquqa, onun ədalətli mahiyyətinə inamdan irəli gəlir. Mətbuatdan göründüyü kimi, Prezident İlham Əliyevin mesajı bütün lazımi ünvanlara lazımi səviyyədə çatıb. Onu ilk növbədə və əsas etibarilə Ermənistanda eşidiblər və yəqin ki, gərəkli nəticə çıxarıblar.

"Qarabağ Azərbaycandır!" çağırışı milli ruhu və iradəni inanılmaz dərəcədə yüksəldə bildi. Onun birləşdirici xarakterinin və gücünün davamlı olacağı, ümummilli mahiyyət kəsb edəcəyi şəksizdir. Gözlərimizin önündə yeni bir hərəkat yaranır, "Qarabağ Azərbaycandır!" hərəkatı. Hər bir azərbaycanlının, hər bir vətənpərvərin yeri bu hərəkatdadır. İnanıram ki, bu hərəkat əzəmətli bir selə bənzəyəcək, bütün Azərbaycan xalqını əhatə edəcək. Hər yerdə, kəndlərdə, şəhərlərdə, təşkilatlarda böyüklü-kiçikli hamı "Qarabağ Azərbaycandır!" deyəcək.

Xalq öz birliyini, həmrəyliyini yenə də daha əzmlə, daha qətiyyətlə göstərəcək, daha uca səslə bəyan edəcək. Və bu birliyi pozmağa çalışanlara layiqli cavab verəcək. Təxribat törətmək, sabitliyi pozmaq, ara qarışdırmaq niyyəti ilə küçələrə çıxıb yersiz çağırışlar edənlərin xalqdan və onun ideyalarından nə qədər uzaq düşdüyü bu günlərdə daha qabarıq görünür. Sanki onlar bu ölkənin vətəndaşı, bu millətin övladları deyil. Açığı belə bir mənzərəni görmək və duymaq həm təəssüfləndirici, həm də utandırıcıdır. Təsəlli verən odur ki, xalqdan ayrı düşüb fərqli, eyni zamanda zərərli maraqların daşıyıcısı olanların sayı çox deyil.

Mən hər bir azərbaycanlını "Qarabağ Azərbaycandır!" hərəkatının fəal iştirakçısı olmağa səsləyirəm. Gəlin bir cəsarətli çağırışı ilə dünyaya səs salan, milli ruhu yüksəldən, milli birliyimizi və vətəndaş həmrəyliyini daha da gücləndirən Prezident İlham Əliyevin ətrafında sıx birləşək. Qüdrətli, möhtəşəm "Qarabağ Azərbaycandır!" hərəkatı yaradaq, xalqımızın iradəsini, əzmini və qətiyyətini düşmənə nümayiş etdirək. Beynəlxalq birlik, ilk növbədə BMT, ATƏT-in Minsk qrupu, onun həmsədri olan vasitəçilər danışıqlar prosesində böyük müdriklik, təmkin, eyni zamanda qəti və sarsılmaz mövqe nümayiş etdirən Prezident İlham Əliyevin arxasında möhtəşəm xalq iradəsinin və hərəkatının dayandığına əmin olsun. Dövlətə, millətə sədaqətin, Qarabağ münaqişəsinin ədalətli həllinə dəstəyin ən mühüm ifadəsini mən bunda görürəm.

# İlham Əliyevin 106-cı qəsəbə töhfəsi

## Prezident 2003-cü ildən etibarən qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluqlarının təmin edilməsi ilə bağlı 70-dən çox fərman, sərəncam imzalayıb

*Əvvəli 1-ci səh.*

Məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. İndiyədək ölkənin müxtəlif yerlərində qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 105 qəsəbə və şəhərcik salınıb. 106-cı isə "Qobu Park-2" yaşayış kompleksidir. Bakının Qaradağ rayonunda salınan kompleksin iki gün əvvəl məcburi köçkünlərin ixtiyarına verilməsi göstərdi ki, dövlətin bu kateqoriyadan olan insanların yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı siyasəti sistemli və davamlıdır. Bu kompleksin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.



Öncə onu xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin bu sahədə müəyyənləşdirdiyi kursu davam etdirən Prezident İlham Əliyev 2003-cü ildən bəri qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalayıb, bir çox proqramlar qəbul edilib. Dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir.

2007-ci ildə Azərbaycanda sonuncu çadır şəhərciyi ləğv edilib. Məlum olduğu kimi, cənab İlham Əliyev 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirərkən bir dənə də olsun çadır düşərgəsinin qalmayacağını bəyan etmişdi. Beləliklə, Azərbaycanda mövcud olmuş 12 çadır düşərgəsinin 2001-ci ildən başlayan ləğvi prosesi 2007-ci ilin sonunda başa çatdırıldı və cənab İlham Əliyevin vədi vaxtından da tez yerinə yetirildi.

"Qobu Park-2" yaşayış kompleksinin açılışı zamanı məcburi köçkün Fəridə Cabbarovanın ailəsi ilə görüşdə Prezident İlham Əliyev bu barədə deyib: *"Mən 2003-cü ildə bəyan etmişdim ki, prezident seçilərəmsə, ilk növbədə, qaçqın şəhərciklərini ləğv edəcəyəm. Çünki tamamilə bizə yaraşmayan bir mənzərə idi. Düzdür, o vaxta qədər bizim maddi imkanlarımız yox idi ki, bunu edək. Ona görə bunları biz 2007-ci ildə ləğv etdik, bir dənə də qalmadı. Ondan sonra keçdik yataqxanalara, məktəblərə, uyğunsuz binalarda yaşayan soydaşlarımızın problemlərinin həllinə. İndi hər il bu məqsədlə ancaq tikinti üçün yüz milyonlarla manat ayrılır. Bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcək. Biz hamımız əminik ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bizim gücümüz də artır, əhalimiz də artır. Bu il 10 milyonuncu vətəndaş dünyaya gəlib. İllər keçəcək, əhalimiz daha da artacaq, gücümüz daha da artacaq və istədiyimizə nail olacağıq".*

### Təşəbbüskar Mehriban Əliyevadır

Qeyd etdiyimiz kimi, bu kompleksin inşasının təşəbbüskarı Birinci vitse-prezident Mehriban Əliyevadır. 2017-ci ildə Birinci vitse-prezident təyin olunan Mehriban Əliyevanın ilk müşavirəni məcburi köçkünlərin sosial problemlərinə həsr etməsi ondan xəbər verirdi ki, doğma torpağını müvəqqəti itirmiş vətəndaşlarımıza diqqət və qayğı onun fəaliyyətində prioritet təşkil edəcək. Mehriban Əliyevanın ilk müşavirəni məcburi köçkünlərin sosial problemlərinə həsr etməsi həm də onun doğma torpağını müvəqqəti itirmiş vətəndaşlarımıza olan diqqətinin və həssas münasibətinin təcəssümü idi.

Əlbəttə, Birinci vitse-prezident təyin olunana qədər də Mehriban Əliyeva Heydər Əliyev Fondunun prezidenti və Milli Məclisin deputatı kimi məcburi köçkünlərə qayğı göstərilməsini daim diqqətdə saxlamışdı. Buna misal olaraq Heydər Əliyev Fondunun bilavasitə təşəbbüsü və dəstəyi ilə Xırdalan şəhərində 600 məcburi köçkün üçün yeni yaşayış binası inşa edilməsini göstərmək olar.

Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı. Bütövlükdə "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində yüzlərlə ailənin mənzil-məişət şəraiti tamamilə yaxşılaşdı. Onlar qəzalı mənzillərdən yeni, təmirli, rahat evlərə köçürüldülər.

"Qobu Park-2" yaşayış kompleksində 1300 ailə məskunlaşacaq. Keçən il dekabrın 24-də açılışı olan "Qobu Park-1" yaşayış kompleksində 1000-dən çox ailə yaşayır. Bu qəbildən olan 3-cü yaşayış kompleksi isə 1300 ailə üçün nəzərdə tutulur. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manatdan çox vəsait xərclənib. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Bu il isə 6 min mənzilin istifadəyə verilməsi nəzərdə tutulur. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti öz vətəndaşlarının problemlərinin həllinə həssas münasibət göstərir, onların həyat şəraitinin yaxşılaşdırılması üçün mühüm addımlar atır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Li KEÇYAN: "Çin və Azərbaycan dövlət başçılarının ciddi səyləri və uzaqgörənliyi sayəsində münasibətlər uğurla davam edir"

"Çin və Azərbaycan dövlət başçılarının ciddi səyləri və uzaqgörənliyi sayəsində münasibətlər uğurla davam edir".

AZƏRTAC xəbər verir ki, bu fikri Çin Xalq Respublikası Dövlət Şurasının Sədri (Baş Nazir) Li Keçyan Azərbaycan Respublikası Baş Nazirinin müavini Hacıbala Abutalıbovla görüşdə deyib.



Hacıbala Abutalıbov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Li Keçyana çatdırıb, həmçinin dövlətimizin başçısının salamlarının ÇXR Sədri Si Cinpinə çatdırılmasını xahiş edib. Qeyd olunub ki, böyük tarixi olan Azərbaycan-Çin münasibətləri müasir dövrdə hər iki xalqın mənafeyinə uyğun olaraq daha da möhkəmlənir. Tərəflər son illər ikitərəfli əlaqələrdə müşahidə olunan ciddi inkişafdan məmnunluq ifadə edib, yüksək səviyyəli qarşılıqlı səfərlərin əməkdaşlığımızın inkişafındakı vacib rolunu vurğulayıblar.

Baş Nazirin müavini "Pekin EKSPO 2019" beynəlxalq botanika sərgisinin bağlanış mərasimində iştirak etmək üçün dəvətə görə təşəkkür edib. O, ölkəmizin Çin ilə əlaqələrin bütün sahələrdə dərinləşməsinə böyük əhəmiyyət verdiyini bildirib, Azərbaycanın "Vahid Çin" siyasətini dəstəklədiyini bir daha bəyan edib. Hacıbala Abutalıbov Çinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyinə görə təşəkkürünü bildirib.

Azərbaycanın ÇXR Sədri Si Cinpinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü tam dəstəklədiyini deyən Baş Nazirin müavini bu strategiyanın əməkdaşlıq üçün yeni imkanlar yaratdığını vurğulayıb. Cari ilin aprelində Pekində ikinci "Bir kəmər, bir yol" beynəlxalq əməkdaşlıq forumunda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakını yada salan H.Abutalıbov diqqətə çatdırıb ki, həmin tədbirə Cənubi Qafqaz ölkələrindən yalnız Azərbaycanın dövlət başçısının dəvət olunması Azərbaycan ilə Çin arasında münasibətlərin yüksək səviyyədə olmasını xarakterizə edir.

Baş Nazirin müavini Çin Xalq Respublikasının yaranmasının 70-ci ildönümü münasibətilə təbriklərini çatdırıb, Azərbaycanın dost və tərəfdaş ölkə kimi Çinin ötən müddətdə əldə etdiyi uğurlara sevindiyini deyib.

Li Keçyan "Pekin EKSPO 2019" botanika sərgisinin bağlanış mərasimində iştirak etmək üçün dəvəti qəbul etdiyinə görə Azərbaycan tərəfə minnətdarlıq edib. O, Azərbaycan Prezidentinin salamlarına görə təşəkkür edib, dövlətimizin başçısı ilə bir neçə dəfə görüşdüyünü və aralarında dostluq münasibətlərinin və qarşılıqlı hörmətin olduğunu deyib. ÇXR Dövlət Şurasının Sədri onun da salamlarının Azərbaycan Prezidentinə çatdırılmasını xahiş edib.

Li Keçyan iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafının məmnunluq doğurduğunu, "Bir kəmər, bir yol" strategiyasının iki ölkə arasında əməkdaşlığı genişləndirmək üçün böyük imkanlar yaratdığını deyib.

ÇXR Dövlət Şurasının Sədri ölkələrimizin rəhbərləri tərəfindən müəyyən edilmiş inkişafın davamlı olacağına əminliyini ifadə edib. "Vahid Çin" siyasətinə olan dəstəyə görə Azərbaycana minnətdarlıq edən Li Keçyan ölkəsinin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini tanıdığını bir daha təsdiq edib.

# Xalqın iradəsinin ifadəsi

## Müxalifət partiyalarının rəhbərləri Prezident İlham Əliyevin Rusiyadakı çıxışını işğalçıya və beynəlxalq təşkilatlara növbəti kəskin xəbərdarlıq kimi qiymətləndirirlər

Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə dünyada çox böyük nüfuza malik beyin mərkəzlərindən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında iştirakı, orada səsləndirdiyi fikirlər və tezislər ölkəmizlə yanaşı, işğalçı Ermənistan və Rusiyanın kütləvi informasiya vasitələrinin də müzakirə mövzusuna çevrilib.







Ölkəmizdəki müxalifət partiyalarının rəhbərləri də qeyd edirlər ki, Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səsləndirdiyi həqiqətlər həm işğalçı ölkəyə, həm onun havadarlarına, həm də beynəlxalq təşkilatlara növbəti xəbərdarlıq mesajı idi.

### Prezident tək Ermənistana deyil, onun havadarlarına da mesaj ünvanladı

Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının başqanı **Fazil Mustafa** qəzetimizə açıqlamasında qeyd etdi ki, Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında səsləndirdiyi fikirlər ölkə ictimaiyyətinin dövlət başçısından gözləntisi idi: "Prezidentin çıxışı çox mükəmməl münasibət oldu. O baxımdan ki, dövlət başçısı prinsipial mövqeyini standart diplomatik terminlərlə deyil, obrazlı şəkildə dünyanın diqqətinə çatdırdı. Bununla da həm oradakı auditoriyaya, həm də münaqişənin həlli ilə bağlı məşğul olan beynəlxalq təşkilatlara, Ermənistanın himayədarlarına birmənalı şəkildə aydın oldu ki, Azərbaycanın Dağlıq Qarabağ siyasətində güzəştə getmək niyyəti yoxdur. Prezidentin dilindən də bu sözlərin səslənməsi Azərbaycan cəmiyyətində nikbinlik yaratdı. Çünki bu gün Qarabağ müvəqqəti işğal altındadır və bu, o demək deyil ki, Azərbaycan xalqı bu işğalla barışıb. Prezident İlham Əliyev də xalqın arzuladığı sözü elan etdi".

Fazil Mustafanın sözlərinə görə, Prezidentin Azərbaycan həqiqətlərini Rusiya auditoriyasında səsləndirməsi də diqqət çəkən məqamdı. Çünki işğalçı Ermənistanın ən çox güvəndiyi auditoriya həmin məkandır: "Prezidentin bu ölkənin baş nazirinin sərsəm açıqlamasına tutarlı cavabı, eləcə də erməni hücumunun məhz Rusiya auditoriyasında dəf edilməsi fərqli bir başlanğıcın əsasını qoydu".

Deputat hesab edir ki, bu çağırışa ilk növbədə həssaslıqla yanaşan Azərbaycan Ordusu olmalıdır. Çünki ordumuz hər zaman işğalçını torpaqlarımızdan qovmağa hazır olmalıdır ki, Ali Baş Komandanın hücum əmrinə böyük şövqlə, peşəkarlıqla yanaşsın.

### Cənab İlham Əliyev həm də Paşinyana yerini göstərdi

"Ermənistanın baş naziri N.Paşinyanın Xankəndidəki məsuliyyətsiz "bəyanatından" sonra arada müəyyən bir qısa fasilə yarandı və ermənilərə elə gəldi ki, Azərbaycan heç dövlət səviyyəsində bu məsələyə reaksiya vermədi və çox güman ki, artıq xalq da işğalla barışır. Lakin Azərbaycan Prezidenti elə bir məqamda, elə bir məkanda xalqının mövqeyini sərgiləyən "Qarabağ Azərbaycanındır və nida işarəsi" ifadəsini işlətdi ki, bununla məsələyə kökündən son qoydu".

Bu fikirləri isə bizimlə söhbətində Milli Məclisin deputatı, Vəhdət Partiyasının sədri **Tahir Kərimli** söylədi. Deputatın fikrincə, Azərbaycan Prezidentinin erməni baş nazirə cavabını dünyanın elm adamları və siyasilərinin, hərbçilərinin qatıldığı bir platformadan bəyan etməsi daha effektiv oldu. Bu fikirlərin Rusiyada səslənməsi Ermənistanı növbəti dəfə təşvişə saldı: "İlk növbədə onu vurğulamalıyıq ki, cənab İlham Əliyevin həmin beynəlxalq konfransa dəvət edilməsi Rusiya Prezidentinin Azərbaycan və Ermənistana olan münasibətinin təzahürü idi. Cənab İlham Əliyev faktlara əsaslanan çıxışı ilə bir daha Ermənistanın baş nazirinə yerini göstərdi. Digər tərəfdən orada iştirak edən siyasətçilər, beynəlxalq təşkilatların nümayəndələri, hərbi ekspertlər öz "hesablarını götürdülər". Bir daha onlara bəlli oldu ki, Azərbaycan mövqeyindən geri çəkilən deyil. Prezidentin beynəlxalq təşkilatların qətnamələrinin kağız üzərində qalması ilə bağlı söylədiyi fikirlər də olduqca vacib məsələ idi".

Deputat deyir ki, Azərbaycan Prezidentinin çıxışı Ermənistanın daxilində də narahatçılıq yaradıb. Bu ölkədə nəşr olunan "Ayna" qəzeti "Əliyevdən Paşinyana tutarlı cavab" başlıqlı yazısı ilə həqiqətləri etiraf etdi. Bu da onu göstərir ki, Azərbaycan Prezidentinin yürütdüyü siyasət, münaqişənin həlli ilə bağlı irəli sürdüyü təşəbbüslər Ermənistan əhalisi tərəfindən də qəbul edilir: "Bütün bunlar Prezident İlham Əliyevin hücum diplomatiyasının uğurlarıdır. Əgər indiyədək hücum diplomatiyası kursunu yerinə yetirirdiksə, artıq diplomatik fəaliyyətimizi "Qarabağ Azərbaycanındır və nida işarəsi" üzərində qurmalı, səylərimizi daha da gücləndirməliyik".

### Lazımi vaxtda və yerdə olan çıxış

Milli Məclisin deputatı, Demokratik İslahatlar Partiyasının sədri **Asim Mollazadə** də qəzetimizə açıqlamasında dedi ki, Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasındakı çıxışı Azərbaycan xalqının iradəsinin ifadəsi idi: "Cənab İlham Əliyevin bu çıxışı Azərbaycanın dünyaya mesajı idi. Dövlət başçısı bəyan etdi ki, biz torpaqlarımızın işğalı ilə barışmayacağıq. Eyni zamanda Prezident beynəlxalq təşkilatların da nəzərinə çatdırdı ki, beynəlxalq hüquq normalarını kobud surətdə pozmaq, ona laqeyd yanaşmaq olmaz. Çünki bu cür yanaşma gələcəkdə bir sıra münaqişələrə rəvac vermiş olacaq. Ona görə də qəbul edilmiş qətnamələr kağız üzərində qalmamalıdır. Ölkələr də hüququn aliliyi prinsipinə uyğun hərəkət etməlidirlər ki, digər dövlətlər ibrət götürsünlər".

Deputatın sözlərinə görə, cənab İlham Əliyevin dünyanın bir sıra ölkələrinin liderlərinin, aparıcı mütəxəssislərinin qarşısındakı nitqi lazımi vaxtda və yerində olan çıxış idi. Bunu hətta Ermənistanda da etiraf edirlər.

Azərbaycanla Rusiya arasında olan münasibətlərə gəlincə isə, Asim Mollazadə qeyd etdi ki, ölkəmiz, Ermənistan istisna olmaqla qonşu dövlətlərlə hər zaman səmimi, dostluq münasibətləri qurub, həm siyasi, həm iqtisadi əməkdaşlığın inkişafında maraqlı olub. Bu gün də Azərbaycan-Rusiya arasındakı münasibətlər inkişaf mərhələsindədir. Hər iki ölkə çoxşaxəli əmakdaşlıqda maraqlıdır. Prezident İlham Əliyevin də "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasına dəvət edilməsi isə Rusiya Prezidenti ilə Azərbaycanın dövlət başçısı arasında olan möhkəm dostluq və dövlətlərarası strateji tərəfdaşlıq münasibətinin real təzahürüdür.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Saber Junction-19" təlimlərində iştirak etmiş hərbi qulluqçularla görüş

ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberqerin rəhbərlik etdiyi nümayəndə heyəti Almaniyanın "Hohenfels" təlim mərkəzində keçirilən "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimlərində iştirak etmiş Azərbaycan Ordusunun hərbi qulluqçuları ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən səfir Ö.Litzenberqer Azərbaycan Respublikası ilə NATO arasında tərəfdaşlığın əsasının 1994-cü ildən qoyulduğunu, bu müddət ərzində Azərbaycan Ordusunun hərbi qulluqçularının bir çox təlim və kurslarda iştirak etdiklərini diqqətə çatdırıb. Diplomat həmçinin vurğulayıb ki, keçirilən təlimlər hərbi qulluqçuların bilik və bacarıqlarının təkmilləşməsində böyük rol oynayır.

Səfir təlimdə iştirak edən hərbi qulluqçulara xidmətdə uğurlar arzulayıb.

Polkovnik Siyavuş Mustafayev "Saber Junction-19" çoxmillətli briqada taktiki təliminin vacibliyindən danışıb. S.Mustafayev belə təlimlərin tərəfdaş ölkələr arasında təcrübə mübadiləsinin aparılması, əməliyyat uyarlılığının təmin edilməsi və döyüş hazırlığının yüksəldilməsində böyük önəm daşıdığını bildirib.

# Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 23 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Dovex, Voskevan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Kəmərli, Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Ərəbşünaslığın parlaq ulduzu



Əvvəli 1-ci səh.

Ailənin yeganə və hədsiz sevilən övladı kimi, o, doğma ocağın xeyirxahlıq, qayğı və yaradıcı ab-havasında böyüyürdü. Bütün bunlar hələ erkən yaşlarından onun çoxyönlü istedadının inkişafına təkan vermişdi. 1957-ci ildə orta məktəbi qızıl medalla bitirən Aida İmanquliyeva Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinə daxil oldu. Universitetdə ərəb dili və ədəbiyyatı sahəsində dərin biliklərə yiyələnərkən həm də gələcək alimin tədqiqat vərdişləri formalaşırdı.

1962-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirən Aida xanımın həyatı təkcə sevdiyi elmlə deyil, həm də ürəkdən sevdiyi və sevildiyi bir insanla - Arif Paşayevlə bağlanmışdı. Onların bir-birinə hədsiz sədaqət və hörmətinə, olsa-olsa, ancaq elmə məhəbbətləri şərik çıxa bilərdi. Bir də, əlbəttə, iki qızlarına - Nərgiz xanım Paşayeva və Mehriban xanım Əliyevaya sevgiləri.

Elmdə atdığı ilk addımlardan Aida xanım özünü heyrətamiz dərəcədə zəhmətkeş, intizamlı, dərin zəkalı bir tədqiqatçı kimi göstərdi ki, bu da onun gələcəyin böyük alimi olacağından və elmi karyerada əldə edəcəyi yüksək zirvələrdən xəbər verirdi. Fundamental elmlə ciddi məşğul olmaq məqsədi 1962-ci ildə onu universitetin aspiranturasına gətirib çıxardı. Bir müddət sonra təhsilini davam etdirmək üçün SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun aspiranturasına göndərildi. Aida xanım Moskvada bütün varlığı ilə şərqşünaslıq elmi mühitinə daxil oldu, filoloji ərəbşünaslığın görkəmli alimləri ilə ünsiyyət yaratmaq, ən yaxşı kitabxanalarda işləmək imkanı əldə etdi. Bütün bunlar gənc alimin yetişməsi üçün çox vacib idi. Bir tərəfdən də Moskvanın zəngin mədəni həyatı Aida xanımın təbiətinə xas yüksək ziyalılığın daha da cilalanması üçün münbit zəmin oldu.

Əksər istedadlı alimlərdə olduğu kimi, Aida xanımın da elmi maraqları yaradıcılıq yolunun lap əvvəlində formalaşmışdı. O, elmi axtarışları üçün ərəb filologiyasının yetərincə mürəkkəb bir sahəsini seçərək bütün elmi karyerasını ərəb ədəbiyyatının istər tarixi, istərsə də fəlsəfi baxımdan mühüm bir dövrünə həsr etdi. Söhbət XIX əsrin axırları-XX əsrin birinci yarısı ərəb ədəbiyyatından gedir. Bu, ərəb cəmiyyətlərinin sosial-siyasi həyatında fundamental transformasiya, onların modernləşməsi dövrü idi. Eyni zamanda stereotiplərin aradan qaldırılması, ərəb ictimai fikrinə ətraf gerçəklik haqqında yeni təsəvvürlərin nüfuz etməsi prosesi gedirdi. Bütün bu mürəkkəb, birmənalı olmayan, çox vaxt da ağrılı proseslər o dövrün ərəb ədəbiyyatında öz bədii inikasını tapırdı. Bütün bu ictimai və estetik hadisələrin bədii ümumiləşdirilməsi yeni, xüsusilə də ərəb mühacirət ədəbiyyatında o qədər dərin, canlı və parlaq əks olunurdu ki, onu həmin dövrün kifayət qədər inkişaf etmiş ədəbiyyatları ilə bir sıraya qoyurdu. Təsadüfi deyil ki, həmin dövrün ərəb ədəbiyyatının yüksək bədii keyfiyyətlərini, yazıçıların əldə etdiyi uğurları xüsusi vurğulayan Aida xanım yazırdı ki, "XX əsr ərəb ədəbiyyatı regional ədəbiyyat çərçivələrindən çıxaraq dünya ədəbi prosesinə öz qanunauyğun və sanballı töhfəsini verə bildi". Alim xüsusi olaraq qeyd edirdi ki, yeni ərəb ədəbiyyatının korifeyləri "onu böyük rus ədəbiyyatının uğurlarına qovuşdurmuşlar".

Söhbət, hər şeydən öncə, müxtəlif səbəblərdən Amerika Birləşmiş Ştatlarına mühacirət etməyə məcbur olmuş və orada ədəbi yaradıcılıqlarını davam etdirmiş Suriya kökənli Cübran Xəlil Cübran, Mixail Nüaymə və Əmin ər-Reyhanidən gedir. Bu yazıçılar ərəb ədəbiyyatında məhcər ədəbiyyatı adını almış bütöv bir cərəyan yaratmışlar. Aida xanımın 1975-ci ildə Moskvada ayrıca monoqrafiya kimi çap olunmuş "Mixail Nüaymə və "Qələmlər cəmiyyəti" adlı ilk ciddi tədqiqatı məhz bu mövzuya həsr edilmişdi.

Qeyd etmək lazımdır ki, ərəbşünaslıqda "Suriya-Amerika" məktəbi probleminə ilk toxunanlardan biri böyük elmi uğurlarına görə "ərəblərin şeyxi" ləqəbini almış dünya və sovet ərəbşünaslığının patriarxı, akademik İ.Y.Kraçkovski olmuşdur. İqnati Yulianoviçdən sonra bu qədər mühüm və az öyrənilmiş mövzuya girişməyə cürət etmək gənc tədqiqatçının təkcə erudisiyasından və problemin vacibliyini duymaq qabiliyyətindən deyil, həm də yetərincə cəsarətindən, öz qüvvə və imkanlarına inamından xəbər verirdi. Mübaliğəsiz demək olar ki, o, qarşıya qoyduğu məqsədə nail olmuş və həmkarları arasında nüfuz qazanmışdır. Belə ki, görkəmli sovet və rus filoloq-ərəbşünaslarından İ.M.Filiştinski Aida İmanquliyevanın xidmətlərini yüksək qiymətləndirərək yazırdı: "Suriya-Amerika məktəbi" yazıçılarının yaradıcılığını təhlil edərkən İmanquliyeva öz tədqiqatını həmin dövrün tarixi-siyasi və mədəni prosesləri ilə əlaqələndirməyi bacarmış, bu isə ədəbi hadisələri öyrənərkən yeni məktəbin yarandığı tarixi zəmini üzə çıxarmağa yardımçı olmuşdur. Bu, ona sırf ərəb ədəbiyyatı mövzusunun dar çərçivəsindən müəyyən dərəcədə çıxmağa və təkcə ərəb Şərqinin deyil, eləcə də istər müsəlman aləminin başqa ölkələrində, istərsə də onun hüdudlarından kənarda gedən tarixi-ədəbi inkişafın mürəkkəb, bəzən də ziddiyyətli formalarının konturlarını cızmağa imkan vermişdir. Öyrənilən materiala bu cür yanaşma tərzi professor Aida xanıma yeni dövrə keçid zamanı bir çox Asiya və Afrika ölkələrinin ədəbiyyatları üçün səciyyəvi olan ümumi qanunauyğunluqları üzə çıxarmağa imkan vermişdir".

Aida xanımın bu mövzuya həsr edilmiş bütün əsərlərində yeni ərəb ədəbiyyatı korifeylərinin yaradıcılığını fərqləndirən yeni üslub və ədəbi xüsusiyyətlərin təhlili zamanı səriştəli tədqiqatçı dəstxəti özünü büruzə verir. Qeyd etmək lazımdır ki, ədəbiyyatşünaslığın nəzəri problemlərinə bu cür analitik yanaşma Aida xanımın elmi yaradıcılığını bəzi müasir filoloq-ərəbşünasların səthi, sönük "belletristika" nümunələrindən fərqləndirir. Məhz romantizm və realizmin əsas prinsiplərinə yaradıcı yanaşma, onların mexaniki mənimsənilməsi və Qərb klassiklərinin təqlidi deyil, dərindən dərki, Aida xanımın fikrincə, yeni ərəb ədəbiyyatının korifeylərinə imkan vermişdir ki, yeni inkişaf mərhələsində ərəb həyatının özünəməxsus cizgilərini bütöv şəkildə istedadla əks etdirsinlər.

Bununla yanaşı, Aida İmanquliyeva öz tədqiqat obyektinə obyektiv və qərəzsiz yanaşan bir alim kimi də diqqəti cəlb edir. O, tədqiqat obyektindən mümkün qədər aralanmağa çalışır ki, soyuqqanlı düşüncə ilə, subyektiv duyğulara və rəğbətə qapılmadan elmi-komparativist metodlar əsasında ədəbiyyatların qarşılıqlı əlaqələrini araşdırsın. Akademik A.B.Kudelinin doğru olaraq qeyd etdiyi kimi, Aida xanım Qərb və ərəb ədəbiyyatlarının qarşılıqlı əlaqəsinə daha inkişaf etmiş ədəbiyyatın az inkişaf etmiş ədəbiyyata təsiri kimi baxmaq fikrindən çox uzaq olmuşdur: "Köhnə komparativistika məhz buna görə səhvə yol verirdi".

Sevindirici haldır ki, Aida xanımın elmi yaradıcılığına verilən yüksək qiymət təkcə sovet və rus alimlərinin dilindən deyil, həm də ərəb alimlərinin dilindən səslənir. Məsələn, Misirin çox nüfuzlu "əl-Əhram" qəzetində Aida İmanquliyevanın elmi yaradıcılığına yüksək qiymət verilərək onun xidmətləri Misir və Azərbaycan ədəbiyyatları arasında körpü kimi dəyərləndirilir. Xüsusi olaraq qeyd edilir ki, professor Aida İmanquliyeva ərəb filoloji fikrinin dünya ədəbiyyatşünaslığına inteqrasiyası prosesinin tədqiqi sahəsində ən tanınmış alimlərdən biridir. Misir qəzeti Aida xanımın ərəbşünaslıq elminə verdiyi böyük töhfə haqqında yazırdı: "XX əsr şərqşünaslığında Aida İmanquliyevanın xüsusi yeri vardır. O, ərəb ədəbiyyatının tədqiqatçısı və "Qurani-Kərim"in tərcüməçisi İ.Kraçkovski və başqa görkəmli şərqşünaslarla birlikdə dünyanı ərəb poeziyası və nəsri, ərəb filoloji fikri, müasir ərəb ədəbiyyatı və mədəniyyəti ilə tanış etmişdir". Eyni zamanda qızılgülün ətrini almadan onun bütün təzətərliyini duymaq mümkün olmadığı kimi, ərəb mətbuatı da Aida İmanquliyevanın tükü tükdən seçən intellektini və heyrətamiz qadın gözəlliyini vəsf etməkdən özünü saxlaya bilmir: "Böyük ərəbşünas-alim kimi, Aida xanımın məşhurluğunu təmin edən səbəblərdən onun yüksək intellektini, canlı naturasını, bədii istedadını, məqsədyönlülüyünü, sarsılmaz prinsipiallığını, öz elmi baxışlarını müdafiə etmək bacarığını, eləcə də mütləq kamilliyi və nəcibliyini göstərmək lazımdır. Onda insanlıq, peşəkarlıq və qadınlıq harmonik şəkildə birləşmişdir".

Namizədlik dissertasiyasının müdafiəsindən sonra Aida xanım seçdiyi elm yolunda eyni məqsədyönlülüklə irəliləməkdə davam etdi. Moskvadan qayıtdıqdan sonra o zaman Yaxın və Orta Şərq Ölkələri İnstitutu adlanan Şərqşünaslıq İnstitutunda elmi fəaliyyətə başlayaraq tezliklə Ərəb ədəbiyyatı qrupunu təşkil edib ona rəhbərlik edir. Bir müddət sonra bu qrupun bazasında yaranan Ərəb filologiyası şöbəsi ölkə şərqşünaslığının flaqmanına çevrilir.

Şərqşünaslıq İnstitutunda özünü bütünlüklə elmi-təşkilati işə həsr edən Aida xanım seçdiyi mövzu üzərində fundamental elmi işlərini də uğurla davam etdirir. 1988-ci ildə o, Tbilisidə doktorluq dissertasiyasını böyük uğurla müdafiə edir. Ərəb ədəbiyyatı üzrə böyük mütəxəssislər olan rəsmi opponentləri - A.B.Kudelin, A.A.Dolinina və D.A.Tuxareli öz rəylərində dissertasiya işinə yüksək qiymət verərək əsərdəki ideyaların elmi yeniliyini xüsusi vurğulayıblar. Bu işin elmi nəticələrini Aida xanım 1991-ci ildə Bakıda işıq üzü görmüş və çox təəssüf ki, onun son kitabı olan "Yeni ərəb ədəbiyyatının korifeyləri" monoqrafiyasında ümumiləşdirmişdir.

Keçmiş Sovet İttifaqından xaricdə elmi konfranslarda iştirak etmək indiki kimi asan deyildi. Çoxsaylı bürokratik maneələr, partiya və hökumət strukturları ilə razılaşdırmanın çətinliyi ucbatından bu, az-az alimə qismət olurdu. Buna baxmayaraq, Aida xanım o alimlərdən idi ki, sovet və Azərbaycan ərəbşünaslıq elmini ümumittifaq və beynəlxalq miqyasda uğurla təmsil edirdi. Onun 1987-ci ildə Avropa şərqşünaslığının məşhur mərkəzlərindən olan və 150 ildən artıq şərqşünaslıq cəmiyyətinin fəaliyyət göstərdiyi Almaniyanın Qall şəhərində beynəlxalq simpoziumda iştirakı buna parlaq nümunə ola bilər. Simpoziumda müdafiəsinə hazırlaşdığı doktorluq dissertasiyası mövzusunda məruzə edən Aida xanım Qərb ədəbiyyatının ərəb məhcər ədəbiyyatının, xüsusilə XX əsrin əvvəllərində Amerika Birləşmiş Ştatlarına mühacirət etmiş Cübran Xəlil Cübran, Mixail Nüaymə, Əmin ər-Reyhani kimi yazıçıların yaradıcılığının formalaşmasına təsirindən söz açmışdı. Məruzədə həm də klassik rus ədəbiyyatının sayseçmə nümayəndələri olan L.N.Tolstoy, İ.S.Turgenyev, A.P.Çexov kimi yazıçıların 1906-1911-ci illərdə Rusiyada Poltava ruhani seminariyasında təhsil alan və ilk əsərlərini rus dilində yazmış Mixail Nüaymənin yaradıcılığına təsiri barədə də fikir səslənmişdi.

Eyni zamanda özünü istedadlı elm təşkilatçısı kimi göstərən Aida xanım respublikanın aparıcı elmi müəssisələrinin birində bütöv bir elmi istiqamətin banisi və rəhbəri olmuşdur. Özünün yaratdığı şöbəyə başçılıq etdiyi müddətdə 10 nəfər gənc uğurla dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsini almışdır. Məhz Aida xanımın təşəbbüsü ilə iki ildə bir dəfə institut əməkdaşlarının əsərlərindən ibarət "Ərəb filologiyası məsələləri" adlı məqalələr toplusu nəşr olunmağa başlamışdır. Sonralar institutun direktor müavini, qısa müddət ərzində isə direktoru olarkən Aida xanım kadrlara, xüsusilə gənc alimlərin peşəkarlığının yüksəldilməsinə daim qayğı göstərir, institutun istər təşkilati strukturunda, istərsə də elmi tematikasının zənginləşməsində mühüm işlər görür, Şərqşünaslıq İnstitutunun sürətlə dəyişən yeni dövrün tələblərindən geri qalmamasına çalışırdı.

Elmi, elmi-təşkilati, inzibati işlərdə böyük uğurları ilə yanaşı, Aida xanımın məhsuldar pedaqoji fəaliyyəti üzərində də dayanmaq lazımdır. Məsələ burasındadır ki, hələ sovet dövründə şərqşünas kadrların hazırlanması üçün aparıcı mərkəzlərdən biri əsası V.Bartold, P.Juze, B.Çobanzadə, A.Qubaydulin, V.Xuluflu, R.Sultanov, Y.Şirvani və başqaları tərəfindən qoyulmuş Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsi idi. Respublikamızın elmi, intellektual və mədəni həyatında doğma Şərqşünaslıq fakültəsinin yerini yüksək qiymətləndirən Aida xanım istər universitetin daha da inkişaf etməsinə, istərsə də Azərbaycanda yeni şərqşünaslar nəslinin yetişdirilməsinə şəxsən töhfə verməyi özünün müqəddəs borcu sayırdı. Buna görə də o, gərgin elmi fəaliyyəti ilə yanaşı, öz bilik və təcrübəsini gənc ərəbşünaslara çatdırmağa da vaxt tapırdı. Onun fakültədə pedaqoji fəaliyyəti həm özünə, həm də tələbə auditoriyasına münasibətdə dəyişməz tələbkarlığı ilə seçilirdi. Bununla yanaşı, Aida xanımın hər mühazirəsində, tələbələrlə hər ünsiyyətində yüksək ziyalılıq, səsində və maneralarında zərrə qədər təkəbbür, özündənrazılıq və snobizm olmayan təmkinli inam özünü göstərirdi. Tələbələri xatırlayırlar ki, o, bilikləri "ali məktəb müəllimlərinin çoxuna xas olan tezis-mentor ahəngi və üsulu ilə deyil, mühakimələr, müddəalar və nəticələr formasında çatdırırdı. Yəqin, bu, akademik mühitin özünəməxsus xüsusiyyətləri ilə əlaqədar idi ki, həmin mühitin nümayəndələri tələbə auditoriyalarına gəlmirdilər. Bu keyfiyyət fərqi onunla bağlı idi ki, təqdim edilən material müəllim üçün çox əziz idi və bu materialı qayğı ilə dinləyiciyə çatdırmağa, eyni duyğuları onda da oyatmağa çalışırdı. Auditoriya buna hörmət və rəğbətlə cavab verməyə bilmirdi". Bu cür dostcasına, eyni zamanda ciddi, düşündürücü və tələbkar tədris manerası ilə Aida xanım tələbələrin ürəyini fəth edir, onları auditoriyada canlı, maraqlı işə, materialı dərindən mənimsəməyə kökləyirdi.

Bəzən bu cazibədar, ziyalı qadının bu cür ağır yükün və qayğıların öhdəsindən necə gəlməsinə, eyni zamanda öz prinsiplərinə sona qədər sadiq qalmaq qabiliyyətinə heyrətlənməyə bilmirsən. Fundamental tədqiqatlarla uğurla məşğul olmaq, aspirant və doktorantlara rəhbərlik etmək, akademik təşkilata başçılıq etmək, ali məktəbdə dərs demək, sevən, sədaqətli, qayğıkeş həyat yoldaşı və ana olmaq, bütün bunlarla yanaşı, böyük hərfli Qadın, həqiqi gözəllik idealı olaraq qalmaq... Hələ nə qədər fəzilətlər sadalamaq olar... Və hələ nə qədər nəcib, xeyirxah işlər görə bilərdi Aida xanım, əgər vaxtsız, amansız ölüm onu bizim sıralarımızdan çox erkən, ömür və yaradıcılıq yolunun zirvəsində olarkən qoparmasaydı.

Şair bu misraları sanki onun haqqında demişdir:

*Cahanda hansı bir sərvət təsadüf etsə mənə,*
*Səcdə etməkdəyəm yalnız elmü ürfanə.*
*Fəqət budur şöhrətim, izzətim, cənnətim mənim,*
*Ən böyük, ən sevimli məqsədim mənim.*

Alim, Ana, Qadın - Aida xanımın nəcib obrazı yaddaşımızda bu gün də yaşayır.

***Akif ƏLİZADƏ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

# Görkəmli şərqşünas alim Aida İmanquliyevanın 80 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib





Oktyabrın 9-da AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun təşkilatçılığı ilə görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 80 illik yubileyinə həsr edilən elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə konfrans iştirakçıları II Fəxri xiyabanda Aida İmanquliyevanın məzarını ziyarət edib, xatirəsini dərin ehtiramla anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən tədbirdə Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, AMEA-nın həqiqi və müxbir üzvləri, institut və təşkilatlarının direktorları iştirak ediblər.

Konfransda çıxış edən AMEA-nın prezidenti, akademik Akif Əlizadə görkəmli şərqşünas alim Aida İmanquliyevanın xatirəsinin ürəklərdə əbədi yaşadığını, əsərlərinin dönə-dönə oxunduğunu, tədqiq edildiyini, tərcümə olunduğunu, yenidən işıq üzü gördüyünü vurğulayıb. Bildirib ki, Aida İmanquliyeva əsərlərində gələcəyə elmi körpü yaradıb. Yaradıcılığında əsasən ərəb məhcər ədəbiyyatını tədqiq və təhlil edən Aida xanım bu sahədə uğurları ilə şərqşünaslıq elminə bir sıra yeniliklər gətirib. Bu uğurlar Şərq və Qərb mədəniyyətləri arasında dialoqun yaradılmasına xidmət edib.

Akademik Akif Əlizadə bildirib ki, çoxşaxəli elmi fəaliyyəti ilə şərqşünaslıq elminin zənginləşməsinə mühüm töhfələr verən Aida İmanquliyeva gözəl övlad, ana və həyat yoldaşı olmaqla Azərbaycan qadınına örnək bir ömür yaşayıb.

AMEA İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova böyük alimin zəngin elmi fəaliyyətindən söz açıb. Qeyd edib ki, Şərq ədəbiyyatına, elmə gənc yaşlarından böyük həvəs göstərən Aida xanım Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsini bitirdikdən sonra həyatını Şərqşünaslıq İnstitutuna bağlayıb və ömrünün sonunadək bu elmi müəssisədə çalışıb. Aida İmanquliyevanın tələbəsi olduğu üçün qürur hissi keçirdiyini deyən Nərgiz Axundova görkəmli alimin yüksək mənəvi keyfiyyətlərindən də danışıb.

Şərqşünaslıq İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Gövhər Baxşəliyeva "Filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın elmi yaradıcılığı" mövzusunda məruzə ilə çıxış edib.

Gövhər Baxşəliyeva bildirib ki, Azərbaycanda məşhur şərqşünaslar çox olub; ərəb, fars və türk dillərinin gözəl biliciləri, bu dillərdə yazılmış möhtəşəm poeziya nümunələrinin yorulmaz tədqiqatçıları, Azərbaycanın böyük tarixçiləri, islamşünaslar, mətnşünaslar və s. Hər əsəri elmdə yeni söz, yeni tapıntı olan bu parlaq alimlər, işıqlı şəxsiyyətlər öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslığının özünəməxsus simasını




müəyyənləşdirib, keçmiş sovet şərqşünaslığında xüsusi "Azərbaycan məktəbi"nin mövcudluğunun etiraf olunmasını təmin ediblər. Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida İmanquliyeva həmin məktəbin inkişafında böyük xidmətləri olan, eyni zamanda, keçmiş ittifaq və dünya miqyasında onu layiqincə təmsil edən nüfuzlu alimlərimizdən olub. Dərin nəzəri bilikləri, analitik təfəkkürü, geniş erudisiyası, zəngin mütaliəsi, bir neçə Şərq və Qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlər ona nəinki keçmiş ittifaq miqyasında, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirib.

Diqqətə çatdırılıb ki, Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olub, 1957-ci ildə Bakı şəhərinin 132 saylı orta məktəbini qızıl medalla bitirib. Həmin ildə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olub. Ali məktəbi bitirəndən sonra Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, daha sonra keçmiş SSRİ Elmlər Akademiyası Asiya xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə edən Aida İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda elmi fəaliyyətə başlayıb. O, elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçib, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə yüksəlib. 1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib, filologiya elmləri doktoru elmi dərəcəsini və tezliklə bu ixtisas üzrə professor adı alıb.

Üç monoqrafiyanın ("Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri") və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılan bir çox elmi əsərlərin redaktoru olub. Müasir Şərq ədəbiyyatının bir sıra əsərləri də Aida xanımın tərcüməsində işıq üzü görüb. O, həmçinin Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən Asiya və Afrika xarici ölkə ədəbiyyatları ixtisası üzrə müdafiə şurasına sədrlik edib.

"Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi", - deyə Gövhər Baxşəliyeva bildirib.

Qeyd edib ki, Aida İmanquliyeva öz fundamental tədqiqatları ilə təkcə Azərbaycan şərqşünaslığını deyil, eyni zamanda, dünya şərqşünaslığını zənginləşdirib və inkişaf etdirib. Onun bir alim kimi maraq dairəsi geniş və çoxşaxəli olub. Adı dünya şöhrətli şərqşünaslarla bir sırada çəkilən Aida İmanquliyevanın tədqiqat sahəsi ərəb filologiyası və ya konkret olaraq ərəb məhcər ədəbiyyatıdır. Lakin alimin araşdırdığı məsələlər şərqşünaslığın və filoloji düşüncənin hüdudlarına sığmır. Şərq-Qərb problematikasının bədii-romantik tərənnümü Aida xanımın yaradıcılığında müstəqil fəlsəfi problem kimi qoyulur və Şərq ilə Qərb düşüncələrinin vəhdət zərurəti elmi-fəlsəfi arqumentlərlə sübuta yetirilir. Belə ki, Aida xanım tədqiq etdiyi görkəmli şəxslərin xidmətlərini göstərməklə kifayətlənməyərək, özü də Şərq-Qərb probleminin həlli istiqamətində olduqca dəyərli fikirlər irəli sürüb. Alimin çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə öyrənilməsi üçün çox mühüm zəmin yaradır və metodoloji əhəmiyyət daşıyır.

Sivilizasiyalararası dialoq ideyasının siyasi, iqtisadi və kulturoloji müstəvilərdə üzə çıxması əslində elmi-fəlsəfi və ədəbi-bədii yaradıcılıqda aparılan axtarışların nəticəsi idi. Bu problem bədii yaradıcılıq müstəvisində bir sıra yazıçı-mütəfəkkirlər tərəfindən hələ XX əsrin sonunda qaldırılmışdı. Aida İmanquliyeva məhz həmin ədəbi-bədii proseslərin XX əsrin sonunda kəsb etdiyi yeni ictimai-siyasi mənanın aktuallığını nəzərə alaraq, bu problemi Azərbaycan şərqşünaslıq məktəbinin mühüm istiqamətlərindən birinə çevirdi. Alimin fikrincə, ərəb ədəbiyyatı xarici ədəbiyyatların nailiyyətlərindən faydalanmasında ilk növbədə məhcər ədəbiyyatı nümayəndələrinə borcludur. Məhcər yazıçıları Qərb ədəbiyyatının ən yaxşı nailiyyətlərini mənimsəyib və özünəməxsus şəkildə inkişaf etdiriblər. Əsərlərində milli ruhu və milli koloriti qoruyub saxlaya bilən bu yazıçılar yeni ərəb ədəbiyyatının inkişafında əvəzsiz rol oynayıblar. Məhz onların yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənib, janr tərkibi zənginləşib, bədii ifadənin yeni formaları yaranıb və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsinə çevrilib.

Ardı 8-ci səh.

◆ Unudulmazlar

# Əbədiyaşar Aida





> “Ailə ənənələrimizdə, yəqin ki, ən ümdə məsələ qadına olan münasibətdir. Təkcə qadını sevmək və ona dəyər vermək deyil, həm də onu qorumaq bacarığıdır. Həyat yoldaşım çox gözəl qadın idi. Çox erkən, gənc yaşında həyatdan köçdü. Onu qorumaq üçün əlimdən gələni etdim, ancaq bədbəxtlik heç gözləmədiyimiz bir anda bizi haqladı. İllər keçdikcə, əlbəttə, ağrı azaldı. Amma acısı, göynərtisi hələ də ürəyimdədir. Onun xatirəsi hər vaxt bizimlədir - mənimlə və qızlarımla...”
>
> **Arif Paşayev**

*Əvvəli 1-ci səh.*

Həyata gəldiyi ilk gündən tale onun üzünə gülmüşdü. Azərbaycanın tanınmış ziyalısının ocağında dünyaya göz açmışdı. Onu sevən, nazını çəkən, qayğısına qalan sevimli ata-anası vardı. Ona bilik dəryasında sərbəst üzməyi öyrədən cəfakeş müəllimləri vardı. Tale ona öz istilik və hərarəti ilə ata ocağından geri qalmayan ər ocağı, hər valideynə qismət olmayan övlad səadəti qismət etmişdi. Tale ona həm də fitri istedadından bəhrələnərək seçdiyi və sevdiyi peşəsində ən yüksək pilləyə çatmağı nəsibləmişdi... Amma tale ona bircə uzun ömür bəxş etməmişdi...

Aida İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində dünyaya göz açmışdı. Atası görkəmli jurnalist, pedaqoq, Əməkdar elm xadimi Nəsir İmanquliyev XX əsrin ortalarında populyar olan “Bakı” və “Baku” axşam qəzetlərinin əsasını qoymuşdu. İnternetin və müxtəlif xəbər telekanallarının olmadığı həmin illərdə bakılılar işdən sonra axşam saatlarında satışa çıxarılan “Bakı” qəzetini almaq üçün köşklərin qarşısında növbəyə dururdular. Nəsir İmanquliyev Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsində dərs də deyirdi. Orta nəsildən olan azərbaycanlı jurnalistlərin bir çoxu Nəsir müəllimin tələbələri olub. Anası Gövhər İmanquliyeva (Sultanzadə) Şamaxıda əsilzadə ailəsində dünyaya gəlmişdi. Belə bir ocaqda doğulub, böyümək hər kəsə nəsib olan xoşbəxtlik deyildi.

## İlk şöbə müdiri, ilk qadın professor, ilk qadın direktor...

“Ot kökü üstə bitər” misalı boşuna deyilməyb. Yüksək bilik, savad almaq, yazıb-yaratmaq, cəmiyyət üçün faydalı insan kimi yetişmək istəyi elə kökdən, gendən gəlirdi. Məhz ailəsində gördüyü yüksək mənəvi-əxlaqi dəyərlər Aidanın xarakterinə, ruhuna hopmuşdu. Hələ məktəb illərindən mədəniyyəti, çalışqanlığı, zəhməti, savadı ilə bütün müəllimlərin sevimlisinə çevrilmişdi. O, gecəsini gündüzünə qataraq dərslərinə ciddi yanaşır, səylə çalışır, bütün fənləri əla oxuyurdu. Bu zəhməti, əziyyəti isə hədər getmir. 1957-ci ildə təhsil aldığı 132 saylı orta məktəbi qızıl medalla başa vurur. Elə həmin il Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində yenicə yaranmış ərəb filologiyası bölməsinə daxil olur.

Aida İmanquliyeva tələbəlik illərində də eyni əzmlə, həvəslə çalışaraq təhsili, intellekti, nizam-intizamı ilə müəllimlərinin dərin rəğbətini qazanır. Fitri istedadı, dərin zəkası, geniş dünyagörüşü, iti məntiqi təfəkkürü ilə seçilən Aida xanım müasir Azərbaycan ərəbşünaslığının banisi professor Ələsgər Məmmədovdan dərs alaraq ərəb dilini mükəmməl öyrənir. Gənc Aidanın elmi tədqiqata həvəsi də tələbəlik illərindən ətrafdakıların diqqətini çəkir.

Aida İmanquliyeva 1962-ci ildə ADU-nun Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsini fərqlənmə diplomu ilə bitirib, filoloq-ərəbşünas ixtisasına yiyələnir və ömrünü elmə bağlamaq niyyətini özü üçün tam yəqinləşdirir. Elə həmin il imtahanları müvəffəqiyyətlə verərək universitetin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspiranturasına daxil olur.

O zaman ərəb filologiyası sahəsində boşluq, mütəxəssis qıtlığı vardı. Ərəb şöbəsinin ilk buraxılışlarının tələbələri elm və təhsilimizdəki bu boşluğu dolduran ilklər olur. İlk buraxılışların məzunlarından olan Malik Mahmudov ərəbdilli Azərbaycan ədəbiyyatını, Zakir Məmmədov ərəbdilli Azərbaycan fəlsəfəsi tarixini öyrənməyə başladı, Vasim Məmmədəliyev ərəb dilçiliyi səmtini tutdu, Aida İmanquliyeva isə müasir ərəb ədəbiyyatının araşdırıcısına çevrildi. Və bu gənc alimlərin hər biri öz məktəbini formalaşdırdı...

Aida xanım az sonra Moskvaya ezam olunaraq təhsilini SSRİ Elmlər Akademiyasının Asiya Xalqları İnstitutunun aspiranturasında davam etdirir. O, aspiranturada tədqiqat obyekti kimi ərəb məhcər (mühacirət) ədəbiyyatını seçir. 1964-cü ildə “Azərbaycan” jurnalında “Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı” adlı ilk məqaləsi dərc olunur. Sonradan məqalələri tək Bakıda yox, digər şəhərlərdə də çap edilir.

Gərgin zəhməti sayəsində elmi tədqiqatlarını qısa müddətdə yekunlaşdıran Aida İmanquliyeva 1966-cı ilin martında hər iki elmi rəhbərinin - Rüstəm Əliyevin və İosif Braginskinin xeyir-duası ilə namizədlik dissertasiyasını uğurla müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi alır.

Elmi titulla Bakıya qayıdan alim Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda fəaliyyətə başlayır. Aida İmanquliyevanın gələcək həyatı məhz bu elm məbədi ilə bağlı olur. Enişli-yoxuşlu elm yolunda pillə-pillə irəliləyən alim əvvəlcə kiçik elmi işçi kimi fəaliyyətə başlayır, sonra baş elmi işçi vəzifəsində çalışır. 1976-cı ildə isə Yaxın və Orta Şərq Xalqları İnstitutunda Ərəb filologiyası şöbəsinə müdir təyin olunur. Bu şöbə institutdakı şöbələrin ən gənci idi. 1976-cı ildə yaradılmışdı və ilk müdiri də Aida İmanquliyeva seçilmişdi. Özü də cəmi 27 yaşında... Məhz həmin şöbənin iş ritmi, yaş həddi, elmi yanaşma üsullarının müasirliyi sonralar həm bu institutda, həm də bütövlükdə Azərbaycanda şərqşünaslığın inkişafına yeni bir impuls verdi. Bunun da səbəbkarı Aida İmanquliyeva oldu.

Şərqşünaslıq İnstitutunun elmi, ictimai-siyasi həyatında yaxından iştirak edən Aida İmanquliyeva işgüzar fəaliyyətinə görə 1988-ci ildə institutun elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin olunur. Bir il sonra, 1989-cu ildə Tbilisidə uzun illər üzərində işlədiyi doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək filologiya elmləri doktoru adına layiq görülür. Beləliklə də Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru, ilk qadın professor kimi adını tarixə yazdırır. O, 1991-ci ilin avqustundan Şərqşünaslıq İnstitutunda direktor vəzifəsini icra etməyə başlayır, həmin ilin dekabrında isə direktor vəzifəsinə təyin olunur. Və Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru olur.

## Öz tədris kursunu yaradan pedaqoq...

Aida İmanquliyeva fəal ərəbşünas-alim, elmi ictimaiyyətin hörmətini qazanmış nüfuzlu elm xadimi idi. İctimai işlərdə aktiv iştirak edən Aida xanım Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, habelə Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının, 1981-ci ildən həm də Azərbaycan Yazıçılar İttifaqının üzvü idi. Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən “Asiya və Afrika ölkələri xalqları ədəbiyyatı” ixtisası üzrə müdafiə şurasının üzvü, sədr müavini və sonradan sədri idi. O, üç monoqrafiyanın (“Mixail Nüayme və Qələm Assosiasiyası”, “Cübran Xəlil Cübran”, “Yeni ərəb ədəbiyyatının korifeyləri”), 70-dən çox elmi məqalənin müəllifi və Şərq ədəbiyyatı haqqında yazılmış bir çox məqalənin redaktoru olub. Azərbaycan şərqşünaslığını Moskva, Düşənbə, Tbilisi, Hamburq, Küveyt, Poltava, Sankt-Peterburq və digər şəhərlərdə keçirilmiş elmi konfranslarda, konqreslərdə və simpoziumlarda ən yüksək səviyyədə təmsil edib, məruzələr söyləyib.

Tanınmış alim elmi işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul idi. O, Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində ərəbşünas kadrların hazırlanması işinə böyük töhfə verib. 20 ildən artıq müddətdə ərəb ədəbiyyatından dərs deyib, mühazirələr oxuyub, xüsusi kurslar aparıb, dissertasiya və diplom işlərinə rəhbərlik edib. Onun bilavasitə rəhbərliyi altında Ərəb filologiyası şöbəsində güclü kadrlar hazırlanırdı. 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib, ərəb ədəbiyyatının, ərəb-Azərbaycan ədəbi əlaqələrinin müxtəlif sahələrini araşdıran monoqrafiyalar, kitablar yazılıb nəşr olunub. A.İmanquliyeva Azərbaycanda və bütün Sovet İttifaqında yeni ərəb ədəbiyyatı üzrə əsas tədris kursunu yaradanlardan biri sayılır. Uzun illər pedaqoji fəaliyyəti ilə seçilən alimə 1991-ci ilin mart ayında Ali Attestasiya Komissiyasının qərarı ilə “Xarici Asiya və Afrika xalqları ədəbiyyatı” ixtisası üzrə professor elmi dərəcəsi verilib.

## Ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açan alim

“Məhəbbət və gözəllik, ağıl və kamal elə mənəvi işıqdır ki, qəlbi nurlandırır” deyən Aida xanımın elmi yaradıcılığı çox zəngindir. O, 30 il Şərq mədəniyyətini, mənəvi dəyərlərini, ictimai-siyasi fikrini araşdırıb, yaradıcılığı ilə Azərbaycan şərqşünaslıq elminin inkişafı tarixində parlaq səhifə açıb. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaradır. Xalqın maariflənməsi, tərəqqiyə doğru irəliləməsi, milli yaddaşın qorunması kimi nəcib niyyətlər bu əsərlərdə özünü qabarıq göstərib. Elmi tədqiqatlarını əsl alim təəssübkeşliyi ilə aparan, ərəb filologiyası sahəsində özünəməxsus məktəb yaradan Aida İmanquliyeva ərəb ədəbiyyatının bir sıra korifeylərinin yaradıcılığını tamamilə yeni rakursdan araşdıraraq onları Azərbaycan ədəbi ictimaiyyətinə tanıdır. Bununla da Aida xanım ərəb və Azərbaycan ədəbiyyatları arasında sağlam körpü yaratmağa, ədəbi xəzinəmizi daha da zənginləşdirməyə çalışıb.

Aida İmanquliyeva Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsiri problemini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. O, öz əsərlərində daim Şərqlə Qərb dialoqunun əldə olunması üçün ortaq məqamların tapılmasına çalışır, Şərq mənəvi dəyərlərinin, müsəlman əxlaqının böyük təəssübkeşi olmaqla Qərb dəyərlərinə sivil münasibət, sivilizasiyalararası dialoq problemini də özünəməxsus tərzdə gündəmə gətirir, bu məsələnin elmi şərhinə zəhmət sərf edirdi. Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən alim hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi. Böyük intuisiyası, uzaqgörənliyi sayəsində hələ ötən əsrin 70-ci illərində bu gün üçün aktual olan sivilizasiyalararası dialoq multikulturalizm problemlərinə özünəməxsus tərzdə yanaşaraq, bu problemin fəlsəfi mahiyyətini açıqlamağa çalışıb. Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması kimi məsələləri tədqiq edən fədakar alim elmi araşdırmaları ilə təkcə Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da böyük şöhrət qazanıb.

Görkəmli alim Şərq filologiyasının müxtəlif aspektləri üzrə apardığı tədqiqatlarla, yaratdığı fundamental əsərlərlə müasir elm tariximizə yeniliklər gətirib, ərəb ədəbiyyatının tədqiqində tamamilə yeni səhifə açıb. Aida xanım təkcə Azərbaycan və keçmiş sovet şərqşünaslığının deyil, bütövlükdə dünya şərqşünaslığının inkişafına misilsiz töhfələr verib. Geniş coğrafi arealda - Rusiyada, Ukraynada, Almaniyada, İngiltərədə, Fransada, Özbəkistanda, Gürcüstanda, eləcə də bir sıra ərəb ölkələrində yaxşı tanınan, əsərlərinə tez-tez istinad edilən görkəmli alim müasir ərəb ədəbiyyatının sanballı tədqiqatçılarından biri kimi şərqşünaslıq tarixində əbədi iz qoyub.

Aida İmanquliyevanın kitabları bu gün təkcə azərbaycanlı deyil, əcnəbi tədqiqatçılar üçün də əhəmiyyətli mənbə rolunu oynayır, müxtəlif ölkələrdə bu əsərlərə istinad olunur. Alimin bir çox xarici dillərə tərcümə edilmiş “Yeni ərəb ədəbiyyatı korifeyləri” kitabı onun çoxillik gərgin araşdırmalarının yekunu olmaqla ərəb məhcər ədəbiyyatı haqqında yazılmış ən sanballı tədqiqat əsəridir. Kitab ərəb dilinə tərcümə edildikdən sonra ərəb alimləri arasında geniş maraq doğurub, mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdir. Aida xanım ərəb-məhcər ədəbiyyatı ilə yanaşı, Azərbaycan-ərəb, rus-ərəb və Qərb-ərəb ədəbi əlaqələri problemləri istiqamətində də sanballı elmi əsərlər yazıb. Onun əsərləri həm ölkə daxilində, həm keçmiş SSRİ məkanında, həm də xaricdə çap olunan sanballı beynəlxalq jurnallarda nəşr edilib.

Hər bir alimi tanıdan, məşhurlaşdıran əsas keyfiyyətlərdən biri də onun publisistik qələmi, kəsərli sözüdür. Aida xanım İmanquliyeva istedadlı qələm sahibi kimi özünü tərcümə sahəsində də sınayıb, ərəb ədəbiyyatının bir sıra şedevrlərini ana dilimizə məharətlə tərcümə edib. Mixail Nüaymənin “Buz əriyəcək”, “İnsan və quş”, “Qu-qu” saatı”, Mahmud əz-Zahirin “Üsyan”, Məhəmməd Dibin “Xasın dərmək”, Sahib Camalın “Yusif”, Süheyl İdrisin “Azadlıq” və Qənəma Məcid Zeyyibin “Növbəyə dayanmaq” hekayələrini tərcümə etməsi deməyə əsas verir ki, görkəmli alim Azərbaycan ədəbi dilinin incəliklərinə son dərəcə bələd olmuş, tərcümələrində yüksək poetik ruhu, orijinal dəstxəti, məna və məzmunu qoruyub saxlaya bilmişdir.

Aida xanımın əsas araşdırmaları ərəb ədəbiyyatının yeni mərhələyə qədəm qoymasında böyük xidmətləri olmuş Əmin ər-Reyhaninin, Cübran Xəlil Cübranın, Mixail Nüaymənin yaradıcılığına həsr edilmişdi. O, adıçəkilən mütəfəkkirlərin yaradıcılığı barədə keçmiş ittifaq məkanında tədqiqat aparan ilk alimlərdən idi.

## Gözəl xanım, kövrək insan, qayğıkeş ana

Görkəmli alimin fəaliyyət istiqamətlərindən ön plana çıxan mühüm mövzulardan biri də qadın məsələlərinə həssaslıqla yanaşılması, bu mövzuya geniş yer verilməsidir. Araşdırdığı ərəb mütəfəkkirlərinin əsərlərində Şərq qadınının cəmiyyətdəki rolu, islam dinində qadın məsələləri kimi mühüm mövzular öz əksini tapıb. Aida xanım qadın hüququ, qadın azadlığı, cəmiyyətdə kişi-qadın münasibətləri - ümumilikdə gender faktoruna Şərq-Qərb mətnində paralellər aparmaqla, qadını mənəvi-ideoloji buxovlardan azad edə biləcək məqamları C.X.Cübran və Əmin-ər-Reyhani motivasiyasında təsvir edirdi. O, araşdırıb təhlil etdiyi əsərlərdə qadın düşüncəsini, qadın hüquqlarını ön plana çəkirdi.

Bu da təsadüfi deyildi. Çünki gözünü açdığı, böyüdüyü mühitdə də, gəlin köçdüyü ailədə də qadına sevgi, hörmət, dəyər vermək ən vacib məsələlərdən idi. Aida xanım da hər şeydən öncə həm də bir qadın idi. Sevilən, sevən, xoşbəxt bir qadın... Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətləri özündə təcəssüm etdirən qadın...

“Ailə ənənələrimizdə, yəqin ki, ən ümdə məsələ qadına olan münasibətdir. Təkcə qadını sevmək və ona dəyər vermək deyil, həm də onu qorumaq bacarığıdır. Həyat yoldaşım çox gözəl qadın idi. Çox erkən, gənc yaşında həyatdan köçdü. Onu qorumaq üçün əlimdən gələni etdim, ancaq bədbəxtlik heç gözləmədiyimiz bir anda bizi haqladı. İllər keçdikcə, əlbəttə, ağrı azaldı. Amma acısı, göynərtisi hələ də ürəyimdədir. Onun xatirəsi hər vaxt bizimlədir - mənimlə və qızlarımla...” - Akademik Arif Paşayev ömür-gün yoldaşını belə xatırlayır...

Aida İmanquliyeva onu tanıyanların yaddaşında yalnız yüksək intellekt sahibi olan insan, dərin bilikli, istedadlı alim kimi yox, həm də gözəl simalı xanım kimi qalıb. O, Şərq xanımlarına məxsus təbii bir gözəlliyə malik idi. Və bu gözəllik onun ürəyindən, xasiyyətindən gəlirdi. Aida xanım çox zərif, kövrək insan, həddindən artıq nəvazişkar və diqqətli bir xanım kimi hər kəs tərəfindən sevilirdi. O, yaxınlarından tez-tez xəbər tutan, onların işi ilə maraqlanan, çətinliklərini həll etməyə çalışan dost idi. Köməyə ehtiyacı olan hər kəsə yardım əlini uzadırdı.

Gündəlik gərgin iş rejimi Aida xanımı analıqdan və xanımlıqdan məhrum edə bilməmişdi. O, ailəsini, həyat yoldaşını çox sevən gözəl qadın, qayğıkeş bir ana idi. Ömür-gün yoldaşı Arif Paşayev fizika sahəsində görkəmli alim və Milli Aviasiya Akademiyasının rektorudur. Ailədə iki qız övladı böyüyüb. Aida xanım həyat yoldaşı Arif Paşayevlə birgə sevimli qızları Nərgiz və Mehribanın təlim-tərbiyəsi ilə çox ciddi məşğul olardı. Elmi-inzibati işlərlə həddindən çox yüklənməsinə baxmayaraq, sevimli nəvələrini bir an unutmaz, onların qayğısını çəkərdi. Ailənin böyük qızı - Nərgiz Paşayeva da həyatını elmə həsr edib. O, akademik, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir.

Ailənin ikinci qızı - Mehriban xanım Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiridir.

## Mehriban ƏLİYEVA: “Anamın yoxluğunu hər zaman hiss edirəm”

Mehriban xanım bir çox müsahibələrində anasını xatırlayaraq onun portretinin müəyyən çalarlarını çəkib:

- Mən ənənəvi dəyərlərin əsas götürüldüyü Azərbaycanın ziyalı ailəsində dünyaya göz açıb, boya-başa çatmışam. Bizi, gənc nəsli böyüklərin nüfuzunun və davranışının ən yaxşı nümunə olduğu, ailənin hər bir kiçik üzvünə üzərinə düşən məsuliyyəti daşımağın öyrədildiyi böyük və möhkəm ailədəki ab-hava formalaşdırıb. Yaşa dolduqca böyükləri, valideynləri anlamağa başladım, onlara sonsuz minnətdarlıq hissi duydum. Çünki onlar həqiqətə və mənəviyyata can atmağı öyrətdilər. Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur. Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam Azərbaycanda ilk qadın professor, şərqşünaslıq üzrə elmlər doktoru idi. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi...

O, hədsiz dərəcədə mehriban və kifayət qədər qapalı qadın idi. Görünür, o məndə yüksək məsuliyyət hissini formalaşdırmağı bacarıb... Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirmişdi. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi.

Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamız müsəlman ölkələri, islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın məktəbinin yetirmələrini, onun davamçılarını görürük. Ona görə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir.

Təəssüf ki, Aida xanım həyatdan çox tez, 53 yaşına çatmadan köçdü. Altı ay ərzində gözümün qabağında, qollarım üstündə bu insanı itirdim. Yəqin ki, əsas göz yaşlarımı o vaxt axıtmışam... Onun yoxluğunu hər zaman hiss edirəm... Zərif və şəfqət dolu qəlbi olan bu xanım-alim ətrafındakı insanların problemləri ilə maraqlanır, hamıya qayğı və nəvazişlə yanaşırdı. Çoxşaxəli yaradıcılıq və ictimai fəaliyyətinə baxmayaraq, Aida xanım Şərq qadınına xas olan incə ruhunu qoruyub saxlayan çox gözəl həyat yoldaşı, mehriban ana, qayğıkeş nənə, əsl aristokrat qadın idi. Bu gün onun həyatını övladları və nəvələri davam etdirir, xatirəsi isə elmi əsərlərində yaşayır.

## Nərgiz PAŞAYEVA: “O, bizim ailəmizin və başımızın tacı olub”

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Nərgiz Paşayeva da anasını nadir, parlaq və gözəl insan kimi yad edir:

- Elə insanlar olur ki, onların ömrü qısa olsa da, qurtarsa da, həyatı davam edir. Biz onları görmürük, səsini eşitmirik, amma qəlbimiz onlarla danışır. Gözlərimiz onları görmür, amma onların siması, cizgiləri, surəti daim canımızda, qanımızda, ürəyimizdədir və o surət bizi heç vaxt tərk etmir...

Adətən, insan həyatdan köçdükdə yerdə qalanlar onun gözlərini bağlayırlar. Ancaq sirr ondadır ki, qalanların, dirilərin gözünü çox vaxt həyata həyatdan köçənlər açır. Çünki çaları, səmti, yolu, istiqaməti, rəngi dəyişə bilən ömrün yolları insanı həm ucalda bilər, həm də kiçildə bilər. Əlbəttə, ucalan insanlar ətraflarına, qohumlarına, valideynlərinə, müəllimlərinə həmişə şərəf hissi gətirirlər. Amma gəlin onu da etiraf edək ki, ucalan yolla gedən hər kəs bu ucalığa yazılmış və yazılmamış qanunları pozmadan nail olmaq hünərinə malik olmur. Aida xanım məhz belə hünərə malik insanlardan biri idi. Onun ucalığı heç kəsin kiçilməsi demək deyildi. Onun parlaqlığı heç kəsi zülmətə qərq etmək vadarlığına gətirib çıxarmırdı. O, sözün əsl mənasında nadir və parlaq insan idi. Çünki onun zahiri gözəlliyi müqabilində çox zəngin daxili aləmi var idi. Həmin o zahiri gözəllik daxili gözəlliklə bir harmoniyada idi. Bu insan doğrudan da mükəmməl əqidəyə, möhkəm prinsiplərə malik bir insan idi. O doğrudan da göründüyü qədər təbiətən gözəl idi. O, göründüyü kimi olmağı bacaran və olduğu kimi görünməyi bacaran insanlardan idi. Əfsuslar olsun ki, ömür vəfa etmədi və o, indi aramızda yoxdur. Əlbəttə, o, bizim ailəmizin və başımızın tacı olub. O, bizim ürəyimizin məlhəmi olub. Onun yoxluğu zaman kəsiyində həsrəti azaltmayıb. Çünki Anaya olan həsrəti heç bir zaman azalda bilməz. Yaxşı dosta olan həsrəti heç bir uzun zaman azalda bilməz. Sevimli insana olan həsrəti ən böyük zaman da azalda bilməz.

## Yarıda qırılan ömür...

Aida İmanquliyeva ömrünün ən xoşbəxt çağında, elmi fəaliyyətinin ən məhsuldar dövründə, nəvələrinin böyüməsinə şahid olmadan həyatla vidalaşmalı olur. Xəstəlik onu qəfil yaxalayır. 1992-ci il sentyabrın 19-da doğum gününə az qalmış, 53 yaşı tamam olmadan bu dünyadan köçür...

Ömür vəfa etsəydi, qarşıda görəcəyi xeyli işlər, araşdıracağı mövzular, yetişdirəcəyi tələbələr, hələ neçə-neçə “ilk”lər vardı. Tale aman versəydi, bu gün 80 yaşını qeyd edəcəkdi. Görünür ömür payı elə bu qədərmiş. Tale hər şeydə üzünə gülsə də, illərdə xəsislik edib, yaşını az yazıbmış...

Lakin əsas uzun və mənasız deyil, qısa və mənalı, məzmunlu, faydalı həyat yaşamaqdı. Bax, bu isə hər kəsə qismət olmur...

Deyirlər, insan yalnız bu həyatdakı əməlləri, xeyirxahlığı, gördüyü savab işlərlə əbədiyaşar olur. Yaddaşlara qazınır, hafizələrdə iz buraxır, adını tarixə qızıl hərflərlə yazdırır. Aida İmanquliyeva məhz belə insanlardandır. O, qısa ömür yaşasa da, təvazökar həyat tərzinə, zəngin elmi yaradıcılığına, insanlığına görə sözün əsl mənasında fərqlənməyi, sevilməyi, həyatda, tarixdə iz qoymağı bacardı.

*Həyat yolu yarıda qırılsa da, elmdə özündən sonra da davam edən bir yol yaratmağa nail oldu. Övladlarının qürur duyulası fəaliyyəti, yetirdiyi alimlərin uğurları, tarixdə qalacaq əsərləri isə Aida xanımın yarımçıq qırılmış ömrünün davamı, yaşaya bilmədiyi illərin təsəllisidir.*

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Görkəmli şərqşünas alim Aida İmanquliyevanın 80 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib

*Əvvəli 6-cı səh.*



Akademik G.Baxşəliyeva vurğulayıb ki, professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elmini dəfələrlə respublika hüdudlarından uzaqlarda (Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s.) ləyaqətlə təmsil edib. Görkəmli alim elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlayıb. Təsadüfi deyil ki, institutun Ərəb filologiyası şöbəsinə başçılıq etdiyi qısa müddət ərzində onun bilavasitə səyləri ilə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilib.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü olub. O, uzun illər pedaqoji fəaliyyətlə də səmərəli məşğul olub, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Gövhər Baxşəliyeva deyib: "Aida xanımla 15 il birgə çalışan bir insan kimi bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Ulu Tanrı Aida xanıma yüksək şəxsi və intellektual keyfiyyətlərlə yanaşı, qibtədoğuran zahiri gözəllik də bəxş etmişdi. Görkəmli şərqşünas alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın yubileyinə AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun kollektivi böyük həvəslə və ciddi hazırlaşıb. Alimin əziz xatirəsinə ithaf edilən və vaxtilə yazdığı geniş "Ön söz"lə çap olunan "Ağ günlərin sorağında (İraq ədəbiyyatından seçmələr)" adlı kitabın II nəşri ictimaiyyətə təqdim edilib. Eləcə də institutun dövrü nəşri - "Azərbaycan şərqşünaslığı" dərgisinin növbəti nömrəsi bütövlüklə professor Aida İmanquliyevanın zəngin həyat və yaradıcılığına həsr olunan məqalələri ehtiva edir. Təəssüf doğuran bircə odur ki, o özü bugünlərdə bizimlə deyil, ona həsr edilən tədbirlərimizdə iştirak etmir, gördüyümüz işi dəyərləndirə bilmir. Çox təəssüf... Onun yoxluğunun acısını biz bu gün də yaşayır, hiss edirik, vaxtsız itkisi ilə barışa bilmirik. Təsəllimiz bircə ondadır ki, onun ruhu bu gün bizimlədir, əsərlərində, ailəsində, övladlarında və davamçılarında yaşayır!"

Konfransda professor Vilayət Cəfərovun "Görkəmli şərqşünas alim, professor Aida İmanquliyeva İraq ədəbiyyatı haqqında", dosent Fatma Məcidovanın "Azərbaycanda ərəb məhcər ədəbiyyatının ilk tədqiqatçısı" mövzularında məruzələri dinlənilib.

Çıxış edənlər Aida İmanquliyevanın bir alim kimi dünya şərqşünaslıq elminə böyük töhfələr verdiyini diqqətə çatdırıblar. Qeyd olunub ki, Aida İmanquliyeva ömrünü xalqının tarixinin, adət-ənənələrinin dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edib, görkəmli alim kimi yadda qalıb. O, müasir ərəb ədəbiyyatının tədqiqində yeni səhifə açıb, yeni məktəbin əsasını qoyub. Aida xanım dünyada tanınan böyük alim, fəal ictimai xadim idi. Ərəb mühacirət ədəbiyyatının tədqiqi onun adı ilə bağlıdır. Alimin bununla bağlı əsərləri dərin məzmunu, aktuallığı və əhəmiyyətinə görə daim diqqəti cəlb edir.

Xalq şairi Nəriman Həsənzadə Aida İmanquliyeva və alimin ailəsi ilə bağlı xatirələrini bölüşüb, Şərqşünaslıq İnstitutunun əməkdaşı Bəşarət Bəşirova uzun illər Aida xanımla birgə çalışdığını söyləyib və görkəmli alimə həsr etdiyi şeirini səsləndirib.

Konfransda professor Aida İmanquliyeva və Azərbaycan klassik ədəbiyyatı, alimin tədqiqatlarında mədəni yaxınlıq və mədəni sintez problemi, yaradıcılığında "Qələmlər Birliyi Cəmiyyəti"nin fəaliyyəti mövzularında məruzələr dinlənilib.

# Dağlıq Qarabağın azərbaycanlı icması Şuşadakı məscidin ermənilər tərəfindən "təmir-bərpası"nı pisləyən bəyanat yayıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Şuşadakı Yuxarı Gövhər ağa məscidinin ermənilər tərəfindən "təmir-bərpası" ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda işğal olunmuş Azərbaycan torpaqlarında xalqımıza məxsus mədəni, tarixi və dini irsi məhv edən Ermənistanın Şuşada Yuxarı Gövhər ağa məscidinin "təmir-bərpa"sından sonra təxribat xarakterli "açılışı"na hazırlaşdığı bildirilir. Qeyd edilir ki, bu, işğalçı Ermənistanın və onun əlaltısı olan cinayətkar rejimin işğal olunmuş ərazilərimizdə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin daha bir bariz nümunəsidir.

Bəyanatda deyilir: "Məlum olduğu kimi, Qarabağ xanı İbrahim xanın qızı Gövhər Ağanın (Gövhərnisə bəyim) adını daşıyan Yuxarı Gövhər ağa məscidi Gövhərnisənin maddi dəstəyi ilə qoşa minarəli formada atası İbrahim xanın yararsız hala düşmüş məscidinin yerində şuşalı memar Səfixan Qarabaği tərəfindən 1883-cü ildə inşa edilib.

Məscidin "təmir"dən sonra "açılış"ı Ermənistanın beynəlxalq ictimaiyyəti aldatmaq üçün planlaşdırdığı növbəti ucuz bir şoudur. Ermənistan bununla dünyada özünü tarixi abidələrə "qayğı" ilə yanaşan bir ölkə imicində təqdim etməyə çalışır. Ermənistan həqiqətən tarixi abidələrə bu qədər hörmətlə yanaşırsa, onların bərpasında maraqlıdırsa, onda nəyə görə xalqımıza məxsus yüzlərlə mədəni, tarixi dini abidələri məhv edir? Şuşada vaxtilə mövcud olmuş digər məscidlərin, kilsələrin və digər abidələrin izləri nəyə görə erməni vandalları tərəfindən yer üzündən silinməkdədir? Şuşanın əzəli yerli sakinləri olan azərbaycanlılar oradan qovulduqları halda, Yuxarı Gövhər ağa məscidindən kimlər istifadə edəcək?

Bizi ağrıdan həm də odur ki, erməni qəsbkarları xalqımızın bu memarlıq incisinin arxitekturasını dəyişərək məscidi "fars məscidi" kimi qələmə verməyə çalışırlar. Bu, bir daha Ermənistanın işğal olunmuş ərazilərdə azərbaycanlılara məxsus mədəni irsin oğurlanması, izinin itirilməsi və silinməsi ilə məşğul olduğunu göstərir. Yuxarı Gövhər ağa məscidini "fars məscidi" elan etməklə Ermənistan tarixi saxtalaşdırır, onu yenidən yazmağa çalışır. Bu, həm də bir daha Ermənistanın saxta tolerant ölkə olduğunu göstərir.

Mətbuatda yer alan məlumata görə, Yuxarı Gövhər ağa məscidinin "təmir-bərpa" işləri İranın "Part Saman Cahan" şirkəti tərəfindən aparılır. Bu, biz məcburi köçkünləri məyus edir. Biz bunu Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasına və ümumən Azərbaycan xalqına qarşı sayğısızlıq kimi dəyərləndiririk. Biz, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması bəyan edirik ki, öz yurdumuza qayıtdıqdan sonra görəcəyimiz ən birinci iş məhz mədəni, tarixi və dini abidələrimizi bərpa etmək olacaq. Həmin günün uzaqda olmadığına əminik.

Münaqişənin yeganə həlli yolu Ermənistanın işğalçı qoşunlarının torpaqlarımızdan çıxarılması, oradan qovulmuş azərbaycanlıların geri qayıtması, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hər iki icmasının birlikdə sülh şəraitində yaşaması ilə mümkündür.

# *Leyla ABDULLAYEVA:* "Ermənistanın guya ki, dini dəyərlərə göstərdiyi hörməti nümayiş etdirmək cəhdi riyakarlıqdır"

Erməni KİV-də Şuşadakı Yuxarı Gövhərağa məscidində təmir işlərinin yekunlaşacağı ilə bağlı məlumat yayılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan tərəfinin Azərbaycanın işğal olunmuş ərazilərindəki bu fəaliyyətinə dair KİV-ə açıqlama verib. Açıqlamada deyilir: "Bu xüsusda vurğulamaq istərdim ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrində ölkəmizin tarixi və mədəni irsinin işğalçı Ermənistan tərəfindən məhv edilməsi ilə bağlı konkret faktlara əsaslanan hesabatlar bu günədək UNESKO başda olmaqla, əsas beynəlxalq təşkilatlara, həmçinin BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, ISESCO-ya təqdim edilib. Məlum olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində islam dininə aid tarixi və mədəni irsin və məbədlərin dağıdılması və təhqir edilməsi barəsində mütəmadi əsasda qətnamələr qəbul edilir. Sonuncu belə bir qətnamə 2019-cu ildə İƏT Xarici İşlər nazirlərinin Əbu-Dabi şəhərində keçirilən 46-cı iclası nəticəsində qəbul olunub.

Azərbaycanın Şuşa şəhərində Qarabağ hökmdarı İbrahim xanın qızı Gövhərağanın sifarişi ilə 19-cu əsrdə tikilmiş Yuxarı Gövhərağa (Cümə) məscidinin Ermənistan tərəfindən "təmir olunması" bu işğalçı ölkənin Azərbaycan ərazilərindəki maddi-mədəniyyət və dini abidələrin mənimsənilməsi və onların mənşəyinin dəyişdirilməsi siyasətinin bir hissəsidir. Belə ki, Gövhərağa məscidini "bərpa" edərək fars məscidi kimi qələmə verməyə çalışan işğalçı tərəfin əsas məqsədi Şuşanın əzəli Azərbaycan şəhəri olması faktının üzərinə kölgə salmaq niyyətidir.

Azərbaycanın işğal olunmuş torpaqlarında tam etnik təmizləməni həyata keçirərək yerli müsəlman azərbaycanlıları öz doğma evlərindən, mülklərindən didərgin salan təcavüzkar Ermənistanın Şuşada guya ki, dini dəyərlərə göstərdiyi hörməti nümayiş etdirmək cəhdi riyakarlıqdan başqa bir şey deyildir. Dini və dünyəvi dəyərlərə, hörmət edən tərəf özünün viran etdiyi dini yerləri sonradan bərpa edirmiş kimi tarixi saxtalaşdırmaqla məşğul olmaz.

# Seçki prosesinin təkmilləşdirilməsində maarifləndirmə tədbirlərinin əhəmiyyəti

Xalqımız ictimai-siyasi həyatda özünəməxsus yeri olan bələdiyyə seçkiləri ərəfəsindədir. Azərbaycan Respublikası Konstitusiyasının 142-ci maddəsinə əsasən bələdiyyələr seçkilər əsasında yaradılır. Yerli özünüidarəetmə orqanlarının yenidən formalaşmasında mühüm yer tutan növbəti bələdiyyə seçkilərinin də demokratik, azad, ədalətli, şəffaf və beynəlxalq standartlara uyğun keçiriləcəyi birmənalıdır.

İlk növbədə ona görə ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra ötən qısa zamanda seçki sistemi təkmilləşdirilib, mükəmməl hüquqi baza yaradılıb, seçkilər sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq daha da genişlənib və seçkilərin hazırlanıb keçirilməsi sahəsində xeyli müsbət təcrübə əldə olunub. Eyni zamanda bu illər ərzində insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli təmin olunması və qorunması mexanizmləri təkmilləşdirilib, bu sahədə inkişaf etmiş Avropa dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq xeyli dərinləşib.

Məlumdur ki, müasir dünyada insan və vətəndaşın çox mühüm konstitusion hüquqlarından biri kimi məhz seçki hüququ qəbul edilir. Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində təsbit olunan həmin normaya əsasən, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ vardır. Bu hüquqlar bilavasitə seçki subyektlərinin özləri tərəfindən (seçicilər, namizədlər, qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları və referendum üzrə təşviqat qrupları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiya bloklarının və referendum üzrə təşviqat qruplarının vəkil edilmiş şəxsləri, müşahidəçilər, habelə seçki komissiyaları və s.) qanunvericiliyin verdiyi imkanlar çərçivəsində reallaşdırılır.

İnsan və vətəndaşın hüquq və azadlıqlarının yüksək səviyyədə təmin olunması və onun daha sivil həyata keçirilməsi vasitələrindən olan seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsi bir sıra amillərlə, o cümlədən də ictimai-siyasi sabitliyin, seçkilər sahəsində fəaliyyət göstərən peşəkar kadr potensialının mövcud olması, maddi-texniki təchizatın yüksək səviyyəsi, eyni zamanda mükəmməl qanunvericilik bazasının və icra mexanizmlərinin yaradılması ilə bağlıdır. Bu baxımdan qısa zaman kəsiyində respublikamızda sanballı nəticələrə imza atılıb, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində bir sıra təqdirəlayiq dövlət proqramları hazırlanıb həyata keçirilib. Sözügedən proqramlardan biri kimi seçki subyektlərinin maarifləndirilməsi həm əhatə dairəsi, həm də əhəmiyyətliliyi nöqteyi-nəzərindən olduqca faydalıdır.

Beş milyondan artıq daimi seçicinin, çoxsaylı namizəd və onların təmsilçilərinin, müşahidəçi və KİV nümayəndələrinin seçki prosesinə qoşulması təşkil olunan maarifləndirmə tədbirlərinin xarakter və əhəmiyyətini müəyyən etməyə kömək edir. Məhz buna görə də ölkədə seçkilərin hazırlanıb keçirilməsi səlahiyyətlərini həyata keçirən dövlət orqanı kimi Mərkəzi Seçki Komissiyasının (MSK) çoxşaxəli fəaliyyətində maarifləndirmə işinin təşkili mühüm yer tutur.

Bu baxımdan seçici siyahıları ilə iş diqqət mərkəzində dayanan ən önəmli məsələlərdən biridir. Seçici siyahıları çox mühüm seçki sənədidir, ilboyu fasiləsiz olaraq işlənilir, yenilənir və seçki komissiyaları tərəfindən ictimailəşdirilir. Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin texniki və proqram təminatı imkanları xeyli genişləndiyindən bütün sahələrdə, o cümlədən seçici siyahılarının keyfiyyətinin daha da yaxşılaşdırılmasında mühüm irəliləyişlər vardır.

Məlumat üçün qeyd edək ki, ölkə üzrə cari ilin yanvar ayından başlanan seçici siyahılarının dəqiqləşdirilməsi işi artıq may ayında başa çatıb, qanunvericiliyin tələbinə uyğun olaraq səsvermə gününə azı 25 gün qalmış isə dəqiqləşdiriləcəkdir.



2005-ci ildən etibarən seçicilərin tanış olması məqsədilə siyahıların MSK-nın internet səhifəsində yerləşdirilməsi praktikası hazırda da davam etdirilir. Hər bir seçici bu səhifədə öz adının olub-olmadığını yoxlaya və özü haqqında olan məlumatları (adı, soyadı, atasının adı, təvəllüdü, səs verdiyi məntəqə və dairə) dəqiqləşdirib, səs verəcəyi məntəqənin yerləşdiyi ünvan, sözügedən ərazinin xəritəsi, həmin ünvan istiqamətində hərəkət edən nəqliyyat marşrutları və s. barədə lazımi məlumatlar əldə edə bilir. Seçicilər hər hansı məlumatın əldə edilməsi, eləcə də özləri barədə məlumatların yoxlanılması və aşkar etdikləri yanlışlıqları MSK-da təşkil olunan qaynar xətt vasitəsilə, yaxud internet səhifəsindəki onlayn ərizə formasını doldurmaqla aradan qaldırır.

Seçici siyahılarının dəqiqləşdirilməsi və seçki komissiyaları ilə əlaqə baxımından MSK-nın 115 nömrəli elektron qaynar xəttinin əhəmiyyəti olduqca böyükdür və daim seçicilərin istifadəsindədir. Yüksək texnologiyalar və innovasiyalardan istifadə də qanunvericiliyin verdiyi imkanlar daxilində seçicilərin və digər seçki subyektlərinin maarifləndirilməsi işinin durmadan təkmilləşdirilməsinə yardım edir.

Seçki subyektləri MSK-nın internet səhifəsində (www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az) seçkilərlə bağlı bütün məlumatları asanlıqla əldə edə bilirlər. Seçicilərin və digər seçki prosesi iştirakçılarının etibarlı məlumat qaynağına çevrilən bu mənbədə Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, MSK tərəfindən qəbul edilən bütün təlimat, qayda, izah və qərarlar (Komissiyanın iclaslarından dərhal sonra səhifədə yerləşdirilməklə), MSK-nın fəaliyyət hesabatları, seçki dairələrinin və seçki məntəqələrinin dislokasiyaları, ünvan və xəritələri, əlaqə məlumatları, seçicilərin siyahısı, seçicilərin axtarış sistemi, nəqliyyat marşrutu, seçki komissiyalarının tərkibi, daxil olmuş şikayət və müraciətlərə dair ekspert qrupu üzvləri tərəfindən verilmiş rəylər, referendum üzrə təşviqat qrupları barədə, seçkiqabağı (referendumqabağı) təşviqatla əlaqədar, ümumiyyətlə, MSK-nın fəaliyyəti ilə bağlı bütün məlumatlar əks olunur. Bundan başqa, MSK tərəfindən seçicilərə göstərilən 10 istiqamət üzrə elektron xidmətlər komissiyanın internet səhifəsi ilə seçicilərin və digər maraqlanan şəxslərin istifadəsinə verilir.

Məlumat üçün bildirək ki, hər il vahid seçici siyahısı dəqiqləşdirildikdən sonra MSK nəzdində fəaliyyət göstərən və mütəxəssislərdən ibarət olan seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya iki aydan gec olmayaraq iclas keçirir, seçki dairələrinin yaradılması sxeminə, onun qrafik təsvirinə və seçki dairələrinin hüdudlarına dair təkliflər verir. Həmin təkliflər MSK-nın iclasında müzakirə edilərək müvafiq qərarlar qəbul olunur və bunun da nəticəsində seçki dairələrinin adları, ünvanları və hüdudları, o cümlədən seçki məntəqələrinin sayı, dislokasiyaları dəqiqləşdirilir və qanunvericiliyin tələblərinə uyğunlaşdırılır. Bu proses də ictimailəşdirilir və seçki subyektlərinin daha məlumatlı olmasına yardım edir.

Normativ xarakterli aktların hazırlanması və yayılması sahəsində həyata keçirilən tədbirlər MSK-nın maarifləndirmə proqramının ayrılmaz hissəsini təşkil etməklə seçki subyektlərinin hüquqi biliklərinin artırılmasında mühüm rol oynayır. Təlimat, qayda və izahlar formasında qəbul edilən həmin aktlar bilavasitə seçki qanunvericiliyinin təkmilləşdirilməsi, seçki subyektlərinin hüquqi biliklərinin artırılması, bir sözlə, hüquq maarifçiliyi məqsədlərinə xidmət edir.

Seçkilərin təyin edilməsindən dərhal sonra MSK tərəfindən seçkilərin hazırlanıb keçirilməsi ilə əlaqədar nəzərdə tutulan əsas addımların əks olunduğu Təqvim planı hazırlanıb təsdiq edilir. Seçkilərin hazırlanıb keçirilməsi üzrə seçki qanunvericiliyində nəzərdə tutulmuş əsas hərəkət və tədbirlərin ardıcıllığını, müddətləri və subyektlərin əhatə dairəsini müəyyən edən bu sənəd 2 dildə (Azərbaycan və ingilis dillərində) çap olunur və komissiyanın rəsmi internet səhifəsində yerləşdirilir.

MSK ölkədə keçirilən hər bir seçki (referendum) üçün normativ-hüquqi sənədlərdən ibarət toplular hazırlayaraq onun çap olunması və aşağı seçki komissiyası üzvləri arasında paylanması işini uğurla təşkil edir. Ənənəyə sadiq qalaraq əvvəlki seçkilərdə olduğu kimi, hazırkı bələdiyyə seçkiləri üçün də beş toplu çap olunması, aşağı seçki komissiyalarına və digər seçki subyektlərinə paylanılması nəzərdə tutulur. Bundan başqa, hər seçki zamanı seçkilərin hazırlanması və keçirilməsi üzrə "Əsas hərəkətlərin və tədbirlərin Təqvim Planı", "Səsvermə günü üçün Yaddaş kitabçası", "Müşahidəçilər üçün Yaddaş kitabçası", "Namizədlər üçün Yaddaş kitabçası", "Polis üçün Yaddaş kitabçası" və s. vəsaitlər çap olunaraq seçki subyektlərinin istifadəsinə verilir.

MSK-nın həyata keçirdiyi mühüm əhəmiyyətli layihələrdən biri də aşağı seçki komissiyaları üzvlərinin maarifləndirilməsidir. Çünki seçki komissiyalarının sisteminə daxil olan pillələrdə otuz bir mindən artıq komissiya üzvü fəaliyyət göstərir ki, seçkilərin beynəlxalq standartlara uyğun hazırlanıb keçirilməsi bilavasitə onların da peşəkarlıq səviyyəsindən, bilik və bacarıqlarından asılıdır.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" və onun davamlılığının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı MSK tərəfindən aşağı seçki komissiyaları üzvlərinin peşə hazırlığının artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və işgüzar vərdişlərinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar, habelə digər seçki subyektlərinin maarifləndirilməsi üçün bu qəbildən olan çoxsaylı tədbirlər həyata keçirilib.

Seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar iki mərhələdən ibarət olmaqla öncə dairə seçki komissiyalarının sədrləri üçün, sonra isə dairə seçki komissiyalarının katibləri, üzvləri və məntəqə seçki komissiyalarının sədrləri üçün ölkə üzrə təşkil edilir. Həmin tədbirlərə qanunverici, icra və məhkəmə hakimiyyətlərinin, həmçinin digər müxtəlif dövlət orqanlarının məsul şəxsləri cəlb olunurlar. Məlumat üçün qeyd edək ki, qarşıdan gələn bələdiyyə seçkiləri ilə bağlı dairə və məntəqə seçki komissiyalarının üzvləri üçün müvafiq olaraq müşavirə və seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçiriləcəkdir.

Bələdiyyə seçkiləri ilə bağlı nəzərdə tutulan layihələrdən biri də aşağı seçki komissiyaları üçün əyani vəsaitlərdən istifadə olunmaqla həyata keçirilən treninq layihələridir. Qeyd etmək lazımdır ki, 2002-ci ildən əsası qoyulan bu layihə əvvəllər MSK-nın treninq qrupları tərəfindən həyata keçirilirdi. Sonradan Avropa Şurası Venesiya Komissiyası ilə birgə hər seçki dairəsi üçün 2 yerli trenerin hazırlanması təcrübəsi öz müsbət nəticəsini verdi. Cari seçkilərdə də nəzərdə tutulan treninqlər dairə və məntəqə seçki komissiyası üzvlərinin maarifləndirilməsində mühüm rol oynayacaq. 125 seçki dairəsindən olan 250 yerli trener seçkilərdə səsvermə prosesi, müstəsna hallar, səslərin sayılması, protokolların doldurulması da daxil olmaqla seçki günü prosedurları barədə ətraflı məlumatlandırılacaq və onlar praktiki məşğələlər zamanı seçki günü ortaya çıxa biləcək hallar barədə interaktiv müzakirələrə cəlb olunacaqlar. Tədbirdə əvvəlki seçkilər zamanı keçirilmiş treninqlərdə əldə olunan təcrübə də müzakirə edilərək iştirakçılara lazımi tövsiyələr veriləcək. Layihənin dairə və məntəqə seçki komissiyalarının üzvlərinin cəlb olunduğu ikinci mərhələsi əsasən 35-40 nəfərlik kiçik qruplar şəklində keçiriləcək və bu treninqlərdə aşağı seçki komissiyalarının üzvləri seçki prosesi ilə bağlı ətraflı məlumatlandırılacaqlar.

Dairə seçki komissiyalarının məsləhətçi-operatorları üçün praktiki treninqlər keçirilməsi də maarifləndirmə tədbirlərinin tərkib hissəsidir. MSK-nın inzibati binasında təşkil olunacaq treninqlərdə dairə seçki komissiyalarının kompüter mütəxəssislərinə seçki günü məlumatlarını MSK-ya ötürmək üçün istifadə edəcəkləri "Seçkilər" Dövlət Avtomatlaşdırılmış İnformasiya Sisteminin yeni şəbəkə variantı barədə praktiki məlumat verilməsi, əyani formada istifadə qaydalarının öyrədilməsi nəzərdə tutulur. Treninqlərin nəticəsində operatorlar praktiki iş təcrübəsi qazanacaqlar ki, bu da seçki günü şəbəkədən daha rahat istifadəni təmin edir.

Ümumiyyətlə, MSK-nın maarifləndirmə məqsədi daşıyan tədbirlərinin hüdudları ildən-ilə genişlənir. Bu proses bir çox hallarda digər təşkilat və qurumların təmsilçiləri - yerli icra hakimiyyəti başçıları, Səhiyyə Nazirliyi, polis orqanları, penitensiar xidmət əməkdaşları, gənclər təşkilatları, KİV və s. ilə birlikdə həyata keçirilir. Həmçinin maarifləndirmə tədbirlərinə beynəlxalq təşkilatların nümayəndələrinin qoşulması təcrübəsi genişlənməkdədir.

İctimai Televiziya və Radio Yayımları Şirkəti və dövri nəşrlər seçki dövründə MSK üzvləri və katiblik əməkdaşlarına da qanunvericiliyi izah etmək, ictimaiyyəti öz fəaliyyəti haqda məlumatlandırmaq, seçicilərin suallarına cavab vermək üçün ödənişsiz vaxt ayırır. 2010-cu ildən etibarən İctimai Televiziyada həftədə bir dəfə efirə gedən "Xalq seçir" (referendumda "Xalqın səsi") adlı bütünlüklə seçkilərə həsr olunmuş xüsusi maarifləndirmə proqramı da seçkilərlə bağlı müxtəlif aktual aspektləri işıqlandırır.

Xüsusilə vurğulamaq lazımdır ki, seçki komissiyaları kütləvi informasiya vasitələri ilə yaxından əməkdaşlıq edir, onlara seçkiləri işıqlandırmaları üçün hər cür şərait yaradır, öz peşə borclarını layiqincə yerinə yetirmələrinə lazımi kömək göstərirlər. KİV nümayəndələri mütəmadi qaydada MSK-nın tədbirlərinə dəvət olunur və lazımi məlumatları dərhal və birbaşa əldə edirlər. Ölkə ictimaiyyətinin seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı məlumatlandırılması məqsədilə MSK tərəfindən müxtəlif xarakterli mətbuat konfransları, brifinqlər keçirilir, respublikada fəaliyyət göstərən elektron informasiya vasitələrinə məlumatlar çatdırılır, mətbuat bülletenləri və məqalələr dərc olunur. Bu seçkilərdə də MSK Milli Televiziya və Radio Şurası, Mətbuat Şurası və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVİDF) ilə birgə "Jurnalistlərin seçki prosesində fəaliyyətinin əsasları" mövzusunda birgə konfrans keçirməyi nəzərdə tutur.

Müsbət haldır ki, MSK-nın maarifləndirmə məqsədi daşıyan tədbirlərinin hüdudları ildən-ilə genişlənir. Əgər əvvəllər maarifləndirmə tədbirləri əsasən aşağı seçki komissiyaları üzvləri və seçicilər arasında aparılırdısa, sonradan bu xarakterli tədbirlər polis əməkdaşları, seçici qadınlar, ilk dəfə səs verən gənclərlə, səhhəti ilə əlaqədar xəstəxana və istirahət yerlərində olan seçicilərlə də təşkil olundu və səmərəli nəticələr verdi. MSK rəhbərliyi də bu xarakterli tədbirlərin əhatə dairəsini daha da genişləndirməyi məqsədəmüvafiq hesab edir.

Siyasi partiyalarla qarşılıqlı əməkdaşlıq, onların maliyyə hesabatlarının tərtib edilməsi, qəbul olunması, nəzərdən keçirilməsi və ictimailəşdirilməsi ilə bağlı aidiyyəti subyektlərin maarifləndirilməsi də xüsusi diqqət yetirilən sahələrdəndir. MSK nəzdində Nəzarət-Təftiş Xidmətinin, MSK Katibliyinin "Siyasi partiyaların maliyyə hesabatları üzrə iş" və "Siyasi partiyaların sənədləri ilə iş" sektorlarının əməkdaşlarının da iştirak etdiyi seminarda siyasi partiyaların illik maliyyə hesabatlarına dair tələblər, onların tərtib edilməsi, səlahiyyətli orqana göndərilməsi, nəzərdən keçirilməsi və ictimailəşdirilməsi, siyasi partiyaların illik hesabatlarının tərtib edilməsində müstəqil auditorların rolu, onların hüquq və vəzifələri, auditor rəyinə və hesabatına dair tələblər, hesabatın əsasını təşkil edən maliyyə sənədləri və onların xüsusiyyətləri, eləcə də maliyyə hesabatlarına dair qanunvericiliyin tələblərinin pozulmasına görə məsuliyyət mövzularında çıxışlar dinlənilir. Seminarlarda həmçinin siyasi partiyaların maliyyə hesabatları ilə bağlı müxtəlif mövzularda müzakirələr aparılaraq meydana çıxan suallar cavablandırılır. Rəsmi dövlət qeydiyyatından keçmiş siyasi partiyaların təmsilçilərinin və aidiyyəti dövlət qurumlarının - Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi və Auditorlar Palatasının nümayəndələrinin də bu tədbirlərdə iştirakı səmərəliliyi daha da artırır.

Seçki təcrübəsi göstərir ki, seçkilər zamanı bəzən bu və ya digər səbəblərdən vətəndaşların seçki hüquqlarının pozulması halları olur. Bu isə pozulmuş seçki hüquqlarının bərpa olunması zərurətini yaradır. Məhz bu zərurətlə bağlı MSK 2008-ci ildən başlayaraq Avropa Şurası Venesiya Komissiyası ilə birgə şikayət və müraciətlərə baxılması ilə əlaqədar dairə seçki komissiyalarının ekspert qruplarının üzvləri üçün seminar-treninqlər keçirir. Seçki qanunvericiliyinə görə şikayətlər ilkin olaraq dairə seçki komissiyalarında yaradılan 3 nəfərdən ibarət ekspert qrupunun üzvləri tərəfindən araşdırılır. Bu şəxslər üçün seminar-treninqlərin keçirilməsi həm nəzəri, həm də praktiki cəhətdən çox faydalıdır. Cəsarətlə demək olar ki, ötən müddət ərzində həmin ekspertlərin topladığı müsbət təcrübə bu gün aydın şəkildə hiss olunmaqdadır.

Çox müsbət haldır ki, respublikada 2008-ci ildən başlayaraq tətbiq olunan və internet vasitəsilə səsvermə prosesini canlı izləmək imkanı verən veb-kameralardan istifadə təcrübəsi və coğrafiyası da ildən-ilə artmaqdadır. 2013-cü il Azərbaycan Respublikasının Prezidenti seçkilərindən başlayaraq şəffaflığın yüksək səviyyədə təmin olunması üçün bütün digər vasitələrlə yanaşı, respublikadakı seçki məntəqələrində əvvəlki seçkilərdə quraşdırılmış veb-kameraların sayı 2 dəfə artırılaraq 500-dən 1000-ə (təxminən 20%-ə) çatdırılıb. Veb-kameralar quraşdırılan seçki məntəqələrinin siyahısı təsdiq olunaraq dərc olunur və rəsmi internet səhifəsində yerləşdirilir. Seçki günü bu veb-kameralar vasitəsilə internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesi, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini arasıkəsilmədən canlı müşahidə etmək imkanına malik olurlar. Bu müsbət tendensiyanın davamlı olması və ölkə coğrafiyasını bütünlüklə əhatə etməsi əsas hədəflərimizdəndir.

Ümumiyyətlə, seçki komissiyaları tərəfindən seçki subyektlərinin maarifləndirilməsi məqsədilə həyata keçirilən bütün tədbirlər nəticə etibarı ilə seçki praktikasının və seçki subyektlərinin hazırlıq səviyyəsinin təkmilləşdirilməsinə, seçkilərin beynəlxalq standartlara uyğun keçirilməsinə dəyərli töhfədir.

***Mikayıl RƏHİMOV,***
***Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi***

# Yazıçı və tərcüməçi Babaxan Şərifin 70 illik yubiley tədbiri

Oktyabrın 9-da Beynəlxalq Mətbuat Mərkəzində Özbəkistan Yazıçılar Birliyinin üzvü, yazıçı, tərcüməçi, ədəbiyyatşünas alim, Azərbaycan-Özbəkistan ədəbi əlaqələrinin genişləndirilməsində xidmətlər göstərmiş Babaxan Şərifin 70 illik yubiley tədbiri və "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət"in təqdimatı keçirilib.



Tədbir "Kaspi" qəzeti və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbirdə "Kaspi" qəzetinin təsisçisi Sona Vəliyeva çıxış edərək Azərbaycan-Özbəkistan ədəbi əlaqələrindən, bu əlaqələrin dərinləşdirilməsində yazıçı, tərcüməçi, ədəbiyyatşünas alim Babaxan Şərifin səmərəli xidmətlərindən danışıb. B.Şərifin öz həyatını, taleyini büsbütün elmə, ədəbiyyata, sözə bağladığını deyən Sona Vəliyeva onun nəşr etdirdiyi kitabların, tərcümə əsərlərinin əhəmiyyətini diqqətə çatdırıb.

S.Vəliyeva təqdim edilən "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət" ilə bağlı fikirlərini bildirib, yazıçı Babaxan Şərifə yeni yaradıcılıq uğurları arzulayıb.

Mətbuat Şurasının sədr müavini Umud Rəhimov, Milli Məclisin deputatı Qənirə Paşayeva, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, tarixçi-alim Yunis Oğuz, özbəkistanlı alim Şuxrat Barlas və digər çıxış edənlər də yazıçı Babaxan Şərifin iki ölkə arasında ədəbi əlaqələrə verdiyi töhfələrdən söz açıb, yubileyi münasibətilə onu təbrik ediblər. Eyni zamanda "Azərbaycanca-özbəkcə, özbəkcə-Azərbaycanca lüğət"in əhəmiyyəti vurğulanıb.

Tədbirdə Babaxan Şərifə mükafatlar və hədiyyələr təqdim olunub.

# UNEC Yunanıstanda ilk Məzun Günü keçirdi

UNEC ilə Qərbi Makedoniya Universiteti arasında imzalanan beynəlxalq əməkdaşlıq memorandumuna əsasən birgə magistr proqramı 3 ildir davam edir. Birgə magistr proqramı 12 fənn və buraxılış işindən ibarət olmaqla, 120 kredit təşkil edir ki, bunlardan 30 krediti UNEC-in professor-müəllim heyəti tərəfindən tədris edilir. Proqram çərçivəsində magistr hazırlığı ilə yanaşı, hər iki universitet arasında akademik mübadilə və birgə elmi tədqiqatlar aparılıb. 2019-cu ildə imzalanan yeni əməkdaşlıq müqaviləsinə əsasən, birgə magistr proqramının müddəti 2024-cü tədris ilinədək 5 (beş) il müddətinə uzadılıb.

Azərbaycan Dövlət İqtisad Universiteti ilə (UNEC) Yunanıstanın Qərbi Makedoniya Universitetinin birgə magistr proqramının ilk Məzun Günü keçirilib və məzunlara diplomlar təqdim olunub.

Yunanıstanın Kastoriya şəhərində keçirilən Məzun Günündə UNEC-in rektoru, professor Ədalət Muradov və Qərbi Makedoniya Universitetinin rektoru, professor Theodoros Theodoulids ma-





gistratura üzrə birgə diplom proqramının əhəmiyyətindən söz açıblar. Bildirilib ki, birgə magistr proqramının məqsədi, beynəlxalq əmək bazarında, o cümlədən Avropa əmək bazarında yüksəkixtisaslı mütəxəssislər hazırlamaqdır. Proqramı bitirənlər Yunanıstanda, Azərbaycanda, Avropa İttifaqına üzv olan digər ölkələrdə işgüzar idarəçilik, iqtisadiyyat, nəqliyyat və logistika, neft-qaz texnologiyası ixtisasları üzrə fəlsəfə doktoru elmi adını qazanmaq imkanı əldə edə biləcəklər. Birgə proqramda iştirak edən magistrlər müqaviləyə əsasən, həm də təqaüdlə təmin olunublar.

Tədbirdə birgə diplom proqramının hər iki ölkə arasında təhsil, elm və sosial əlaqələrin gücləndirilməsində vacib əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb, gələcəkdə bu əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Həmçinin UNEC-lə Qərbi Makedoniya Universiteti arasında bakalavr təhsili üzrə mübadilə və ikili diplom proqramlarının da reallaşdırılmasının mümkünlüyü qeyd edilib və bu istiqamətdə işlərə başlamağa dair qərar verilib.

Məzun Günündə çıxış edən Milli Məclisin deputatı Fazil Mustafa, Azərbaycanın Yunanıstandakı səfirliyinin birinci katibi Eldar Əliyev, Yunanıstan parlamentinin üzvləri Zısıs Tzıkalagıas, Olympıa Telıgıorıdou, Baş Nazirin Selanikdəki ofisinin rəhbəri Antonıou Marıa, Təhsil nazirinin ali təhsil üzrə müavini cənab Digalakis, Bodosaki Fondunun TAP layihəsi üzrə maliyyə meneceri Jenny Lazarou, TAP-AG layihəsinin (Trans Adriatik Boru Kəməri) Qərbi Makedoniya üzrə meneceri Mıchalıs Goslıopoulos, "Neft və qazın menecmenti və nəql edilməsi" magistr proqramının direktoru Siskos Evangelos və digər çıxış edənlər birgə magistr proqramının hər iki ölkə üçün xüsusi əhəmiyyət daşıdığını bildiriblər. İlk dəfə olaraq həyata keçirilən birgə proqram çərçivəsində UNEC-in Avropa İttifaqına üzv olan ölkədə mütəxəssis hazırlığı həyata keçirməsini tarixi uğur adlandırıblar.

Çıxışlardan sonra məzunların təntənəli andiçmə mərasimi keçirilib.

UNEC-in rektoru, professor Ədalət Muradov və Qərbi Makedoniya Universitetinin rektoru, professor Theodoros Theodoulids tərəfindən imzalanan birgə diplomlar Yunanıstan vətəndaşı olan 34 magistr məzuna təqdim edilib.

Qeyd edək ki, UNEC Rusiya Federasiyası ərazisində təhsil xidmətləri göstərən yeganə xarici universitet olmaqla Yunanıstanda da birgə magistr proqramı reallaşdıran ilk xarici universitetdir.

*"Azərbaycan"*

# *Rusiyalı deputat:* "Rusiya Türk Xalqları Assosiasiyasının yaradılması məsələsi müzakirə edilir"

Ötən 27 ildə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən türkdilli xalqların hər birinin özünəməxsus mədəniyyətinin dəstəklənməsinə və inkişafına yönəldilmiş minlərlə layihə həyata keçirilib, lakin türkdilli xalqların mədəniyyətlərinin ümumiliyini və yaxınlığını, onların eyni kökdən qaynaqlandığını əyani nümayiş etdirmiş müştərək layihələr daha böyük əhəmiyyət daşıyır.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiya Dövlət Dumasında keçirilən "Avrasiyaya inteqrasiyanın Altay vektoru" mövzusunda "dəyirmi masa"da bəyan edib.

Rusiya Dövlət Dumasında "Mədəniyyətlərin kəsişməsi: Avrasiya məkanında mədəniyyətlərarası dialoq", "Azərbaycan və Rusiya arasında mədəni körpülər" mövzularında "dəyirmi masa"ların keçirildiyini qeyd edən səfir deyib: "Mən bunların hamısında parlaq ifadə olunmuş sistemlilik, dialoq qurmaq, aktual məsələləri müzakirə etmək, münasibətləri dərinləşdirmək və xalq diplomatiyasını inkişaf etdirmək istəyi görürəm. Hazırda Azərbaycan ilə Rusiya arasında etimada söykənən və konstruktiv xarakter daşıyan ikitərəfli əlaqələr bu kontekstdə olduqca səciyyəvidir".

Diplomatın fikrincə, bu mövzu həmişə prioritet olub və ölkələrimizin ikitərəfli münasibətlərində hər bir fakt xüsusi əhəmiyyət daşıyır. P.Bülbüloğlu deyib: "Dövlət Dumasının deputatı, Xalq yazıçısı İvan İtuloviç Belekov bu yaxınlarda mənə xatırlatdı ki, Biya və Katun çaylarının qovuşması nəticəsində əmələ gələn Ob çayı üzərindən ən böyük körpü məhz sovet dövründə Moskvada Nazirlər Soveti sədrinin birinci müavini işləmiş və Altaydan SSRİ Ali Sovetinə deputat seçilmiş ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə salınıb. Heydər Əliyev onun üçün çox əlamətdar olan bu hadisəni tez-tez səmimiyyətlə xatırlayırdı. Müasir dövrdə əlaqələrimizin simvollarını məhz belə şəxsiyyətlərin nümunəsində görürük".

Səfir qeyd edib ki, müasir şəraitdə postsovet məkanı dövlətlərinin siyasətində Avrasiya vektorunun əhəmiyyəti artmaqdadır. Altay vektoru Avrasiyanın inteqrasiya proseslərində xüsusi rol oynamağa başlayır. Altay əsrlər və hətta minilliklər boyu bir çox xalqların qarşılıqlı fəaliyyət mərkəzi olub, onların mədəni müxtəlifliyinin elementlərini öz xəzinəsində toplayıb.

P.Bülbüloğlu vurğulayıb: "1992-ci ildə Azərbaycan tərəfinin təşəbbüsü, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın mədəniyyət nazirlərinin dəstəyi və iştirakı ilə türkdilli ölkələrin mədəniyyətlərini birləşdirən Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY yaradılıb. TÜRKSOY-un əsas məqsədi türkdilli xalqlar arasında ümumi maddi-mədəni dəyərləri və abidələri qoruyub saxlamaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək naminə əməkdaşlıq olub. Mənə TÜRKSOY-un yaradılmasının təməlində dayanmaq və 14 il ərzində bu təşkilata başçılıq etmək səadəti nəsib olub. Təəssüf ki, Rusiyada bu təşkilata heç də hamı müsbət yanaşmır, halbuki o, siyasətdən uzaqdır və sırf türkdilli xalqların identikliyinə kömək edən mədəni başlanğıc daşıyır. Odur ki, Avrasiya məkanı türkdilli mədəniyyət olmadan yaşaya bilməz".

Diplomat xatırladıb ki, Altay təkcə türkdilli xalqların ilk vətəni deyil. Ənənəyə görə, Altay dilləri ailəsini türk, monqol, tunqus-mancur, Koreya və yapon-ryukyu qollarına ayırırlar. Hesab edilir ki, bütün bu xalqlar uzaq keçmişdə öz yollarını məhz Altaydan başlayıblar. Oradan bütün dünyaya səpələniblər və planetimizin hər yerinə öz mədəniyyətlərini və ənənələrini gətiriblər. Səfir fikrini bu sözlərlə tamamlayıb: "İndi "daşları toplamaq" vaxtı gəlib çatıb. Fürsətdən istifadə edərək demək istəyirəm ki, çoxlarımızın ümumi kökləri, ümumi qaynaqları, ümumi sivil inkişaf yolları var. Bu zalda oturanların çoxunun da yolları, çox güman ki, Altay adlı müqəddəs torpaqdan başlayıb".

Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiyaya inteqrasiya və həmvətənlərlə əlaqələr komitəsinin üzvü İvan Belekov qeyd edib ki, Altayda Azərbaycanın ümummilli lideri Heydər Əliyevi xatırlayırlar və xatirəsini dərin ehtiramla anırlar. Deputat deyib: "Bu körpü insanları, mədəniyyətləri və ənənələri yaxınlaşdırır". O, həmçinin TÜRKSOY-un fəaliyyətində daha yaxından iştirakın əhəmiyyətini vurğulayıb.

Rusiyada Türk Xalqları Assosiasiyası yaradılmasının planlaşdırıldığını diqqətə çatdıran Dövlət Dumasının millətlərin işləri komitəsinin sədri İldar Gilmutdinov deyib: "Azərbaycan səfiri çox mühüm mövzuya toxundu. Biz tərəfdaşlarla Rusiya Türk Xalqları Assosiasiyasının yaradılması mövzusunu müzakirə edirik".

Avrasiya Xalqları Assambleyasının baş katibinin birinci müavini Svetlana Smirnova xatırladıb ki, bu günlərdə Bakıda "LiFFt" IV Avrasiya ədəbi festivallar festivalı keçirilib. Bu festival ədəbi ictimaiyyətin mədəni həyatının parlaq hadisələrindən birinə çevrilib. Festival 2019-cu ildə BMT tərəfindən elan edilmiş "Yerli xalqların dilləri ili" proqramının himayəsi ilə və böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyi şərəfinə keçirilib. Tədbirin təşkilatçıları "LiFFt" Avrasiya Xalqlarının Mədəni Layihələrinin İnkişafına Dəstək Fondu və Heydər Əliyev Fondudur. Festivalın işində 50 ölkədən yazıçılar iştirak edib. O, festivalın uğurla keçirilməsinə dəstək göstərdiyinə görə Azərbaycan tərəfinə təşəkkür edib.

## Əhalinin siyahıyaalınması başa çatır

# Təbəssümlə qarşılayır, təbəssümlə yola salırlar

Əllərində çanta, yaxalarında fərqlənmə nişanı olan sayıcılar istər Bərdə şəhərində, istərsə də rayonun kəndlərində hansı evin qapısını döyürlərsə, təbəssümlə qarşılanır, onlara xoş münasibət göstərilir, sorğu vərəqələrindəki suallara həvəslə cavab verib təbəssümlə yola salınırlar.



Rayon statistika idarəsinin rəisi Əlövsət Məmmədovla da söhbətimiz bu barədə - əhalinin siyahıyaalınması ilə bağlı oldu. Dedi ki, hazırlıq dövründə əhalinin maarifləndirilməsi, təbliğat xarakterli şüar və plakatlardan, digər əyani vasitələrdən məqsədyönlü şəkildə istifadə olunması bu mühüm dövlət tədbirinin mütəşəkkilliyini, operativliyini təmin edir. Zamanında işlənmiş şəhər, qəsəbə və kənd ərazi dairələri üzrə sxematik xəritələr, dəqiqləşdirilmiş ərazi və küçə adları indi sayıcıların işini xeyli asanlaşdırıb.

Dövlət Statistika Komitəsindən verilən tapşırıq və tövsiyələr, təlimat və metodiki göstərişlər siyahıyaalmanın həyata keçirilməsində əsas amilə çevrilmişdir. Hazırlıq mərhələsində ayrı-ayrı yaşayış məntəqələrində ərazi icra nümayəndələrinin, yerli bələdiyyələrin və sayıcıların iştirakı ilə keçirilən çoxsaylı seminarlar indi işimizi xeyli yüngülləşdirib.

Bu siyahıyaalma rayonumuzda insanların rifah halından, mənzil-məişət şəraitində baş verən yeniliklərdən, ailə, ev təsərrüfatlarının tərkibi haqqında toplanan məlumatlar əhalinin məşğulluq statusu, gəlir mənbələri, təhsil səviyyəsinə dair bir çox sosial-iqtisadi göstəricilər əldə etməyə imkan verəcək.

İdarə rəisinin dediklərindən o da aydın oldu ki, ötən siyahıyaalmadan keçən dövr ərzində rayon əhalisinin sayı 14.703 nəfər və ya 10.5 faiz artaraq, 2019-cu ilin 1 yanvarınadək 156.4 min nəfərə çatmışdır. Siyahıyaalmaya Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti nəticəsində doğma ata-baba yurdundan didərgin düşərək Bərdə rayonu ərazisində məskunlaşmış soydaşlarımız da cəlb ediliblər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Pambıq qəbulu məntəqələrinə 130 min tondan çox məhsul təhvil verilib

Oktyabrın 9-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 130 min 201 ton məhsul təhvil verilib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,6 dəfə çoxdur. Keçən il oktyabrın 9-dək 81 min 433 ton pambıq tədarük olunmuşdu.

Pambıq yığımında Saatlı (21 min 561 ton), Ağcabədi (14 min 184 ton), Bərdə (13 min 165 ton), Biləsuvar (12 min 527 ton) və Sabirabad (12 min 266 ton) rayonları irəlidə gedirlər.

Qeyd edək ki, pambıqçılıq kənd təsərrüfatının yüksək əmək-tutumluluğu ilə seçilən sahələrindən biridir. Ötən illə müqayisədə 2019-cu ildə 20 rayon üzrə pambıq əkən fermerlərin sayı 2373 nəfər artaraq 18000 nəfərə çatıb. Pambıqçılığın inkişafı yüngül sənayenin inkişafına təkan verməklə yanaşı, əhalinin məşğulluğunun artmasında da müsbət rol oynayır. Hazırda ölkəmizdə 23 pambıq zavodu, 7 iplik istehsalı fabriki, 3 pambıq yağı istehsalı müəssisəsi fəaliyyət göstərir. Ümumilikdə pambıqçılığın inkişafı təxminən 200 mindən çox insanın əsas gəlir mənbəyini formalaşdırır.

AZƏRTAC respublikada pambıq tədarükünə dair oktyabrın 9-na olan operativ məlumatı təqdim edir.

**09.10.2019-cu il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 09 oktyabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən | 2019-cu il | 2018-ci il | 2019-cu il 2018-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **100111,7** | **132512,0** | **75,5%** | **130201,61** | **81433,43** | **1,6 dəfə** |
| Ağcabədi rayonu | 10452,3 | 10000,0 | 104,5% | 14184,97 | 9078,76 | 1,6 dəfə |
| Ağdam rayonu | 2600,0 | 3100,0 | 83,9% | 3146,74 | 2056,70 | 1,5 dəfə |
| Ağdaş rayonu | - | 3185,0 | - | - | 1583,35 | - |
| Ağsu rayonu | 1000,0 | 2600,0 | 38,5% | 475,18 | 719,33 | 66,1% |
| Beyləqan rayonu | 9706,1 | 9560,0 | 101,5% | 9871,39 | 6962,07 | 141,8% |
| Bərdə rayonu | 10140,0 | 9630,0 | 105,3% | 13165,13 | 7532,15 | 1,7 dəfə |
| Biləsuvar rayonu | 10257,7 | 12000,0 | 85,5% | 12527,96 | 5695,04 | 2,2 dəfə |
| Cəlilabad rayonu | 507,7 | 505,0 | 100,5% | 634,73 | 223,77 | 2,8 dəfə |
| Füzuli rayonu | 800,0 | 2100,0 | 38,1% | 915,29 | 951,23 | 96,2% |
| Goranboy rayonu | 3102,2 | 5000,0 | 62,0% | 4403,35 | 3381,78 | 130,2% |
| Hacıqabul rayonu | 400,0 | 1300,0 | 30,8% | 294,95 | 354,51 | 83,2% |
| İmişli rayonu | 7492,3 | 13645,0 | 54,9% | 7740,25 | 4945,94 | 1,6 dəfə |
| Kürdəmir rayonu | 2809,2 | 5030,0 | 55,8% | 2630,30 | 2877,06 | 91,4% |
| Neftçala rayonu | 5087,0 | 7000,0 | 72,7% | 6779,84 | 4443,89 | 1,5 dəfə |
| Saatlı rayonu | 13741,0 | 15815,0 | 86,9% | 21561,18 | 11899,53 | 1,8 dəfə |
| Sabirabad rayonu | 8630,0 | 13055,0 | 66,1% | 12266,37 | 7245,60 | 1,7 dəfə |
| Salyan rayonu | 4788,2 | 7055,0 | 67,9% | 6817,01 | 3951,75 | 1,7 dəfə |
| Samux rayonu | - | 400,0 | - | - | 147,98 | - |
| Tərtər rayonu | 3427,2 | 3300,0 | 103,9% | 6005,46 | 2560,69 | 2,3 dəfə |
| Ucar rayonu | 500,0 | 2500,0 | 20,0% | 623,75 | 614,57 | 101,5% |
| Yevlax şəhəri | 2406,8 | 2500,0 | 96,3% | 3096,49 | 2297,30 | 134,8% |
| Zərdab rayonu | 2264,0 | 3232,0 | 70,0% | 3061,27 | 1910,43 | 1,6 dəfə |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# "Olimpiya Hərəkatı Azərbaycan" proqramının yeni mövsümdə icrasına dair iclas

Oktyabrın 9-da "Olimpiya Hərəkatı Azərbaycan" proqramının yeni mövsümdə icrası ilə bağlı işçi qrupunun iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK), Təhsil, Gənclər və İdman nazirliklərinin, velosiped, həndbol və badminton federasiyalarının birgə əməkdaşlığı ilə keçirilən iclasda həmin qurumların nümayəndələri iştirak ediblər. MOK-un inzibati binasında keçirilən tədbirdə əvvəlcə "Olimpiya Hərəkatı" proqramının ötənilki nailiyyətlərinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

İclasda məktəblilərin bacarıqlarına uyğun idman növləri üzrə yaş qruplarına bölünməsi, lazımi ləvazimat və avadanlığın təşkili, hakimlərin yarış üzrə bölgüsü müzakirə olunub.

Məktəblilərin "Olimpiya Hərəkatı" idman proqramının əsası 2003-cü ildə "Coca-Cola" və Beynəlxalq Olimpiya Komitəsi tərəfindən qoyulub. "Olimpiya Hərəkatı" proqramı məktəblilərin daha fəal və sağlam həyat tərzinə cəlb olunmasına yardım edir və Azərbaycanda idmanın inkişafına töhfə verir. Proqram "Bakı 2015" ilk Avropa Oyunlarının idman irsini davam etdirməklə Olimpiya İdman komplekslərindən, o cümlədən idman bazalarından səmərəli istifadə üçün fəaliyyətin təşkili məqsədini daşıyır.

Bu il "Olimpiya Hərəkatı" layihəsi badminton, həndbol və velosiped idman növləri üzrə Bakı məktəblərini əhatə edərək 2019-cu ilin sonunadək keçirilməsi nəzərdə tutulur.

# *Bakı Polisi:* "Paytaxtın mərkəzində keçirilən piket kütləvi hüquq pozuntuları ilə müşayiət olunub"

Özlərini Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurumun və Azərbaycan Xalq Cəbhəsi Partiyasının razılaşdırılan piketi paytaxtın mərkəzində kütləvi hüquq pozuntuları ilə müşayiət olunub.

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, piket ərəfəsində təşkilatçılara tədbirin qanunvericilik tələblərinə uyğun keçirilməsi ilə bağlı edilən rəsmi xəbərdarlıqlara baxmayaraq, piket iştirakçıları qanunun tələblərini pozmaqla yanaşı, razılaşdırılan xüsusatlardan kənar, "piketə dəstək" adı altında qanunsuz çağırışlar etməklə daha çox tərəfdarın cəlb olunmasına çalışıblar. Nəticədə sıxlığın, gediş-gəlişin, nəqliyyat axınının intensiv olduğu mərkəzi küçələrdə qeydə alınan hüquqazidd əməllər hərəkətin iflic olmasına səbəb olub, piyadaların sərbəst gediş-gəlişinə maneçilik yaradıb. Ətrafdakı insanlara qarşı kobudluq və polisi qarşıdurmaya çəkmə cəhdləri baş verib.

Baş verənlər, qeydə alınanlarla yanaşı, paytaxtın mərkəzi küçələrində şəhər təsərrüfatına ziyan vurulub, kommunal xidmətlərin tullantı qutuları dağıdılıb, antisanitariya normaları pozulub. Küçə yürüşünə cəhd zamanı müşahidə olunanlar onu deməyə əsas verir ki, təşkilatçılar "piketə dəstək" adı altında qanunsuz çağırışları ilə iştirakçıların hüquqazidd əməllərinə zəmin yaradıblar. Bu əməllər onunla nəticələnib ki, iştirakçılar paytaxt küçələrində bir saat ərzində intizamsızlıq nümayiş etdirməklə acınacaqlı durum yaradıblar.

Piket iştirakçılarının təhlükəsizliyini təmin etmək məqsədilə xidmətə cəlb olunan polis əməkdaşları ictimai asayişi qorumaq, ictimai qaydanı bərpa etmək, insanların hüquqlarını təmin etmək üçün üzərlərinə düşən vəzifələri qanunvericiliyə müvafiq olaraq peşəkarlıqla yerinə yetiriblər.

# Almaniya vətəndaşının adı Azərbaycan XİN-in arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Almaniya Federativ Respublikasının vətəndaşı Silvia Stöber Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məktubunda Silvia Stöber Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə və suverenliyinə, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bəyan edir və işğal edilmiş ərazilərə sözügedən səfəri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyü və suverenliyini şübhə altına almaq niyyətində olmadığını bildirir. Həmçinin o, səfərin törədə biləcəyi nəticələr barədə məlumatsız olduğunu qeyd edir.

Almaniya vətəndaşının müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.



# İmadəddin Nəsimi - 650

## Cahana sığmayan mütəfəkkir şair



**● Qəzəllər**




### Olmasın

Sən mana, dilbər, yetərsən, özgələr yar olmasın,
Bir olur yar iki olmaz, iki zinhar olmasın.

Bağrımı doğrar fəraqın xarı, ey cənnət gülü,
Növbahar olsun, gül olsun, arada xar olmasın.

Doğrudur yarın yolu, doğru qayırma yarədən,
Kim ki, doğru yol verər, anın yeri dar olmasın.

Ey səkiz cənnati-ədnin bağü bostanı üzün,
Güldən anın gülşəni bibərgü bibar olmasın!

Kim ki, didarından özgə nəsnə istər, ya dilər,
Yetməsin həqdən nəsibi, əhli-didar olmasın!

Firqətin dərdi məni bixabü giryan eylədi,
Düşmənin ömrü tükənsin, bəxti bidar olmasın!

Tutmuşam eşqinlə peyman, qılmışam hüsnünə əhd,
Andan özgə əhdü peyman, qövlü iqrar olmasın.

Zülfünün dərdində, şaha, asılan Mənsur idi,
Hər ki, Mənsur olmadı, zülfündə bər-dar olmasın.

İmdi ki, eynindən ayru kimsə xoş bimar ikən,
Yarəb, ol nərgisdən özgə kimsə bimar olmasın.

Ey Nəsimi, qılma yarın sirrini əğyara faş,
Ta ki, yar olsun bu sirrə məhrəm, əğyar olmasın.

### Gərçi fəraqə düşmüşəm, eyni-vüsal içindəyəm

Gərçi fəraqə düşmüşəm, eyni-vüsal içindəyəm,
Gəl nəzər eylə halıma gör ki, nə hal içindəyəm.

Vəsli-rüxün zülalına susadım, üştə yanıram,
Gözümə baxü gör necə abi-zülal içindəyəm.

Nəqşi-xəyali-surətin sanma ki, məndən ayrıdır,
Çün bu xəyalü nəqş ilə nəqşü xəyal içindəyəm.

Xürrəm edər ümid ilə vəsli-rüxün məni, vəli
Vəsl irişincə canıma, hüznü məlal içindəyəm.

Zülf ilə qaşü kirpigin əbcədi-cimü dal imiş,
Mən bu hüruf şəkliçün cim ilə dal içindəyəm.

Talevü bəxt yıldızım kövkəbi-nəhsə uğradı,
Ey şərəfim, səadətim, gəl ki, vəbal içindəyəm.

Vəslinə irmək istərəm gərçi ki, eyniyəm anın,
Məndən anı kim ayıra, fikri-məhal içindəyəm.

Sən mənim olduğun, şəha, düşmənə zahir olmamış,
Münkir ilə bu mə'nidən qiyl ilə qal içindəyəm.

Surətü qaşü alnına verdi Nəsimi könlünü,
Mən bu səbəbdən, ey günəş, bədrü hilal içindəyəm.

### Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım

Nigarım, dilbərim, yarım, ənisim, munisim, canım,
Rəfiqim, həmdəmim, ömrüm, rəvanım, dərdə dərmanım.

Şəhim, mahım, dilaramım, həyatım, dirligim, ruhim,
Pənahım, məqsədim, meylim, muradım, sərvərim, xanım.

Qəmərçöhrəm, pəriruyim, zərifim, şuxumü şəngim,
Səmənbuyim, güləndamım, səhisərvi-gülüstanım.

Lətifim, nazikim, xubim, həbibim, türfə məzbubim,
Hicazım, Kə'bəvü Turim, behiştim, hurü rizvanım.

Gülüm, reyhanım, əşcarım, əbirim, ənbərim, udum,
Dürüm, mirvaridim, kanım, əqiqim, lə'lü mərcanım.

Diləfruzum, vəfadarım, cigərsuzum, cəfakarım,
Xudavəndim, cahandarım, əmirim, şahü sultanım.

Çırağım, şəm'imü nurim, ziyamü yıldızım, şəmsim,
Həzarım, bülbülüm, kəbkim, Nəsimiyi-xoşəlhanım!

### Gəl ey dilbər ki, qan oldu könül eşqin bəlasından

Gəl ey dilbər ki, qan oldu könül eşqin bəlasından,
Kərəm qıl, vəsl ilə qurtar məni hicran cəfasından.

Təalallah, nə dilbərsən bu hüsn ilə, bu lütf ilə
Ki, didarın necə görsəm gözüm doymaz liqasından.

Məni eşq oduna atan könüldür, ey nigara kim,
Yanar bağrım, axar yaşım gözümün macərasından.

Bu könlüm dərdinə, yarəb, nə dərman eyləyim çünkim,
Qatı heyrandurur hər dəm təbib anın dəvasından.

Ləbi-lə'lin fəraqından, mənim halımı sor andan,
Nəzər qıl üzümə gör kim, əyandır kəhrübasından.

Mənə sürmə kimi gözdə ayağın tozu yaraşır
Ki, yegrəkdir anın tozu həkimin tutiyasından.

Saçın sinində Çin mişki necə üzünü örtmüşdür,
Görəndə ənbərin xəttin qələm çəkmiş xətasından.

Cəfadan hər nə kim könlüm rizasıdır, şəha, eylə
Ki, aşiq cövrilə dönməz dilaramın cəfasından.

Nəsiminin tənin şol gün ki, torpaq eyləyə eşqin,
Sinindən keç, niyaz eşit həzaran mərhəbasından.

### Yandırdı şövqün canımı, ey dərdə dərman, qandasan?

Yandırdı şövqün canımı, ey dərdə dərman, qandasan?
Canımda can sənsən, vəli, istər səni can, qandasan?

Vəslin şərabından məni saldı xumarın rəncinə,
Yandı hərarətdən içim, ey abi-heyvan, qandasan?

Ey lütfi-hüsnün kişvəri, yandım, irişdir vəslinə,
Çün səndən artıq kimsədə yoxdur bu ehsan, qandasan?

Qapdı əlimdən zülfünü cövrü cəfası çox fələk,
Aşüftəyəm, Məcnun kimi zarü pərişan, qandasan?

Rə'na boyun şövqündən uş həsrətdə yanar gözlərim,
Qan ağlaşırlar sənsizin sərvi-xuraman, qandasan?

Ey qönçə ağızlı, məni yandırdı hicrin tikəni,
Gəlgil ki, sənsiz qönçətək doldu içim qan, qandasan?

Eynimdə sənsən rövşəni, könlüm dilər görmək səni,
Ey hurieyn Rizvan ilə hüsnündə heyran, qandasan?

Cövri-cəfası çox fələk tufan gətirdi başıma,
Andan məni qurtarmağa, ey Fəzli-rəhman, qandasan?

Mişkin saçın zəncirinə verdi Nəsimi könlünü,
Ayrux nə hacətdir ana zəncirü zindan, qandasan?

### Görkəmli elm xadimləri Nəsimi irsi haqqında

- "Nəsimiyə görə, insan hünər dalınca qaçmalıdır. Əsl hünər isə özünü dərk etmək, həqiqətləri düzgün başa düşməkdir. İnsan bədəni elə bir tilsimdir ki, onun minbir sirri vardır. Bu həqiqəti, bu sirləri başa düşən insan isə hamının hörmətinə layiqdir".

  ***Həmid ARASLI***

- "Nəsimi insanı sevməsi ilə bu gün bizim üçün əzizdir. Nəsimi Azərbaycan dilinə o dövrdə bəlkə də ədəbi dil üçün hələ xarakterik olmayan dil və üslub məqamlarını gətirdiyinə görə bizə əzizdir. Nəsimi öz təfəkkür tərzinin yeniliyi ilə bizim üçün əzizdir. Nəsimidə çox yüksək və geniş şəkildə dünyaya, bəşəriyyətə məhəbbət hissləri öz əksini tapıb. Nəsimi ayrı-ayrı xalqları, ayrı-ayrı dinlərin nümayəndələrini deyil, bütün insanları, bəşəriyyəti sevir, bu, onun şeirlərində özünü göstərir".

  ***Kamal ABDULLA***

- "Cəmi 48 il ömür sürmüş və üç dildə: Azərbaycan, fars və ərəb dillərində böyük və zəngin ədəbi irs yaratmış İmadəddin Nəsiminin şeirlərində ifadə olunan yüksək humanizm, dünyəvilik, mənəvi kamillik, ictimai ədalət və ilahi eşq ideyaları zamanı daha da irəli aparan çağırışlardır. Nəsiminin böyük idealları müasir dövrün də ideyalarını əks etdirir, onun əsərləri insanlığı mənəvi kamilliyə, ədalətə, humanizmə çağırmaqda davam edir".

  ***İsa HƏBİBBƏYLİ***

**● Haqq-ədalət carçısı**

**Orta əsrlər klassik Şərq şeirinin təməl xüsusiyyətlərinin əsasında təsəvvüfi düşüncə sistemi dayanır (təsəvvüf - dini və fəlsəfi cərəyandır. İslam dinindəki mənəvi həyatın və əxlaqi dəyərlərin adıdır). Təsəvvüf təliminin, ona aid məcazlar sistemi və terminlərin divan şeirinin formalaşmasına böyük estetik təsiri olmuş, poeziyanın xəyal gücü və dilinin zənginləşməsində sərhədsiz imkanlar açmışdır. Təsəvvüf ədəbiyyatında yalnız ariflərin bələd olduğu dualist təbiətə malik xüsusi rəmzi obrazlardan istifadə yolu ilə Allaha bəndəlik, aşiqlik ifadə olunurdu.**



Klassik Şərq şeirində təsəvvüf təliminin məna qazandırdığı yüzlərlə rəmzdən mütəfəkkir şair İmadəddin Nəsimi də geniş istifadə edərək Yaradıcı qüdrətə, insana, bütün yaradılışa, təriqətə olan sevgi və vurğunluğunu ifadə etmişdir. Təsəvvüfdə özünün müstəqim mənasından çox fərqli anlamlarda mənalandırılan məfhumlar sırasında dəniz, sərv, mah-ay, şəbnəm, günəş, bənövşə, gülzar, bülbül və s. kimi təbiətlə bağlı olan onlarla simvol da yer alır və bunlardan ən geniş yayılanı gül-qızılgül simvolik obrazıdır. Nəsiminin bütünlüklə eşq və irfanın cazibəsinə bürünmüş lirikasında bu obrazın ifadəsinə sıx-sıx rast gəlinir:

# "Gül-qızılgül" simvolikası Nəsimi şeirində

*Nazikim, xubum, lətifim, mehribanım, tazə gül,*
*Munisim, canım, rəfiqim, şol vəfadarım mənim.*

Yaxud:

*Bağrımı doğrar fəraqın xarı, ey cənnət gülü,*
*Növbahar olsun, gül olsun, arada xar olmasın.*

Dünya mədəniyyəti və ədəbiyyatında gül-qızılgül simvolu olduqca geniş yayılmış və onlarla bir-birinə yaxın və tamamilə fərqli mənalandırmalara malikdir. Kulturologiya və ədəbiyyatşünaslıqda bu simvolika ilə bağlı araşdırmaların nəticələrinə görə belə qənaətə gəlmək olar ki, qızılgülün dini assosiasiyaları çox vaxt elə mifoloji məna qatı əsasında formalaşır.

Yeri gəlmişkən qeyd edək ki, klassik Şərq ədəbiyyatında "gül" ifadəsi adətən bizim qızılgül kimi tanıdığımız çiçəyi bildirir (digər çiçəklər isə öz adları ilə adlanır) və demək olar ki, yaradıcılığında gül-qızılgüldən bəhs etməyən şair yoxdur. Sonrakı əsrlərdə düşüncə adamları, ziyalılar tərəfindən tez-tez tənqidlərə məruz qalan "gül" və "bülbül"ün vəsfi klassik Şərq ədəbiyyatında zahiri gözəllikdən daha artıq ilahi eşqin tərənnümü üçün vasitə idi.

Gül-qızılgül, ümumiyyətlə, bütün islami və qeyri-islami mədəniyyətlərdə ilk növbədə sevginin rəmzidir. İlahi gözəllik və ona duyulan eşqi bildirən gül fiziki gözəlliyin fövqündə, ilahi-metafizik gözəlliyin, Allahın Camal isminin güldə təcəllisini bildirir. Başqa sözlə, təbiət (onun bir parçası olan gül) Yaradıcıya işarədir, onun bir zərrəsidir. Nəsimi deyir:

*Mövsimi-novruzü neysan aşikar oldu yenə.*
*Şəhrimiz şeyxi bu gün xoş badəxar oldu yenə.*

*Qönçədən gül baş çıxardı, saldı üzündən niqab.*
*Bülbüli-şeyda xətibi-laləzar oldu yenə.*

Tədqiqatçı Səadət Şıxıyeva bu bahariyyəni belə şərh edir: "Novruz günlərinin coşqun əhvali-ruhiyyəsinin təsiri altında gülün açılmasını üzdən niqabın salınmasına bənzədən şair gizli gözəlliyin üzə çıxmasının bu şəklini məstlik halı kimi izah edir. Şərabı haram sayan şeyxin isə məstlik halı təbiətdən alınan və daxili aləmdə duyulan şadlıq hissinin nəticəsidir. Şair yalnız şeyxi məstliklə əlaqələndirmir, xətib - bülbül də gözəlin eşqinə xütbələr oxuyur..."

Təsəvvüfə görə, yeganə mütləq gerçək Yaradandır. Belə olduğu halda onun yaratdıqları sadəcə Tanrının kölgəsidir. Bu fikir səhihliyi yalnız sufilər tərəfindən qəbul olunan qüdsi hədislə bağlıdır ki, Davud peyğəmbərin Allaha ünvanlanmış dünyanın yaradılması ilə bağlı sualına o, belə cavab verir: "Mən gizli bir xəzinə idim, tanınmaq istədim: insanları və cinləri yaratdım ki, məni tanısınlar". Bu nöqteyi-nəzərdən yanaşaraq sufilər dünyadakı bütün yaradılmışları Allahın gizli mahiyyətini üzə çıxarmaq, təcəlli vasitəsi hesab edirlər. Bu mənada təbiətdə mövcud olan gözqamaşdıran gözəlliyə malik hər şeydə Yaradanın nurunu görmək mümkündür. Başqa sözlə, dünya onun yaradıcısını əks etdirən güzgüdür. Aşağıdakı qəzəldə Novruz mövsümü, yəni baharın gəlişi ilə gülün qönçədən baş çıxarması gerçəklərin gün üzünə çıxması, Tanrı sirrinə vaqif olmanı bildirir.

*Qunc içində qönçə olub dürc olur dürri-Ədən,*
*Şol çəmən səhnində açılmış baharım xoşmudur?*

Vəhdət konsepsiyası təsəvvüf ədəbiyyatının leytmotivini təşkil edir. Klassik Şərq şeirində qönçənin vəhdət (birlik), açılmış gülün isə kəsrətə (çoxluğa) işarə etdiyi bəllidir. Kosmoqonik İslam düşüncəsinə görə, əhədiyyət (birlik, vəhdət) mərtəbəsinin sahibi olan Allah qönçə kimi sirri yalnız özünə məlum olan gizli aləmdə ikən zatını kəsrətin ilk adı sayılan Həqiqəti-Məhəmmədiyyə surətində bəlli etmişdir. Beləliklə, beytdə Ədən dürrünün naz içində qönçə olub sandıqçaya dönməsi tərənnüm olunur və çoxluqda birlik, birlikdə çoxluq gül simvoluyla ifadə edilir.

"Bahar" kəlməsinin klassik şeirdəki istifadəsinin sıxlığını vurğulayaraq qeyd edək ki, təbiətin canlanması, işrət aləmlərinin başlama müjdəsi, yenilik xəbərçisi kimi istifadə edilən bu anlayış məqamından asılı olaraq müxtəlif cür mənalandırılır: ən geniş yayılanı isə çiçək, yarpaq, mövsüm, bəzən isə üz-yanaq, ömür mənalarıdır. Bu şeirlərdə "bahar" mövsüm anlamından daha çox təzəlik və yaşıllıq mənasında işlənir. Təsəvvüfə görə bahar yalnız təbiətin 4 halından, mövsümlərdən biri deyil; daha çox mənəvi anlam daşıyır. Belə ki, fiziki mənada təbiətin oyanışı, təzələnmə fəsli olan bahar irfani düşüncədə ruhun, təfəkkürün yenilənməsi, mənəvi oyanış anlamına gəlir. Bu mənada təsəvvüf lirikasında baharın seyri bəsirət gözü ilə görülən, batində olana nüfuz ediləndir.

*Əgərçi firqətin qışdır ki, əl bərdü ədüvvid-din,*
*Həqə minnət ki, vəslindən gül açıldı, bahar oldu.*

Şair ayrılığı qış fəslinə bənzədərək, vüsalın təsirindən güllərin açılıb, fəslin bahar olduğunu qeyd edir. Ümumiyyətlə, təsəvvüf şeirində bahar yenilənmə, qovuşma, sevinc və vüsalı ifadə etdiyi kimi, qış və payız (xəzan) da əsasən kədər, sonlanma, ayrılıq, ölüm kimi neqativ hallarla assosiasiya olunur:

*Bağrımı doğrar fəraqın xarı, ey cənnət gülü,*
*Növbahar olsun, gül olsun, arada xar olmasın.*

Eşq Yaradanın atributlarından biri olan gözəllik vasitəsilə təzahür edir. Dünyadakı bütün mövcudat bu gözəlliyin sübutu, şahididir və varlığı ilə insana hər şeyin yaradanını xatırladır. Buna görə də gözəllik və sevgi anlayışları təsəvvüf estetikasının vacib aspektləri olub, bu ədəbiyyatın inkişafını stimullaşdırmağa xidmət etmişlər. Mütəsəvviflər qızılgüllə yanaşı, bütün çiçəkləri ilahi gözəlliyin təcəllisi olaraq görürlər. Buna görə də qızılgül qədər olmasa da, digər çiçəklər də klassik Şərq şeirində, o cümlədən Nəsimi yaradıcılığında müxtəlif müstəqim və rəmzi mənalarda işlənməkdədir:

*Ki, çıxdı qönçədən sünbül giriban çak edər məntək,*
*Dəlindi qüssədən bağrım, sən etmə yürəgim yarə.*

*Çəmənlər müxtəlif oldu həzar əlvan çiçəklərdən,*
*Açıldı laləvü nəsrin, şükufə gəldi əşcarə.*

*Açıldı nərgisü lalə, tutubdur yasəmən çadır,*
*Söyütlər, ərğəvan titrər, qamışlar mindi ənharə.*

Gül-qızılgül obrazının sevgiliyə - Allah və onun Peyğəmbərinə metafora kimi işlənməsini əsasən orta əsrlərdən başlayaraq klassik Şərq ədəbiyyatında sıx-sıx izləməkdəyik; üz, yanaq və dodaqların gülə, qızılgülə, qönçəyə bənzədilməsinə yüzlərlə nümunə var: "gül üzlü", "gül yanaqlı", "gül camalın", "gül çöhrəli", "hüsnün güldür" və s. ifadələr vasitəsilə gülə bənzədilən sima adətən sevgili məhbuba - Allah və onun həbibi Məhəmməd Peyğəmbərə aid edilir. Nəsimidə də "Şol üzü gül, qaməti sərvü çinarım xoşmudur?", "Yanaqları gül, lə'li şəkərbar, kimin var?", "Səhərdə gül üzün şaha, çü gülşəndə gülab oynar", "Ol gözləri nərgis, üzü gül, qaşı kəmanə", "Ey nərgisi-məstü üzü gül, bənləri hindu" və bu kimi xeyli sayda digər nümunələrdə bunu müşahidə etmək mümkündür:

*Gül yanağın həsrətindən bülbül, ey can aşiqi,*
*Ah edər gül həsrətindən, bilməz xəndan gəlir.*

Və ya:

*Can yanağın həsrətindən dəgməniz, olmaz cüda,*
*Qanda kim görsə güli-tər, bülbüli-zar andadır.*

Aşiq məşuqənin eşqiylə inləsə də, bu sevgidən əsla imtina etməyən, bu əzabları sevgilisinin lütfü kimi dəyərləndirən fədakar obrazdır. Nə olur-olsun, eşqi uğrunda, vüsal naminə hər cür əziyyətə qatlaşmağa hazırdır.

Aşiqin divan ədəbiyyatındakı təmsilçiləri bülbül və pərvanədir. Biri eşqi uğruna inlər, digəri özünü oda yaxar və uzun sürən çilələr sonda ikisinin də həlakına səbəb olar. Bülbülün fəryadı sevgilinin camalına həsrət qaldığındandır. Haqq aşiqi vəhdəti simvollaşdıran gülün bülbülüdür. Bülbül güllə eyni assosiativ cərgəyə aiddir, harada gül varsa, orada bülbül var. Təsəvvüf poetikasında sonsuz mənalandırmalara açıq olan gül və bülbül rəmzləri Nəsimi şeirində bəzən rəmzi-irfani, yoxsa real-müstəqim məna daşıdığını fərqləndirmək çətin olur. Bunun üçün beytləri bütövlükdə mətn kontekstində şərh etmək lazımdır.

Tədqiqatçı Y.Babayev gülü təriqət ədəbiyyatında "Tanrı rəhməti və ehsanından insan qəlbində yaranan fərəh və sevinc" kimi şərh edir. Hz. Peyğəmbərin qızılgül haqqında "Qırmızı qızılgül Allahın ehtişamının təzahürüdür" fikrini səsləndirdiyi rəvayət edilir. Başqa bir rəvayətə görə, Hz.Məhəmmədin yerə düşən tər damcısından yaranan qızılgül onun nişanəsidir. Mötəbər hədis qaynaqlarında gülün-qızılgülün Hz.Peyğəmbərin tərindən yaradıldığına dair heç bir rəvayətə rast gəlinmir. Ona görə də tədqiqatçıların fikrincə, güllə bağlı bu yozumlar sadəcə Hz.Məhəmmədə olan sevginin təzahürü olaraq meydana gəlmişdir. Məşhur "Su" qəsidəsində:

*Suya versin bağiban gülzarı, zəhmət çəkməsin,*
*Bir gül açılmaz üzüntək, versə min gülzarə su,* -

deyə Füzuli Hz.Peyğəmbərin üzünü gülə-qızılgülə bənzətməklə bu ehtişam və gözəllikdə gülün bir daha yetişməsinin mümkünsüzlüyünü bildirir. Nəsimidə isə oxşar fikirlər bu şəkildə ifadə edilməkdədir:

*Nə gül bitdi gülüstanda ki, bənzər uşbu rüxsarə,*
*Nə bir sərv ola bostanda ki, həmta qəddi-balayə.*

Mütəsəvviflər gülün rənglərinə də fərqli simvolik anlamlar yükləmişlər. Gülün-qızılgülün klassik şeirdə ən çox alov, yaxud qırmızı rəngin simvolu kimi işlənməsi təsadüfi deyil. Belə ki, qırmızı qızılgül görünüşü və rəngi etibarilə aşiqin ürəyində açılan yara kimi simvollaşmışdır. Təsəvvüfdə isə qırmızı qızılgül Allahın izzətinin təzahürünə bənzədilmiş, ilahi camalın simvoluna çevrilmişdir: bağça və ya çəmənlikdə açılmış gül alov kimi alqılanır. Çünki yayğın rəvayətə görə, əvvəllər rəngi qırmızı olmamış qızılgülün ləçəkləri onun tikanından yaralanmış bülbülün qanından qızarmışdır.

Gül-qızılgül fərqli bir baxış bucağından ömrün qısalığı səbəbiylə dünya həyatının ötəri, keçici, fani olduğunu da ifadə etməkdədir. Gül bağçası mənasındakı "gülzar" qəlbin fəthi və açılışını, salikin könlünün mərifət və irfana açılmasını, mənən təmizlənib İlahi gözəlliyin təcəllisinə hazır hala çatmasını təmsil edir.

*Bahar oldu, gəl ey dilbər, tamaşa qıl bu gülzarə,*
*Buraxdı qönçələr pərdə bəşarət bülbüli-zarə.*

Gülzar, gülşən, gülüstan kimi sözlər gülün olduğu məkanların adıdır və gül bağçası könül açıqlığı, yaxud kirindən, pasından arınaraq ilahi gözəlliyin yansımasına hazır hala gəlmiş qəlbi bildirir. Nəsimi qəzəlində də bahar - batində ruhaniyyətin təzahürü, gülzar - qəlbin səfasıdır.

Təsəvvüf poetikasında sərvi vəhdəti, gül-qızılgül də kəsrəti təmsil etdiyindən "sərvi-güləndam" kimi ifadələrlə kəsrət altında gizlənən vəhdət ifadə edilir. Çox sayda olmasa da, Nəsimi lirikasında da bu ifadəyə rast gəlinir.

*Ey gülüstanım, gülüm, sərvi-güləndamım mənim,*
*Sağərim, şəm'im, şəbistanım, məlayikmənzərim.*

Nəticə olaraq qeyd edək ki, qızılgülün bədii ədəbiyyatda simvol kimi işlənməsi həm Şərq, həm də Qərb ədəbiyyatında XIX əsrdən etibarən nisbətən azalsa da, müasir dövrə qədər onun müxtəlif mənalandırmalarına yeri gəldikcə müraciət olunur. Çağdaş dünya ədəbiyyatının ən məşhur postmodern əsəri hesab olunan "Qızılgülün adı" romanının müəllifi Umberto Eko romanı haqqında qeydlərində yazır ki, qızılgül simvolik fiqur kimi mənalandırmalarla elə zəngindir ki, demək olar onun mənası yoxdur. Belə qənaətə gəlmək olar ki, qızılgül simvolu intertekstuallaşaraq sonsuz mənalandırmalara açıq olduğundan bütünlüklə dünya ədəbiyyatı, xüsusilə poeziyasında, o cümlədən klassik Şərq və Nəsimi şeirində ən çox müraciət edilən rəmzi obrazlardan olmuşdur.

***Baba BABAYEV,***
***AMEA Nizami Gəncəvi adına***
***Ədəbiyyat İnstitutunun baş elmi işçisi,***
***filologiya elmləri doktoru***

Milli qəhrəmanlarımız

# Məğlubiyyəti əsgər adına yaraşdırmırdı

Vətən uğrunda döyüşənlər həmişə ehtiramla xatırlanırlar. İgidlərin şərəflərinə abidələr ucaldılır, heykəllər qoyulur. Adı əbədiləşən cəsur oğullardan biri də Qarabağ müharibəsində hünər göstərmiş Azərbaycanın Milli Qəhrəmanı İsmayılov Etibar Bəylər oğludur. Onun döyüşlərdə göstərdiyi şücaət heç vaxt unudulmayacaq qəhrəmanlıqdır. Etibarın erməni işğalçıları ilə son döyüşü 4 yanvar 1994-cü il Xocavənd rayonunun Nərgiztəpə yüksəkliyində oldu. Ertəsi gün isə bu igid əsgərə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adının verilməsi barədə dövlət başçısının fərmanı elan olundu.



Etibarın həyat və döyüş yolu ilə yaxından tanış olmaq üçün doğulub boya-başa çatdığı Ağcabədi rayonunun Hindarx kəndinə getdim, xidmət etdiyi hərbi hissədə oldum. Döyüşçü yoldaşları, doğmaları ilə görüşüb söhbətləşdim. Öyrəndim ki, atası Bəylər İsmayılov da Böyük Vətən müharibəsində iştirak edib.

Söhbət zamanı Etibarlı günlərini xatırlayan Bəylər kişi həm oğlundan, həm də iştirakçısı olduğu müharibənin odlu-alovlu günlərindən söz açdı:

- Etibar hələ məktəbli olanda məndən müharibədən, döyüşlərdən danışmağı istəyərdi. Sözünü yerə salmazdım. Düşünürdüm ki, qoy hər şey onun istədiyi kimi olsun. Sözlərindən balaca sinəsində cəsurluq göstərməyə qadir olan bir ürək döyüntüsü hiss olunurdu. Erməni işğalçıları torpaqlarımıza hücum çəkəndə o da kənddəki tay-tuşlarına qoşulub Kərkicahanın müdafiəsinə yollandı.

Etibarın komandiri olmuş mayor Fazil Həsənov qəhrəmanı xatırlayaraq dedi ki, 1991-ci ilin noyabrında Kərkicahanın müdafiəsində dayanmışdıq. Ağcabədi rayonunun Hindarx kəndindən döyüşə 23 nəfər gəlmişdi. Onların arasında Etibar adlı oğlan elə ilk gündən cəsarəti ilə diqqət çəkdi. Tapşırıqları cəsarətlə yerinə yetirərdi. Üstündə tank əleyhinə qumbara gəzdirən Etibar bir gün onu mənə göstərib: "Komandir, ömrümün son anında da olsa, elə bir igidlik göstərəcəm ki, hamını heyrətə salsın" dedi.

Etibar 1993-cü ilin əvvəllərində Ağcabədiyə dönür. Çünki həmin günlərdə rayonda könüllülər taboru yaradılırdı. Çox keçmir ki, Etibargil döyüşlərə atılırlar. Erməni işğalçıları Nərgiztəpə istiqamətindən Ağcabədiyə yaxınlaşırdı. İgid döyüşçülərimiz düşmənin həmlələrini dəf edirdilər. Etibar İsmayılov əsgər yoldaşları ilə düşmən arxasına keçər, tapşırıqları yerinə yetirib geri dönərdi.

Əlli nəfərdən ibarət qrup mühüm tapşırığı yerinə yetirmək üçün gecə yarıdan keçmiş Nərgiztəpə yüksəkliyinə doğru hərəkət edirdi. Əməliyyata gedən əsgərlər yüksəkliyin zirvəsinə qalxanda işğalçılarla üz-üzə gəldilər. Qüvvələr qeyri-bərabər olsa da, geri çəkilmədən vuruşmağa başladılar. Etibar təkbaşına düşmən səngərinə hücum çəkərək döyüşçü yoldaşlarının irəliləməsinə şərait yaratdı. İşğalçılar hücum qarşısında dayana bilməyib geri çəkildilər. Od püskürən silahlar susdu. Amma sakitlik uzun sürmədi. Düşmən birazdan döyüşə əlavə qüvvələr cəlb edərək hücuma keçdi. Əsgərlərimiz mühasirəyə düşmək təhlükəsi ilə üzləşdilər. Üç döyüşçü şəhid oldu, dörd nəfərsə ağır yaralandı. Əlverişli mövqe tutmaq istəyən Etibar yaralandı. Əsgər dostları onu geri çıxarmaq istəsələr də, o, razılaşmadı, taqım komandiri kimi əsgərlərinə əmr etdi: "Siz arxaya çəkilin, mən ermənilərin tankını partladacağam!" Etibar yaralı vəziyyətdə yüksəklikdə ermənilərin zirehli texnikası ilə təkbətək qaldı. Tank dayanmadan nərilti-gurultu qopararaq ona tərəf irəliləyirdi. Etibar tank əleyhinə qumbaranı əlində tutaraq son döyüşünə hazır dayanmışdı. Çoxdan bəri gözlədiyi qəhrəmanlıq anı yaxınlaşırdı. Həlak olsa da, zirehli texnika ilə döyüşdən qalib ayrılmalıydı, məğlubiyyət onun əsgər adına yaraşmazdı. Yaxınlaşan kimi özünü zirehli texnikanın tırtılları altına atdı. Həmin an ətrafı güclü partlayış dalğası silkələdi. Döyüşçülərimizə tərəf irəliləyən düşmən tankı bir göz qırpımında alova büründü. Ermənilər bundan qorxub hücumlarını dayandırdılar. Ömrünün ən gözəl çağlarını yaşayan Etibar son nəfəsində böyük qəhrəmanlıq göstərdi.

- Ölümündən bir gün əvvəl evə gəlmişdi, - deyə Bəylər kişi söhbətinə davam etdi. - Ata-bala ordan-burdan söhbət etdik. Arxasınca maşın gələndə hamı ilə sağollaşıb yola çıxdı. Ertəsi gün isə eşitdiyim dəhşətli xəbərdən sarsıldım, balam şəhid olmuşdu. O anlarda hansı addım atacağımı bilmirdim. Hərbi hissəyə getdim ki, uşağın meyitini gətirib dəfn edək. Yüksəklik düşmənlərin əlində olduğundan ora yaxınlaşmaq mümkün deyildi. Komandanlıq ermənilərlə danışığa çox cəhd etsə də, heç nə alınmadı. Axşama qədər gözlədikdən sonra kor-peşiman geri qayıtdıq. Ertəsi gün axşama yaxın qohumum Rövşən zəng vurub dedi ki, ölkə rəhbərinin fərmanı ilə Etibara "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Övlad itirmiş ata kimi, ağır dəqiqələrimdə bu mənə təsəlli oldu.

Bəylər kişi otaqlardan birini övladı üçün muzey düzəldib. Oraya ayaq basan kimi Etibarın böyüdülmüş şəkli ilə qarşılaşdıq. Sol tərəfdə qəhrəmanın bir vaxtlar əyninə geyindiyi səhra geyimi asılıb. Yataq yeri səliqə ilə yığışdırılmışdı. Otağın qapısı heç vaxt bağlanmır.

Etibar İsmayılovun meyiti döyüş meydanında qaldığından məzarı yoxdur. Amma uğrunda son nəfəsinədək vuruşaraq şəhid olduğu Nərgiztəpə yüksəkliyi əbədi olaraq onu isti qoynuna alıb əzizləyir. Məğlubiyyəti əsgər adına yaraşdırmayan Etibar kimi oğulların məzarı ürəklərimizdədir.

***Vahid MƏHƏRRƏMOV***

# INNOLAND və "AzerGold" QSC-nin Akselerasiya proqramında iştirak edəcək startapları müəyyənləşdi






Oktyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzində "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) ilə birgə təşkil olunan Akselerasiya Proqramına seçimlər keçirilib.

Cari ilin 14 avqust-29 sentyabr tarixlərində proqramda iştirak üçün qeydiyyatdan keçən 8 startap komandası prototipi mövcud və ya inkişaf mərhələsində olan, müəyyən bazar seqmentinə aid faydalı innovativ həllər təklif ediblər.

Tədbir zamanı "AzerGold" QSC-nin aidiyyəti şöbələrinin rəhbərləri və INNOLAND-ın nümayəndələrindən ibarət münsiflər heyəti istehsalat proseslərinin optimallaşdırılması, ixtisasların potensial inkişafı, bacarıqların artırılması, aparıcı texnologiya, avadanlıq və həll yollarından istifadə edilməsi kimi müxtəlif meyarlar üzrə startapları qiymətləndiriblər.

Yekunda ən yüksək bal toplayan "Join B2B", "Buqələmun", "Təmiz hava", "Bioqaz" və "Kitablı" startapları növbəti mərhələyə keçərək Akselerasiya Proqramında iştirak etmək hüququnu və layihələrini reallaşdırmaq imkanını əldə ediblər. 3 ay davam edəcək proqram çərçivəsində startap komandalarına hər həftə müxtəlif təlimlər keçiriləcək, tapşırıqlar veriləcək. Həmçinin "AzerGold" QSC-nin aidiyyəti şöbələrinin rəhbərləri mentor qismində mütəmadi olaraq startapçıları dəstəkləmək və istiqamətləndirmək məqsədilə görüşlər keçirəcəklər.

Proqramı uğurla bitirən startaplar "AzerGold" QSC ilə birbaşa əməkdaşlıq imkanı qazanmaqla yanaşı, 2020-ci ildə Türkiyədə keçiriləcək "Startup Turkey" tədbirinə qatılmaq imkanını da əldə edəcəklər.

Qeyd edək ki, "AzerGold" QSC və INNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi arasında cari ilin 25 iyul tarixində imzalanan əməkdaşlıq müqaviləsi çərçivəsində reallaşdırılan Akselerasiya Proqramının əsas məqsədi sahələrarası innovasiyanı stimullaşdırmaq üçün sənayenin inqilabi startaplarını bir araya gətirmək, sahə üzrə yenilikləri stimullaşdırmaq, prosesləri optimallaşdırmaq, sənayenin Azərbaycanda və regionda yeni bir standart müəyyən etməsinə töhfə verməkdir.

***"Azərbaycan"***

# Oğullar əsgər gedir, ata-ana xeyir-duası ilə...

Hər bir ailədə oğlan uşağı doğulanda toy-bayram yaşanır. Bu ona görədir ki, "Oğul düşmənə çəpərdir" deyib ulularımız.



Böyüyəndən sonra valideynə arxa-dayaq olmaqla yanaşı, vətənin keşiyini çəkəcək oğlanın dünyaya gəlməsinə sevinib insanlar. Bu elə indi də belədir. Axı ən çətin, ağır zamanlarda vətəni, torpağı, eli-obanı oğullar, kişilər qoruyurlar.

Hacıqabul Rayon Səfərbərlik və Hərbi Xidmətə Çağırış Şöbəsinin həyətinə xeyli adam yığılmışdı. Birazdan çağırışçılar təntənə ilə hərbi hissələrə yola salınacaqdı. Çağırışçıların və valideynlərin bir neçəsindən hansı hissləri keçirdiklərini söyləmələrini xahiş etdik. Çağırışçı Elnur Rəhimov dedi ki, Hacıqabul rayonunun Talış kəndindəndir. Orada boya-başa çatıb. Orta məktəbdə oxuyarkən idmanın qaydasız döyüş növü ilə məşğul olub. Elnurun atası Elçin Rəhimov söhbətə qoşuldu:

- Ailəmizin böyük övladıdır, özündən kiçik bir qardaşı və bir bacısı var. İnşallah, əsgərlikdən gəlib təhsil alar, ailə qurar. Mən II qrup Qarabağ müharibəsi əliliyəm. Füzulinin Kürdmahmudlu, Alxanlı, Qaraxanbəyli və Tərtərin Seysulan kəndlərində vuruşmuşam. 1994-cü il aprel ayının 26-da Seysulanda gedən ağır döyüşdə ölümcül yaralandım. İndinin özündə ciyərlərimdə qəlpələr gəzdirirəm. Lakin buna baxmayaraq, ölkə rəhbəri, Ali Baş Komandan İlham Əliyev əmr versə, silaha sarılıb Qarabağı yağı düşməndən azad etməyə mən də hazıram. Söhbət etdiyimiz digər çağırışçı Allahverdi Ağayevin üz-gözündən sevinc yağırdı. Hiss olunurdu ki, o da vətən qarşısındakı borcunu verməyə getməyindən məmnundur. Allahverdi bu il Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecini bitirib. İdmanın karate növü ilə məşğul olur. Ailənin yeganə oğludur.

Anası Yaqut xanım və atası Qalib Ağayevlər onu ötürməyə gəlmişdilər. Qalib Ağayev 27 ildir ki, Daxili Qoşunların N saylı hərbi hissəsində xidmət edir. 1993-1995-ci illərdə Füzulinin Böyük Bəhmənli, Bala Bəhmənli, Arayatlı, Kərimbəyli kəndlərində gedən döyüşlərdə iştirak edib. O, fikirlərini bizimlə belə bölüşdü:

- Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunun Soçidə keçirilən plenar iclasındakı çıxışı hər bir azərbaycanlı kimi mənim də ürəyimcə oldu. O, Ermənistana növbəti siyasi diplomatik zərbə vurub, düşmən ölkənin baş nazirini mat vəziyyətinə saldı. Bütün dünya İlham Əliyevin böyük siyasətçi olduğunu bir daha təsdiq etdi. Belə bir lideri olan xalq mütləq qalib gələcəkdir. Yaxşı olar ki, sülh yolu ilə torpaqlarımız geri alınsın. Müharibə olarsa, mən də oğluma qoşulub cəbhəyə getməyə hazıram. Bunun başqa yolu yoxdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Dənizdə itkin düşən dörd balıqçıdan üçü xilas edilib







Oktyabrın 8-də saat 10:20 radələrində Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzindən Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinə oktyabrın 2-də dənizə çıxmış dörd nəfər heyəti olan "SA-1672" bort nömrəli bayda tipli üzmə vasitəsilə ayın 7-də saat 16:00 radələrindən sonra əlaqənin kəsilməsi barədə məlumat daxil olub.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, məlumat alındıqdan dərhal sonra dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmilərinə axtarış barədə tapşırıqlar verilib və əraziyə yaxın fəaliyyət göstərən bütün üzmə vasitələri məlumatlandırılıb.

Aparılmış birgə axtarış tədbirləri nəticəsində itmiş qayığın üç nəfərlik heyəti aşkarlanaraq xilas edilib və oktyabrın 9-da saat 00:55 radələrində dənizdə dövlət sərhədinin mühafizəsində olan "Şahdağ" tipli gəminin bortuna götürülüb.

Xilas edilmiş balıqçılar ilkin tibbi yardım göstərilərək isti geyim və qida ilə təmin olunub və saat 07:10 radələrində Sahil Mühafizəsinin bazasına gətiriliblər. Onların Neftçala rayonu sakinləri 1980-ci il təvəllüdlü Valeh Vidadi oğlu Babayev, 1975-ci il təvəllüdlü Elbrus Yəhya oğlu Cəfərov, 1971-ci il təvəllüdlü Aqil Şamil oğlu Əhmədov olmaları müəyyənləşib. Üzmə heyətinin digər üzvü - Neftçala rayonunun sakini 1976-cı il təvəllüdlü Vurğun Akif oğlu Quliyevin axtarışları indiyədək nəticə verməyib.

***"Azərbaycan"***

# Vətən sizə oğul deyir

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət öz bəhrəsini vermiş, ölkəmizin müdafiə qüdrəti gücləndirilmiş, modern ordu yaradılmışdır. Belə bir ordu sıralarında xidmət etməyi hər bir azərbaycanlı özünə şərəf bilir.



Düşmən ölkə ilə 16 kilometr həmsərhəd olan Ağstafa rayonunun gəncləri də həqiqi hərbi xidmətə böyük ruh yüksəkliyi ilə gedirlər. Çağırışçıların yola salınması da həmişə təntənəli keçirilir. Bu dəfə də belə oldu.

Növbəti yolasalma mərasiminin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri qoymuşlar. Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev mərasimdə çıxış edərək hərbi xidmətə yola salınan gəncləri təbrik etdi, onları Vətənin müdafiəsi kimi müqəddəs bir işdə ayıq-sayıq olmağa çağırdı, komandirlərin tapşırıqlarını sözsüz yerinə yetirməyi, ölkəmizin ərazi bütövlüyünü qorumağı, hərbin sirlərinə mükəmməl yiyələnməyi tövsiyə etdi. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağstafa rayon şöbəsinin rəisi Nazim Çələbiyev çağırışçı gənclərə Vətəni qorumaq etimadını layiqincə doğrultmaq üçün onların qarşısında duran vəzifələrdən danışdı.

Valideynlər adından çıxış edən Azad Hadıyev övladını hərbi xidmətə yola salmaqdan qürur duyduğunu bildirib, bütün çağırışçılara Vətən qarşısında olan borclarını şərəflə yerinə yetirib sağ-salamat qayıtmağı arzuladı. Mərasimin sonunda çağırışçı gənclər üçrəngli bayrağımızı öpərək hərbi hissələrə yola düşdülər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Dövlət Sərhəd Xidməti həqiqi hərbi xidmətə və işə qəbul elan edir

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) həqiqi hərbi xidmətə və işə qəbul elan edir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, xidmətə zabit, gizir qismində həqiqi hərbi xidmətə və ya işə qəbul olmaq üçün həkim-ümumi cərrah, həkim-otorinolorinqoloq, həkim-epidemioloq, həkim-terapevt, həkim-infeksionist, həkim-rentgenoloq, həkim-statistik, həkim-travmatoloq-ortoped, həkim-anestezioloq-reanimatoloq ixtisasları üzrə tibb təhsili olan vətəndaşlar sənədlərini təqdim edə bilərlər. Kişi namizədlər müddətli həqiqi hərbi xidməti keçmiş, fiziki cəhətdən sağlam və Azərbaycan Respublikasının istənilən bölgəsində xidmət etməyə hazır olmalıdırlar.

Xidmətə və ya işə qəbul olmaq istəyən kişi və qadın namizədlər DSX-nin Aparatına və ya yaxınlıqdakı hərbi hissələrin kadrlar bölmələrinə müraciət edə bilərlər.

Əlavə məlumat üçün Bakı şəhəri, Z.Əliyeva küçəsi, 30 ünvanına müraciət etmək olar.

Əlaqə telefonu: (012) 493-62-47.

***"Azərbaycan"***

## Beynəlxalq aləm

# Pelosi Ağ evi impiçment təhqiqatına maneçilikdə ittiham etdi



Ağ evin ABŞ Prezidenti Donald Tramp barəsində impiçment proseduru çərçivəsində əməkdaşlıqdan imtina etməsi təhqiqata maneçilik hesab olunacaq. Bu barədə ABŞ Konqresi Nümayəndələr Palatasının spikeri Nensi Pelosi bildirmişdir. O, bəyanatında əməkdaşlıqdan imtina ilə bağlı Ağ evin hüquqşünasının məktubunu "faktları və sübutları qanunsuz gizlətmək cəhdi" kimi qiymətləndirmiş və xatırlatmışdır ki, Tramp qanundan üstün deyil.

Məlum olduğu kimi, bir müddət əvvəl Konqresdə Tramp barəsində impiçment proseduru başlamışdır. İddiaya görə, ABŞ lideri şəxsi siyasi məqsədləri güdərək Ukrayna Prezidenti Vladimir Zelenskiyə təzyiq göstərmişdir. Həm Tramp, həm də Zelenski təzyiq faktını təkzib edirlər.

# BVF ticarət müharibələrinin qlobal fəsadları barədə xəbərdarlıq etdi



Qlobal miqyasda ticarət münaqişələri ona gətirib çıxara bilər ki, 2020-ci ildə dünya iqtisadiyyatının itkisi ümumilikdə təxminən 700 milyard dollar təşkil edə bilər. Bu barədə Vaşinqtonda Beynəlxalq Valyuta Fondunun (BVF) başçısı Kristalina Georgiyeva məlumat vermişdir.

Georgiyeva demişdir: "Ticarət müharibəsində hər kəs uduzur. Ticarət münaqişələrinin dünya iqtisadiyyatı üçün ümumi effekti 2020-ci ildə təxminən 700 milyard dollar, yaxud ÜDM-in təqribən 0,8 faizi həcmində itkiyə bərabər ola bilər. Bu, İsveçrənin bütün iqtisadiyyatının təqribi həcmidir". O əlavə etmişdir ki, hazırda dünya iqtisadiyyatı inkişaf sürətinin eyni vaxtda ləngiməsi mərhələsini yaşayır.

BVF-in analitikləri bu il dünya ölkələrinin təxminən 90 faizində iqtisadi artımın ləngiməsini gözləyirlər. Bu ləngimə hazırkı onillik başlayandan bəri ən böyükmiqyaslı ləngimə olacaq.

Georgiyeva həmçinin bildirmişdir ki, fondun gələn həftə dərc edəcəyi dünya iqtisadiyyatı proqnozunda 2019-2020-ci illər üçün iqtisadi inkişafın əvvəlki proqnozları pisləşmə tərəfinə korrektə ediləcək.

# Türkiyənin şərqində 6 terrorçu zərərsizləşdirildi



Türkiyənin şərqində yerləşən Van və Hakkari vilayətlərində keçirilmiş antiterror əməliyyatları zamanı 6 terrorçu zərərsizləşdirilmişdir. Bu barədə TRT telekanalı xəbər verir. Türkiyə Daxili İşlər Nazirliyinin məlumatına görə, 4 terrorçu Hakkaridə məhv edilmişdir. Əməliyyata havadan dəstək verilmişdir. Bundan əlavə, 2 terrorçu Van vilayətində zərəsizləşdirilmişdir.

Regionda antiterror əməliyyatları davam edir.

# Ekvador BMT-dən kömək istədi



Ekvador hökuməti ölkədə səngiməyən iğtişaşlarla əlaqədar BMT-dən kömək istəmişdir. Bu barədə RİA "Novosti" agentliyi xəbər verir.

Ekvador Xarici İşlər Nazirliyi bildirmişdir ki, hökumət öz xahişini BMT-nin Kitodakı nümayəndəsinə çatdırmışdır.

Bundan əvvəl BMT-nin nümayəndəliyi ölkədə etirazları müşayiət edən zorakılıqdan narahatlığını bildirmiş və prosesin bütün iştirakçılarını dialoqa çağırmışdı. Beynəlxalq təşkilat həm də ölkədə sabitliyin bərpası işinə kömək etməyə hazır olduğunu bildirmişdi.

Xatırladaq ki, Ekvadorda etirazlar oktyabrın 1-də Prezident Lenin Moreno yanacağa dövlət subsidiyalarının ləğvini və qiymətlərin liberallaşdırılmasını ehtiva edən iqtisadi islahatları elan etdikdən sonra başlamışdır.

Paytaxtda iğtişaşlar üzündən parlamentin işi dayandırılmışdır.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Bakı Protez-Ortopedik Bərpa Mərkəzi üçün avadanlıqların satın alınması üzrə keçirilən

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200,0 (iki yüz ) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**M/H: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/H: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29 oktyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07 noyabr 2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07 noyabr 2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək digər maşın və avadanlıqların satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək digər maşın və avadanlıqların satın alınması

**- İştirak haqqı: 500,00 (beş yüz) manat**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu : - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29.10.2019-cu il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **06.11.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07.11.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsi

### *açıq tenderə dəvət edir*

- Pensiya, sosial sığorta və sosial müavinət məsələləri ilə bağlı bütün instansiyalarda məhkəmə işləri üzrə hüquqi dəstəyin göstərilməsi xidməti.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat İdarəsi tərəfindən Hüquqi xidmətlərin (məhkəmə işləri üzrə hüquqi dəstəyin göstərilməsi xidməti) satın alınması üçün keçirilən açıq tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200,00 manat (iştirak haqqı heç bir halda geri qaytarılmır.)**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**VÖEN: 1301259111**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ94CTRE00000000000007018416**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142319**
**Büdcə səviyyəsinin kodu : - 4**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29.10.2019-cu il saat 17:00-a** qədər və tender təklifini **07.11.2019-cu il saat 12:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07.11.2019-cu il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan Sosial Xidmət Müəssisələri tərəfindən istifadə ediləcək inventarların satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir:**

- Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan Sosial Xidmət Müəssisələri tərəfindən istifadə ediləcək inventarların satın alınması

**- İştirak haqqı 400,00 (dörd yüz) manat**

**VÖEN: (DSMF)1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**H/h: AZ91CTRE00000000000002138206**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142340**
**Büdcə səviyyəsinin kodu : - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *podratçının müəyyən etdiyi digər sənədlər;*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30.10.2019-cu il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.11.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.11.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Azərbaycan İnvestisiya Şirkəti” ASC tərəfindən Sabirabad Sənaye Məhəlləsi üçün mühafizə xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 23.09.2019-cu il tarixli qərarına əsasən, “International Security Service Mühafizə Xidməti” MMC kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 09.10.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

17 sentyabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatına Dövlət sosial sığorta şəhadətnamələrinin satınalınması üzrə keçirilmiş açıq tenderdə “Nur-SS” MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

08 oktyabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun həyətyanı sahəsində abadlıq işlərinin satınalınması üzrə keçirilmiş kotirovka sorğusunda “AZ-AVS” MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

24 iyul 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanlarına “Digər maşın və avadanlıqların” satın alması üzrə keçirilmiş açıq tenderdə “Lotus Co” MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

18 sentyabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun aparatı və yerli orqanları tərəfindən istifadə ediləcək avadanlıqların satınalınması üzrə keçirilmiş açıq tenderdə “Kəmər-Qaya” MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

29 avqust 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələrinə “Dəftərxana və təsərrüfat mallarının” satın alınması üzrə keçirilmiş açıq tenderdə “Office Lines” MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

24 iyul 2019-cu il tarixdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində olan sosial xidmət müəssisələrinə “Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin” satın alınması üzrə keçirilmiş açıq tenderdə “Nur-SS” MMC qalib müəyyən edilmiş və satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə nazirinin müavini Ceyhun Həsənov və Penitensiar xidmətin kollektivi “Gəncə Körpü Tikinti-2” Açıq Səhmdar Cəmiyyəti Direktorlar Şurasının sədri Aqibət Məmmədova anası

**TAVAT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Misir Hüseynov “Gəncə Körpü Tikinti-2” ASC-nin Direktorlar Şurasının sədri Aqibət Məmmədova anası

**TAVAT MƏMMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi iş yoldaşları Elçin İsmayılova qardaşı

**ELVİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bərdə Rayon Məhkəməsinin sədri Məhərrəm Allahverdiyev və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əhməd Nurməmmədova qardaşı

**VİDADİ NURMƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Qazax Şəhər Bələdiyyəsinin sədri Tofiq Orucova atası

**İBRAHİM ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mehman Nuriyev Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əhməd Nurməmmədova qardaşı

**VİDADİ NURMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8965
Sifariş 3358
Qiyməti 40 qəpik